Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

SALİDƏ ŞƏRİFOVA

# FƏRƏC FƏRƏCOV YARADICILIĞININ PROBLEMATİKASI, JANR MÜXTƏLİFLİYİ VƏ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

"Sənətkarın elmi pasportu" – 22

Bakı 2021

83.3(5 Aze)
Ş 53

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

SALİDƏ ŞƏRİFOVA

# FƏRƏC FƏRƏCOV YARADICILIĞININ PROBLEMATİKASI, JANR MÜXTƏLİFLİYİ VƏ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

127863

“Sənətkarın elmi pasportu” – 22

[illegible]
Naxçıvan Muxtar Respublikası
KİTABXANASI

Bakı–2021
“Qanun”

*Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 9 dekabr 2020-ci il tarixli iclasının (6 saylı protokol) qərarı ilə çapa tövsiyə olunmuşdur.*

Elmi məsləhətçi
və ön sözün müəllifi: **İsa HƏBİBBƏYLİ**
*akademik*

Rəyçi: **Tehran MUSTAFAYEV**
*AMEA-nın müxbir üzvü*

Elmi redaktoru: **Mehman HƏSƏNLİ**
*filologiya üzrə fəlsəfə doktoru*

**Salidə Şərifova. Fərəc Fərəcov yaradıcılığının problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri.** Bakı, "Qanun", 2021, 164 səh.

Filologiya elmləri doktoru, Salidə Şərifovanın "Fərəc Fərəcov yaradıcılığının problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri" adlı monoqrafiyası Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, şair, yazıçı, publisist, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Fərəc Fərəcovun yaradıcılığına həsr olunmuşdur. Monoqrafiyada Fərəc Fərəcovun həyatı, bədii və elmi publisistikası, qələmə aldığı nəzm və nəsr əsərlərinin problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri geniş təhlil edilərək, oxuculara təqdim olunur.

**ISBN: 978-9952-534-12-2**

**© Salidə Şərifova, 2021**

# ƏMƏLDƏ VƏ ƏSƏRLƏRİNDƏ ÖZÜNÜİFADƏ NÜMUNƏSİ

Əməkdar jurnalist, yazıçı və publisist Fərəc Fərəcovu tanıdığım 1967-ci ildən bu günə qədərki çoxcəhətli fəaliyyətini qısaca olaraq aşağıdakı kimi ifadə etmək olar: özünü danışıqla, sözlə yox, əməldə və ədəbi-publisist yazılarda, əsərlərində ifadə etməyin nümunəsi. Fərəc Fərəcov Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan Filialında birlikdə eyni qrupda oxuduğumuz tələbəlik illərindən başlayaraq fəaliyyətinin sonrakı bütün mərhələlərində, həmişə "az danışmağın gözəlliyini", təmkinli davranışın və yorulmaz yaradıcılıq işinin məsuliyyətini və şərəfini nümayiş etdirmişdir. Bu təbii görkəm mənim və əminəm ki, bütün tələbə yoldaşlarımızın nəzərlərində Fərəc Fərəcovun obrazının ən səciyyəvi cəhətlərini özündə əks etdirən xüsusiyyətdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialında Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə "B" qrupunda 1967-1971-ci illərdə keçən unudulmaz tələbəlik dövründə Fərəc Fərəcov daha çox seminar dərslərindəki cavabları və mülahizələri, bir də ciddi sifətindəki cüzi işıqlı təbəssümü ilə yaddaşımıza yazılmışdır. Lakin ilk baxışda qaradinməz kimi tanıdığımız Fərəc Fərəcov tələbəlik dövrünün kollektiv tədbirlərindən: Novruz bayramı mərasimlərindən, "mayovka" gəzintilərindən, tarixi yerlərə və təbiətə səfərlərimizdən heç vaxt kənarda qalmamış, tələbə dostlarına həmişə doğma, təəssübkeş münasibət bəsləmişdir. Tələbə yoldaşlarımız onu danışığından çox sabit mövqeyinə və çətinliklə hiss olunan nazik təbəssümü ilə ifadə olunan münasibətinə, özünəməxsusluğuna görə tanımışlar. Fərəcin xasiyyəti tədricən tələbə mühitində həzm olunmuş və o, fərdi xarakterə malik sabit tələbə dostumuz kimi qəbul edilmişdir. Tələbəlik illərində bədii-publisistik fəaliyyətlə də məşğul olmasına baxmayaraq, Fərəc Fərəcov yaradıcılıq sahəsindəki işini heç vaxt di-

lə gətirməmişdi. Arabir Naxçıvan Muxtar Respublikasının əsas mətbuat orqanı olan, böyük ənənələrə malik "Şərq qapısı" qəzetində və Culfa bölgəsinin "Zəfər" adlı rayon qəzetində dərc olunan kiçik məqalələri və şeir yazması haqqında sezdiyimiz nüanslar Fərəcin bu sahədəki məşğuliyyətini istər-istəməz nəzərə çarpdırırdı. Lakin o, heç vaxt bunun tələbə mühitində əks-səda tapmasının marağında olmamışdır.

Ali məktəbi bitirdikdən sonrakı dövrdə bir də gözümüzü açıb gördük ki, Fərəc Fərəcov Culfa rayon qəzetinin əməkdaşı və bir neçə nəslin, o cümlədən, bu sətirlərin müəllifinin də yaradıcılıq taleyində mühüm rol oynamış "Şərq qapısı" qəzetinin xüsusi müxbiri kimi yazılarını çap etdirməkdədir. Publisist yazıları ilə diqqəti cəlb edən Fərəc Fərəcova az sonra "Zəfər" qəzetinin baş redaktoru kimi etimad göstəriləndə də o özünün məsuliyyətli işini səssiz-küysüz, bacarıqla yerinə yetirmişdir. Ədəbiyyat ağırlıqlı redaktor olması "Zəfər" qəzetinin inkişaf yolunda qəzetçilikdən bədii publisistikaya, maarifçiliyə doğru inkişafı şərtləndirən fərqli bir mərhələnin formalaşması ilə nəticələnmiş, Culfa rayonunun ədəbi-tarixi keçmişinə dair araşdırma materiallarının, nadir tarixi şəkillərin çap olunması, ədəbiyyat səhifələrinin burada yaşayıb-yaradan yaradıcı qüvvələrin bədii yazılarını oxuculara çatdırması da "Zəfər" qəzetinin həmin dövrünün silinməz izləri kimi qalır.

Özünə və işinə məsuliyyət, yorulmaz yaradıcı fəaliyyət, təmkinli davranış Fərəc Fərəcovu daim ucaltmışdır. O, uzun illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, muxtar respublika Mətbuat Şurasının sədri kimi səmərəli fəaliyyət göstərmişdir. Harada, hansı vəzifədə çalışmasından asılı olmayaraq, Fərəc Fərəcov öz fəaliyyətində ictimai-mədəni mühitin qayğıları ilə bədii yaradıcılıq və publisistika ilə məşğul olmağı gündəlik vəzifələri ilə uzlaşdırmağı bacarmışdır. Bütün hallarda ictimai-mədəni mühitdə öz növbəsində Fərəc Fərəcovu yaradıcı ziyalı kimi fərqləndirmişdir. Naxçı-

van Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycanın Əməkdar jurnalisti Fərəc Fərəcov bu gün də özünün məsuliyyətli və təvazökar yaradıcılıq işini yorulmadan və peşəkarcasına davam etdirməkdədir. Fərəc Fərəcov artıq özünü həyatda da, mətbuatda da, ədəbiyyatda da çıxışları, vədləri ilə yox, təvazökar əməlləri və bədii-publisist əsərləri ilə təsdiq etmişdir.

Bədii və publisistik yaradıcılıq fəaliyyəti Fərəc Fərəcovun taleyi və tərcümeyi-halıdır. İctimai-ədəbi mühitdə qazandığı uğurlara görə o, bədii-publisist yazıları ilə qazandığı imicə borcludur. Fərəc Fərəcov özünün ciddi və ardıcıl yaradıcılıq fəaliyyəti ilə təkcə ədəbiyyatda deyil, həyatda, ictimai-ədəbi mühitdə də haysız-küysüz ucalmağın nümunəsini göstərir. Bu məqamda Fərəc Fərəcovun bədii-publisist əsərlərindəki obyektiv və təmkinli vətəndaş mövqeyinin, milli iftixar duyğusunun, cəmiyyətin ümumi inkişafına xidmət etmək qayəsinin da rolunu xüsusi olaraq qeyd etməmək olmaz. Fərəc Fərəcov əsərlərində aydın vətəndaşlıq mövqeyinin orijinal bədii-publisist ifadəsi ilə artıq öz sözünü demişdir.

Bu gün Azərbaycan oxucusu Fərəc Fərəcovu çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik olan istedadlı və zəhmətkeş bir yazıçı-publisist kimi tanıyır. O, bədii əsərləri və publisist məqalələri ilə ədəbiyyatımıza və mətbuat işinə özünün layiqli töhfələrini verməkdə davam edir. Fərəc Fərəcov ədəbiyyatın bir neçə növündə: epik və lirik növlərin müxtəlif janrlarında maraqlı, oxunaqlı, təsirli əsərlər yazmaqla həm də onu əhatə edən mühitin hadisələrini və personajlarını bədii ədəbiyyatın geniş miqyasına çıxarmağı bacarır. Onun əsərlərindən təbii həyat nəfəsi, torpaq ətri gəlir. Fərəc Fərəcovun qəhrəmanları təvazökar, sabit mövqeyə malik, əxlaqi-mənəvi dəyərləri ön mövqeyə çəkən sadə adamlardır. Onun əsərlərində keçid dövrünün mürəkkəbliklərini məsuliyyətlə yaşamış ziyalıların yaddaqalan təbii obrazları yaradılmışdır. O, həyatın səciyyəvi ha-

disələrini və detallarını seçib özünəməxsus şəkildə təsvir etmək və ümumiləşdirmək işini istedadla həyata keçirir. Fərəc Fərəcovun əsərlərindəki ədəbi publisistika əlamətləri qəzetçilik fəaliyyətindən gəlsə də, artıq onun sabitləşmiş bədii üslubunun fərdi xüsusiyyəti kimi diqqəti cəlb edir. Fərəc Fərəcovun əsərləri publisist xarakterli bədii nəsr üslubunun bariz nümunəsidir. Onun əsərlərində bədiiliklə, nasiranəliklə publisistikanın münasib bir sintezi müşahidə olunur. Publisistika meyilləri Fərəc Fərəcovun bədii əsərlərini real həyat hadisələrinə istiqamətləndirir. O, müxtəlif janrlarda yazılmış əsərlərində yaşadığı mühitin çoxcəhətli bədii-publisist obrazını yaradır.

Fərəc Fərəcov üçün publisistika əsas yaradıcılıq sahəsidir. Muxtar Respublika mətbuatında və Mətbuat Şurasında daşıdığı məsul vəzifələr onun publisistika ilə daha ardıcıl və məhsuldar şəkildə məşğul olmasına daha geniş meydan açmışdır. Əslində belə demək mümkündür ki, Fərəc Fərəcov ədəbiyyata mətbuatdan və publisistikadan gəlmişdir. Mətbuat sahəsində çalışmaq onun həyatı və insanları, ictimai-siyasi prosesləri yaxından müşahidə etməsində, publisistika isə qələm vərdişləri qazanmasında mühüm bir yaradıcılıq məktəbi funksiyasını yerinə yetirmişdir. Fərəc Fərəcovun məşğul olduğu yaradıcılıq sahələrinin hamısında publisistikanın iştirak etməsi təbii bir proses olub, onun əsərlərinin özünəməxsus xüsusiyyəti kimi çıxış edir. Fərəc Fərəcov özü də ədəbiyyat sahəsində yazıçı-publisist kimi qəbul olunur. Onun publisistika sahəsindəki yaradıcılıq imkanları çoxsaylı məqalələri ilə yanaşı, həm də çap etdirdiyi ayrı-ayrı publisist kitablarda da qabarıq şəkildə diqqəti cəlb edir. Müxtəlif vaxtlarda oxuculara təqdim etdiyi məqalələri və kitabları Fərəc Fərəcovun publisistikanın fərqli istiqamətləri və janrlarında mükəmməl publisistika örnəkləri yaratdığını göstərir. Belə ki, "Culfa şəhidləri" kitabı ictimai-siyasi, "Yaycı soyqırımı" kitabı elmi, publisistikanın "Sənət məbədinin sənətçiləri" kitabı isə bədii publisistikanın ən yaxşı ör-

nəklərini ictimaiyyətin diqqətinə çatdırır. "Muxtar Respublika mətbuatı: dünən və bu gün" kitabı isə həyatını dövri mətbuatın inkişafına həsr etmiş müəllifin mətbuat tariximizin araşdırılıb öyrənilməsinə töhfəsidir.

Fərəc Fərəcov bizim günlərin publisist romanlarının müəllifi kimi ədəbiyyatda özünəməxsus mövqe tutur. "Aydın sabahlar" yeni tarixi dövrü kənd-rayon həyatı və regionda yaşayıb-çalışan adamların qayğıları və ümidləri vasitəsi ilə əks etdirən uğurlu publisist romandır. Qəhrəmanlarını cəmiyyət hadisələrinin mürəkkəblikləгindən keçirən Fərəc Fərəcov onların xarakterini açmış, hər birinin fərdi simasını müəyyən etmişdir. Çoxşaxəli hadisələri əhatə etməsi, ictimai mövqe və mənəviyyat kimi ciddi problemlərə fərqli baxış bucağından yanaşaraq, konkret əhvalatların və obrazların taleyinin işığında həmin mətləblərin müxtəlif təzahür formalarını diqqətə çatdırması, geniş surətlər qalereyası yaratmağa nail olması və bədii ümumiləşdirmə bacarığı "Aydın sabahlar"ın yaddaqalan roman kimi alınmasını təmin etmişdir: "Aydın sabahlar" - Fərəc Fərəcovun həyat hadisələrinə, fərqli xarakterə malik insanlara və gələcəyə bəslədiyi aydın yazıçı-vətəndaş mövqeyinin uğurlu romanıdır.

Müəllifin xatirə-roman adlandırdığı "Ömür bir nağıldır" əsəri XX əsrin əvvəllərindən başlayaraq, XXI yüzilliyin əvvəllərinə qədər davam edən ictimai-siyasi və ədəbi-mədəni hadisələri yığcam, canlı və ümumiləşdirilmiş şəkildə əks etdirən avtobioqrafik bədii əsərdir. Bu, Fərəc Fərəcovun özünün şəxsi tərcümeyi-halı və ömür yolunun həyat və cəmiyyət hadisələri ilə əlaqəli şəkildə seçilmiş səciyyəvi hadisələr vasitəsilə təsvir edilməsi və ümumiləşdirilmiş şəkildə təqdim olunması əsasında yaradılmış maraqlı tale romanıdır. Yazıçı heç bir gündəlikdən, əlyazma mətnlərindən istifadə etməyərək, şəxsi yaddaş materialı əsasında böyük bir epoxanın canlı bədii salnaməsini yaratmağa nail ola bilmişdir. Lakin Fərəc Fərəcov dövrün

mənzərəsini və tərcümeyi-hal hadisələrini sadəcə təsvir etməklə qalmamış, ictimai mühitdə gedən proseslərə və onu əhatə etmiş insanlara münasibətini də oxuculara çatdırmışdır. "Aydın sabahlar" romanındakı Kamal Muradov obrazı vasitəsi ilə tərcümeyi-halı ilə bağlı motivləri bədii əsər materialına çevrilmiş Fərəc Fərəcov "Ömür bir nağıldır" romanında maraqlı bir formada bir növ özünün obrazını yaratmışdır. Beləliklə, Fərəc Fərəcov özünün də yazdığı kimi, "ona düşən ömür payını" qələmə almaqla, həm də həyatının və mühitinin formatında maraqlı bir bədii əsər meydana qoymuşdur. Fərəc Fərəcovun "Ömür bir nağıldır" əsəri müstəqillik dövrü Azərbaycan ədəbiyyatında meydana çıxmış orijinal bir avtobioqrafik xatirə romanı kimi də mühüm əhəmiyyət kəsb edir.

Fərəc Fərəcovun hekayələri də canlı həyat hadisələri və yaddaqalan obrazlar əsasında cəmiyyətdə gedən proseslərin ayrı-ayrı məqamlarını əks edirən oxunaqlı bədii əsərlərdir. O, son dövr ədəbiyyatımızda bir qədər arxa plana keçmiş realist-satirik hekayənin ən yaxşı nümunələrinə imza ata bilmişdir. Xüsusən, onun qələmə aldığı "Qabrovosayağı miniatürlər" Azərbaycan ədəbiyyatı üçün yenidir. Yazıçı Bolqarıstanın məşhur Qabrovo yumoru ilə Azərbaycan gülüşünün ən səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirən yığcam miniatürləri ilə ədəbiyyatımızı forma və məzmunca zənginləşdirmişdir. Fərəc Fərəcovun "Qabrovosayağı miniatürlər"i müasir mərhələdə Azərbaycan yumoristik hekayəsinin ən yaxşı nümunələrindən hesab oluna bilər. Yazıçının "Zülmətdə işıq" povesti onun yaradıcılığında hekayədən romana keçid prosesini aydın surətdə təsəvvür etməyə imkan yaradan cəlbedici əsərdir. Burada "zülmət gecələr" özünü radikal millətçi eyforiyanın toruna salmış bədbəxt erməni millətinin qaranlıq taleyini, "açılan səhər" isə insanlığın işığa, xoşbəxt və firavan həyata çıxacağına bəslənilən inamı canlandırmağa xidmət edir. Bu, Azərbaycan ədəbiyyatında səksən beş yaşlı Asaturun gecə söhbətləri vasi-

təsi ilə mənsub olduğu bədbəxt millətin iç üzünü açıb göstərən orijinal bədii əsər kimi yadda qalır.

Fərəc Fərəcovun "Vətən – qürurumdur mənim" və "Elə bağlıyam" adlı şeirlər kitablarında toplanmış bədii nümunələr onun təbii şairlik istedadını da əyani şəkildə nümayiş etdirir. Vətən torpağını İlhamla tərənnüm etməsi, vətəndaşlıq motivlərinin təcəssümü, istifadə etdiyi bədii təsvir və ifadə vasitələri şeir yaradıcılığı baxımından mənalandırmağı bacarması müəllifin özünəməxsus poetik söz demək imkanlarına malik olduğunu göz önünə gətirir. Fərəc Fərəcovun "Müstəqillik yollarında" poemasında Azərbaycan xalqının son yüzillikdə dövlət müstəqilliyi uğrunda apardığı mübarizənin müxtəlif inkişaf mərhələlərinin hadisələrinə poetik baxış öz əksini tapmış, görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizdə müstəqil dövlətin qurulması və möhkəmləndirilməsi sahəsindəki tarixi xidmətləri obyektiv mövqedən və yüksək peşəkar səviyyədə mənalandırılmışdır. Fərəc Fərəcovun şeirləri və poemasındakı "Müstəqillik addımlayır Heydərlə qoşa", "Əməlin sübut etdi ki, Sən əsl xalq oğlusan", "O Heydərdi, ana yurdum haqq səsidir, millətimin əbədilik nəfəsidir", "Heydər-xalq birliyi düşdü dillərə, bənzədi kükrəyən coşqun sellərə" kimi ilhamlı misraları onun ictimai-siyasi mövzuya poetik fərqli məna vermək istedadını nəzərə çarpdırır. Bütün bunlarla bərabər, şeir yaradıcılığı sahəsindəki nailiyyətlərini inkar etməmək şərti ilə, Fərəc Fərəcovun ədəbiyyatda özünü daha çox nəsr sahəsində tapdığını da qeyd etmək istəyirəm. Nəhayət, Fərəc Fərəcovun əsərləri onun müəllifinin özünün də keçdiyi ömür yolunun, yaşadığı sadə, təvazökar və mənalı tərcümeyi-halının da bədii ifadəsidir. Görkəmli romantik şair Abbas Səhhət demişkən əsl yazıçının məsləki onun tərcümeyi-halıdır.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Salidə Şərifovanın "Fərəc Fərəcov yaradıcılığının

problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri" adlı monoqrafiyasında ilk dəfə olaraq yazıçı-publisistin həyatı və yaradıcılıq yolu geniş şəkildə təhlil olunub elmi cəhətdən qiymətləndirilmişdir. Yaxşı cəhətdir ki, Salidə Şərifova Fərəc Fərəcovun yaradıcılığını yalnız mövzu dairəsinə və ideya cəhətdən aktuallığına görə deyil, həm də bədii-sənətkarlıq xüsusiyyətləri ilə birlikdə tədqiq edib nəzəri cəhətdən ümumiləşdirir. Təqdim olunan monoqrafiya yaradıcılığı az tədqiq və təbliğ olunmuş Fərəc Fərəcovun ədəbi portretini açıb göstərən əhəmiyyətli elmi oçerklərdən ibarətdir. Tanınmış yazıçı-publisist Fərəc Fərəcov haqqında yazılmış kitab əməlləri və əsərləri ilə özünü həyatda və ədəbiyyatda təsdiq etmiş təmkinli Azərbaycan ziyalısı və özünəməxsus xidmətləri olan yazıçı-publisist Fərəc Fərəcovun yaradıcılıq fəaliyyətinin "danışan dili", elmi dərkidir.

Tələbəlik dostum və yorulmaz qələm sahibi Fərəc Fərəcova bundan sonra da daha uzun illər səssiz-küysüz, məsuliyyətli vətəndaşlıq mövqeyi ilə yazıb-yaratmağı uğurla davam etdirməsini arzulayıram. Yəqin ki, bu məqaləni də oxucularımız həm də uzun illərdən bəri haqqında söz açılıb-açılmayacağının fərqində olmadan yazıb-yaratmaqda davam edən tələbəlik dostum qarşısında mənəvi borcumun ifadəsi kimi də təbii qəbul edəcəklər.

**İsa HƏBİBBƏYLİ**
**AMEA-nın vitse-prezidenti,**
**Nizami Gəncəvi adına Ədəbiyyat**
**İnstitutunun baş direktoru, akademik**
**27 mart 2021-ci il**

# GİRİŞ

Tanınmış yazıçı-publisist Fərəc Rza oğlu Fərəcov 1 iyul 1947-ci ildə Naxçıvanın Culfa rayonunun Yaycı kəndində anadan olmuşdur. 1964-cü ildə orta məktəbi bitirmişdir. Məktəbi bitirdikdən sonra istehsalatda çalışmış, 1967-ci ildən isə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan Filialının dil-ədəbiyyat fakültəsində təhsil almağa başlamışdır. O, 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialını Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə bitirmişdir.

Ali məktəbi bitirdikdən sonra 1971-1972-ci illərdə Culfa şəhər 1 saylı orta məktəbdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1972-1977-ci il tarixlərində Naxçıvan Muxtar Respublikasının "Zəfər" rayon qəzetində şöbə müdiri işləmişdir. 1977-1988-ci illərdə isə "Şərq qapısı" qəzetində Culfa - Ordubad rayonları üzrə xüsusi müxbiri kimi fəaliyyətini davam etdirmişdir. 1988-1994-cü illərdə isə "Zəfər" rayon qəzetində (sonralar qəzet "Arazın səsi" adlandırılmışdır) redaktor kimi məsul vəzifədə çalışmışdır. 1994-1996-cı illərdə Culfa Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini kimi məsuliyyətli vəzifədə fəaliyyət göstərmişdir. Fərəc Fərəcov 1997-2000-ci illərdə isə rayon qəzetində məsul katib, "Şərq qapısı" qəzetinin bölgə müxbiri kimi fəaliyyətini davam etdirmişdir.

Fərəc Fərəcov Yeni Azərbaycan Partiyasının üzvüdür. Azərbaycan Yazıçılar Birliyinin, Naxçıvan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvü olan Fərəc Fərəcov 2016-cı ildə Türkiyə Elm və Ədəbiyyat Sahiblərinin Məslək Birliyinin üzvü seçilmişdir. 2005-2012-ci illərdə Naxçıvan Mətbuat Şurasının sədri seçilmişdir. Naxçıvan Muxtar Respublikasının əməkdar jurnalisti Fərəc Fərəcov yeddi il Naxçıvan Mətbuat Şurasının sədri vəzifəsində çalışmışdır. Fərəc Fə-

rəcovun jurnalist fəaliyyəti publisist yazılarında əksini tapmış, bədii yaradıcılığı ilə paralel şəkildə inkişaf etmişdir. Fərəc Fərəcov publisist kimi fəaliyyətlə kifayətlənməmiş, qələmini ədəbiyyatın nəzm, nəsr sahələrində sınamış, maraqlı bədii nümunələr qələmə almışdır. Fərəc Fərəcovun publisist yazılarını əks etdirən əsərləri oxuculara kitab şəklində təqdim edilmişdir. Fərəc Fərəcov "Vətən qürurumdur mənim" (1999), "Culfa şəhidləri" (1999), "Yaycı yetirmələri" (2000), "Yaycı soyqırımı" (2002), "Aydın sabahlar" (2005), "Muxtar respublika mətbuatı: dünən və bu gün" (2006), "Hekayələr" (2007), "Elə bağlıyam" (2007), "Jurnalist" (2007), "Sənət məbədinin sənətçiləri" (2008), "Sən olmasaydın" (2010), "Müstəqillik yollarında" (2012), "Ömür bir nağıldır" (2014), "Cavabsız sevgi" (2017), "Fəxr etdiyim ulu ünvan – Naxçıvan" (2020) kimi kitabların müəllifidir.

Fərəc Fərəcov yalnız yazıb-yaratmaqla kifayətlənməmiş, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə millət vəkili seçilərək, ona etimad göstərmiş insanlara xidmət etməkdədir. 2002-ci ildə 38 saylı Yaycı seçki dairəsindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə millət vəkili mandatını qazanmışdır. Üçüncü (2005-2010), dördüncü (2010-2015), beşinci (2015-2020) çağırış Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin millət vəkili olmuşdur. 2020-ci ilin çağırışında da 38 saylı Yaycı seçki dairəsindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə millət vəkili seçilmişdir. Hal-hazırda altıncı cağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin millət vəkili olan Fərəc Fərəcovun əsərləri bir çox dünya dillərinə tərcümə edilmişdir.

Fərəc Fərəcovun ictimai, bədii və publisist fəaliyyəti diqqət mərkəzində olmuş, yüksək dəyərləndirilmişdir. Fərəc Fərəcov 2007-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti fəxri adına layiq görülmüşdür. Fərəc Fərəcov 1975-ci ildə mətbuat sahəsində fərqlənməsinə görə MSSR Ali

Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, 2017- ci ildə ədib 70 illik yubileyi münasibətilə Naxçıvan MR Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilmişdir. 2013-cü ildə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə Xatirə medalına, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Yubiley medalına layiq görülmüşdür.

İctimai, bədii, publisist fəaliyyətini davam etdirməkdə olan Fərəc Fərəcov doğma Yaycı kəndində yaşayır, xoşbəxt ailə başçısıdır. Üç oğul və bir qız atası olan Fərəc Fərəcovun on nəvəsi var.

# I FƏSİL

## FƏRƏC FƏRƏCOV YARADICILIĞINDA PUBLİSİSTİKA

Fərəc Fərəcovun yaradıcılığında yaradıcı təfəkkürün dinamik sahələrindən olan publisistika aktuallığı ilə diqqəti cəlb edir. "...Fərəc Fərəcovun yaradıcılığına nəzər salanda bir-biri ilə sıx əlaqədə, qırılmaz vəhdətdə olan üç istiqamət müşahidə edilir ki, bunlardan biri publisistikadır, həmin istiqamət kəmiyyət baxımından da öndə dayanır".[1] Bu da müəllifin professional jurnalist fəaliyyəti ilə şərtlənir. Sosial-mədəni, ictimai-mənəvi düşüncənin formalaşmasına təkan verən sahə ilə məşğul olan Fərəc Fərəcov cəmiyyətdə baş verən prosesləri publisistik yazıları ilə əks etdirməyə cəhd etmişdir. Azərbaycanın ədəbi-bədii və ictimai-siyasi fikir tarixində yer ala bilmiş publisist yazılarında müəllif siyasi, iqtisadi, mənəvi-əxlaqi problemləri qələmə almışdır. Əməkdar jurnalist F.Fərəcovun publisist əsərləri bədiilik, sənətkarlıq keyfiyyətlərini özündə əxz etdirə bilmişdir.

Fərəc Fərəcov publisistikasında Azərbaycanda həyata keçirilən ictimai mədəni islahatlara nəzər salmış, müstəqil dövlət quruculuğunun inkişafında rolu olmuş tarixi şəxsiyyətlərə bir ziyalı kimi dəyər verə bilmişdir. Müəllif azad vətəndaş cəmiyyətinin formalaşmasının fəal iştirakçısı olan publisistikası ilə cəmiyyətin, incəsənətin və digər ictimai-mədəni, sosial həyatın problemlərini işıqlandırmağa nail ola bilmişdir. Müəllif yaradıcılığının tərkib hissəsinə çevrilmiş publisistikası ilə cəmiyyəti narahat edən, aktuallıq kəsb edən məsələləri açıqlamağa nail ola bilmişdir.

---

[1] Hüseyn Həşimli. Yaddaş işığı // F.Fərəcov. Ömür bir nağıldır: xatirə-roman. Bakı, "Elm və təhsil", 2014, 184 səh., s.3

## *§1. Fərəc Fərəcovun bədii publisistikası*

Fərəc Fərəcovun "Culfa şəhidləri", "Yaycı yetirmələri" kitabları Azərbaycanın bütövlüyü və torpaqlarımızın qorunması uğrunda canlarından keçib şəhidlik zirvəsinə çatmış şəhidlərimiz, elmin və cəmiyyətin tərəqqisində xidmətləri olmuş şəxslər haqqındadır. Fərəc Fərəcovun qələmə aldığı "Culfa şəhidləri", "Yaycı yetirmələri" kitabları Naxçıvan Muxtar Respublikasının Culfa və Yaycıdan olan Vətən övladlarını hər bir Azərbaycan vətəndaşına tanıtmaq sahəsində yazılan gözəl əsərlərdir. Müəllif şəhidlik zirvəsinə ucalmış Culfa və Yaycı şəhidlərinin qəhrəmanlıq və vətənpərvərliklərini ictimaiyyətə çatdırmağa nail ola bilmişdir. "...F.Fərəcov xalqımızın düçar olduğu bəlaları publisist qələmi ilə bir daha oxuculara çatdırmağa nail olur. Bu məqsədlə də "Culfa şəhidləri", "Yaycı soyqırımı" kitablarını qələmə almışdır. Bu iki kitabında doğulduğu rayonun şəhid övladlarının, onların vətən sevgisi ilə dolu ürəklərinin müqəddəs duyğularını önə çəkirdisə, erməni vəhşilərinin 1918-1920-ci illərdə doğma kəndi Yaycıda törədikləri soyqırımdan söhbət açırdısa, "Yaycı yetirmələri" kitabında doğulduğu torpağın qüdrəti, şöhrətli alimlərindən, tanınmış ziyalılarından ürəklə, qürurla danışır, onlarla öyünür, fəxr edir".[2]

Fərəc Fərəcov bədii publisistikasının ayrılmaz tərkib hissəsinə çevrilmiş "Yaycı yetirmələri" kitabında Yaycı haqqında kitabın qələmə alınması faktına aydınlıq gətirmişdir. Müəllifin "Yaycı yetirmələri" kitabında ön söz kimi qələmə aldığı "Yaycı kəndi mənim üçün nədir?" başlıqlı yazısında Yaycıda anadan olması faktını qabardaraq, qeyd etmişdir ki, "Yaycı mənim üçün həm də müqəddəs vətənin bir parçasıdır".[3] Müəllif Yaycıya dərindən bağlı olması amalına da toxuna bilmişdir:

---

[2] A.Yadigar /F.Fərəcov. Elə bağlıyam. Naxçıvan, "Əcəmi", 2007, 96 səh., s.4
[3] F.Fərəcov. Yaycı yetirmələri. Bakı, "Gənclik", 2000, 308 səh., s.4

"Sevimli, əziz, müqəddəs vətənimsə mənim üçün Yaycıdan başlanır". Fərəc Fərəcov "Yaycı yetirmələri" kitabının qələmə alınma səbəblərini oxucusu üçün incəliklə açıqlamağa nail ola bilmişdir. Müəllifin izahat tipli məlumatından sonra oxucu "Yaycı yetirmələri" kitabının heç də adi bir kitab deyil, Yaycının tarixi IX əsrə gedib çıxan qədim bir məkan olmasını da görə bilir. Yaycının müasir dövrünü, onu hamıya tanıtmağa nail olmuş vətəndaşlarını əks etdirməsi baxımından kitab əhəmiyyət kəsb edir. F.Fərəcov kitabının qələmə alınmasında bu amilləri izləməsinə toxunmuşdur: "Yaycı yetirmələri" nə üçün, nədən ortaya çıxdı? Bu, hər şeydən əvvəl fikirlərimdən, düşüncələrimdən doğdu. Bu düşüncələr, fikirlər isə Yaycıya, onun adamlarına dərin bağlılığımla, məhəbbətimlə müşayiət olunurdu. Geniş mənada isə doğma, əziz diyarıma – Azərbaycanımıza dərin istəyimin, sonsuz məhəbbətimin təzahürləri idi bu kitab".[4]

"Yaycı yetirmələri" kitabının "Nadir şəxsiyyət" oçerkində akademik Həsən Abdullayev, "Təşkilatçılıq istedadı" oçerkində Məmməd Əsgərov, "Yazıçı" oçerkində Nağı Nağıyev, "Baytarlıq elminin parlaq siması" oçerkində professor Hacı Hacıyev, "Görkəmli kimyaçı" oçerkində Məhərrəm Məmmədyarov, "15 saylı palatada" oçerkində Məmməd Məmmədov, "Hərbi komissar" oçerkində Hüseyn Əliyev, "Humanist təbiətli böyük insan" oçerkində Cəbrayıl Məmmədov, "Pedaqoq, alim, şair..." oçerkində Allahverdi Tağızadə, "Gəncədə bir yerlimiz var" oçerkində Hüseyn Əlizadə, "Elmin çətin yollarında" Adil Allahverdiyev, "Qarşıda çox işlər durur " oçerkində Vəli Əliyev, "Ata ocağında görüş" oçerkində Səkinə Səmədova, "Dəyərli mütəxəssis" oçerkində Ramazan Əliquliyev, "Zavod direktoru" oçerkində Sadıq Əliyev, "Polis polkovniki" oçerkində Hüseyn Allahyarov, "Dövlət mükafatı laureatı" oçerkində İman Abdullayev, "Nazir müavini" oçerkində Bəy-

---

[4] F.Fərəcov. Yaycı yetirmələri. Bakı, "Gənclik", 2000, 308 səh., s.7

lər Quliyev, "Mənalı həyat yolu" oçerkində Səfər Əsədov, "Milli qəhrəman atası" oçerkində İsmayıl Məmmədov, "Əgər yaşasaydı" oçerkində Müseyib Zeynalov, "Polkovnik" oçerkində Sabir Allahverdiyev, "Tarixçi alim" oçerkində Həmzə Cəfərov, "Bir ömür yaşadı" oçerkində Həsən Bayramov, "Vitse prezident" oçerkində Əbülfəz Məmmədov, "Generallığa nə qalıb ki..." oçerkində Saleh Kələntərov, "Azadlıq odunda alışan ürək" oçerkində Tağı Qasımoğlu, "Kənd unudulası deyil" oçerkində Qurban Mehdiyev, "Gərəkli peşə sahibi" oçerkində Hüseyn Əsədov, "Nazirliyin şöbə müdiri" oçerkində Adil Ağayev, "İradəli adam" oçerkində İbrahim Qasımov, "Hakim" oçerkində Ramiz Mirzəyev kimi Yaycı kəndinə aid insanların cəmiyyətimizdə tutduqları mövqelərinə aydınlıq gətirilmişdir.

"Yaycı yetirmələri" kitabının problematikası Azərbaycan xalqını maraqlandıran insanların həyat və fəaliyyətlərini əks etdirən mövzuları əhatə etmişdir. Bu mövzuların içəriçisində alimlərin, hərbçilərin, yazıçıların, polislərin, hakimlərin ümumiləşdirilmiş obrazlarını da görmək mümkündür. Kitabdakı oçerklər informasiya almaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Məsələn, müəllif "Yazıçı" oçerkində ədəbiyyat üçün maraqlı məqamlara aydınlıq gətirmişdir. Saysız hekayə və oçerklər, dörd səhnə əsəri, üç povest, iki roman müəllifi olan yazıçı Nağı Nağıyevin fəaliyyətinə nəzər salmışdır. 13 iyul 1910-cu ildə Naxçıvan qəzasının Yaycı kəndində anadan olmuş Nağı Nağıyevin əvvəlcə dini, sonra ibtidai təhsil alması, Naxçıvan Pedaqoji Texnikumunu (1925-1929) və Azərbaycan Pedaqoji İnstitutunu (1938) qiyabi yolla bitirməsi faktlarına da diqqət yetirilmişdir. Rəssamlıq sənətinə yiyələnməsinə baxmayaraq, bədii əsərlər qələmə almış Nağı Nağıyevin "Həsrət" (1965) və "Qaranlıq qovuşanda" (1974) romanlarının müəllifi olması vurğulanmışdır. Maraqlı məqamlardan biri də müəllifin digər həmkarlarının, ziyalıların fikirlərinə istinad etməsidir. Məsələn, Nağı Nağıyev haqqında Yəhya Seyidovun

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

"Həsrət" romanı haqqında fikirlərini oçerkdə verməsi təqdirəlayiqdir: "Həsrət" müəllifin ilk romanıdır. Bu əsər göstərdi ki, Nağı Nağıyev nəsrin iri formaları sahəsində də müvəffəqiyyətli əsərlər yarada bilər. Qələmə aldığı materialları hərtərəfli bilməsi, müşahidələrinin canlılığı diqqəti cəlb edir. Kənd təsərrüfatını yüksəltmək, qarşıda duran vəzifələri həll etmək sahəsində ali təhsilli gənc mütəxəssislərin mübarizəsinə həsr olunmuş bu əsərdə Cəmil, Gülnar, Dilşad kimi yaddaqalan surətlər verilmişdir". Yəhya Seyidovun[5] fikirləri ilə kifayətlənməyən müəllif, Nağı Nağıyevin roman qələmə almasına öz münasibətini bildirmişdir. Fərəc Fərəcov Nağı Nağıyevin ikinci romanı olan "Qaranlıq qovuşanda" romanını 1974-cü ildə "Azərbaycan" jurnalında nəşr olunması faktına toxunmuşdur: "Qaranlıq qovuşanda" müəllifin ikinci romanıdır. Əsər 1974-cü ildə "Azərbaycan" jurnalının 10 və 11-ci saylarında "İfşa" adı ilə dərc edilmişdir. Yazıçının "Qaranlıq qovuşanda" və digər bir neçə əsəri rus dilinə tərcümə edilib geniş oxucu kütləsinə çatdırılmışdır."[6] Maraqlı məqamlardan biri də Fərəc Fərəcovun "Həsrət" romanının problematikasına toxunarkən, diqqəti cəlb edən bir amili vurğulamasıdır: "Nağı Nağıyev doğma Yaycı ilə sıx bağlı adam idi. Təsadüfi deyil ki, onun ən iri bədii əsəri olan "Həsrət" kənd həyatına, bəlkə də Yaycıya həsr edilmişdir. Maraqlı roman, ilk növbədə Yaycı və yaycılılar adamın gözləri önünə gəlir. Hadisələr də sanki elə bil bu kənddə baş vermişdir".[7]

"Culfa şəhidləri" kitabı adından da göründüyü kimi Naxçıvanın Culfa adlı coğrafi məkanında Azərbaycanın azadlığı uğrunda şəhid düşmüş culfalılar haqqındadır. Culfanın Azərbaycan üçün həm strateji, həm tarix baxımdan əhəmiyyət kəsb etməsini müəllif kitabın "Ön söz və ya Culfa haqqında bir ne-

---

[5] Y.Seyidov. Nağı Nağıyev // Nağı Nağıyev. Seçilmiş əsərləri. Bakı, 1967
[6] F.Fərəcov. Yazıçı // Yaycı yetirmələri. Bakı, "Gənclik", 2000, 308 səh., s.50
[7] Yenə orada, s.54

çə kəlmə" başlıqlı yazısında verə bilmişdir: "Culfa adlı coğrafi məkan o qədər də böyük deyil. Sahəsi 995 kv. kilometr, əhalisi 35 min 63 nəfərdir. Lakin bu balaca rayonun ölkəmiz üçün böyük strateji əhəmiyyəti vardır. Culfa blokadada olan Naxçıvanın qonşu İran İslam Respublikasına açılan qapısıdır, həm İrandan, həm də böyük Azərbaycanımızdan gələn həyati əhəmiyyətli yüklər Muxtar Respublikamıza məhz Culfadan daxil olur".[8] Müəllif "Əlincə qalası", "Nəiminin qəbri "Nəimi piri", "Darıdağ bulağı", "Əshabi-kəhf" ziyarətgahı kimi əhəmiyyət kəsb edən tarixi məkanların Culfada yerləşməsini də vurğulamışdır.

"Culfa şəhidləri" publisistik kitabında əksini tapmış şəhidlər haqqında oçerklərin məzmununda şəhidlərin həyat yollarından fraqmentlər və necə şəhid düşmələri haqqında düşüncələr əksini tapmışdır. Fərəc Fərəcov bir müəllif kimi özü bunu belə açıqlamışdır: "Culfa 1998-dən üzü bəri xalqımızın, müqəddəs torpaqlarımızın başına gətirilən müsibətlərə də öz sözünü dedi. Ermənilərin məkrli niyyətlərinin qara pərdəsi yırtılanda bu balaca bölgə də ayağa qalxdı. Elliklə etiraz səslərini ucaltdılar. Muxtar Respublikamızın Ermənistanla sərhədlərinə canlı sipər çəkdilər. Qarabağ torpaqlarında ölüm-dirim savaşına atıldılar. Neçə-neçə culfalı bu müqəddəs savaşda canından keçdi-şəhid oldu. Bu kitab da məhz Culfa şəhidlərindən söz açır, onlardan danışır".[9] Müəllif onu da ürək ağrısı ilə vurğulamışdır ki, "Culfa şəhidləri" kitabı bütün Culfa şəhidlərinin etdikləri fədakarlıqlarını əhatə etmir: "Buradakı yazılar bəlkə də şəhid ucalığında dayanan o insanların qəhrəmanlıqlarının heç ondan birini əhatə etmir".[10] Kitabın problematikası müəllifin fikirlərindən artıq bəlli olur. "Culfa şəhidləri" Culfanın şəhidlik zirvəsinə yüksəlmiş Culfalı qəhrəmanlar haqqındadır.

---

[8] F.Fərəcov. Culfa şəhidləri. Bakı, "Siyasət nəşriyyatı", 1999, 112 səh., s.3
[9] Yenə orada, s.4
[10] Yenə orada, s.4

"Culfa şəhidləri" kitabında "Polis kollektivinin fəxri" oçerkində Mirəyyub Seyidov, "Şəhidlər ölmürlər" oçerkində Əliqulu Ağayev, "Şamil" yazısında Şamil Hüseynov, "217-lər"dən biri" oçerkində Hidayət Ramazanov, "Alay komandiri" oçerkində Elşad Nağıyev, "Unudulası deyil" oçerkində Xanlar Sadiqov, "Tampo" ləqəbli igid" oçerkində Kamran Əliyev, "Həm sözü, həm izi qaldı" oçerkində Coşqun Hüseynov, "İgidlik" hekayəsində İbrahim İmanov, "Qəhrəman ananın qəhrəman övladı" oçerkində Sənan Cəfərov, "Vüqar" oçerkində Vüqar Həsənov, "Cəmaləddin tankçı idi" oçerkində Cəmaləddin Qəribov, "Bəyəhməddə bir məzar var..." oçerkində Rəqib Quliyev, "Heykəlləşən ömür" hekayəsində Məzahir Nəcəfov, "...Mən döyüşəcəyəm" oçerkində Elsevər Aslanov, "Elə bilin ki..." oçerkində Nəzmi Əliyev, "Polis zabiti" oçerkində Həsən Vəliyev, "Azadlıq aşiqi" oçerkində Tağı Qasımov, "Şəhidlər xiyabanında bir məzar var" oçerkində Elşən Cəbiyev, "Kəndə çatan qara xəbər" oçerkində Hüseyn Əliyev, "Oğul dərdi ağır olur" oçerkində Məmməd Mustafayev, "Ondan bir arzu qaldı" oçerkində Əbdül Yusifov, "Salvartıda dayanan ürək" oçerkində Məsum Əhmədov, "Erməni terrorunun qurbanı" oçerkində Məmməd Hüseynov, "Mahmud kimi oğul gərək" oçerkində Mahmud Zeynalov, "Vətənin xidmətində olarkən" oçerkində Zakir Həsənov, "Sayılıb, seçilirdi Yaşar" oçerkində Yaşar Məmmədov, "Nümunəvi əsgər idi" oçerkində Qadir Qəmbərov, "Culfa şəhidlərinin sırasında" oçerkində Elsevər Aslanov və Həbib Əliyev, "Vətən borcuna sədaqət" oçerkində Ramiz Məmmədov kimi şəhidlər haqqında bioqrafik məlumatlar yer almışdır. "Polis kollektivinin fəxri (sevincli, kədərli tarix)" publisist nümunəsində polis serjantı Mirəyyub Seyidovun şəhid düşməsi və onun həyat yoldaşı olan Süsənlə sevgi dolu həyatının müəyyən məqamları işıqlandırılmışdır: "Onlar üç il

əvvəl Culfa trikotaj kombinantında çalışırdılar. Burada görüşüb sevişmiş, bir-birilərinə könül vermiş, ailə qurmuşdular".[11]

"Sənət məbədinin sənətçiləri" kitabında müəllifin "Sənətdən qaynaqlanan ömür", "Fərqli xarakterlərin mahir yaradıcısı", "Fırça və tişə ustası", "50 il səhnədə", "Prezident təqaüdçüsü", "50 yaş nədir ki...", "Naxçıvandan ayrıla bilmədim...", "Aktyor, rejissor... teatr rəhbəri", "Zeynəddinli Xəlil", "Sənəti ucaldan sənətkar", "Səhnə mənim həyatımdır", "Müəllim, bəstəkar, təşkilatçı", "Səhnədə keçən günlər", "Doqquz bacının ilki", "Az vaxtda çox surət yaradan aktyor" kimi bədii publisist yazıları əksini tapmışdır. Bu bədii publisist yazılarda müəllif həyat hadisələrinin, insan münasibətlərinin doğru-düzgün inikasını verməyə nail ola bilir. F.Fərəcov "Sənət məbədinin sənətçiləri" kitabında teatr sənətinin bir sıra xüsusiyyətlərinə aydınlıq gətirməyə nail ola bilmişdir. Bu sahənin çətinliklərinə işıq salmışdır. Gerçək həyat, insan münasibətlərinin fonunda teatr sənətinin incəliklərini araşdırmağa nail ola bilmişdir. Söz sənəti, rəssamlıq və digər növlərin sintezindən yaranan teatr tamaşasının ərsəyə gəlməsində rolu olan dramaturqun, rejissorun, rəssamın, bəstəkarın, aktyorun fəaliyyətlərinə, həyat tarixçələrinə qısa da nəzər salmağı bacarmışdır. Müəllif bununla da oxucusuna qısa da olsa onlar haqqında məlumat vermişdir. Ən əsası isə müəllifin bədii publisistikasında dövrünün mədəniyyət sahələrində xidməti olmuş insanlara münasibəti ifadə edilmiş, onların özünəməxsus xüsusiyyətləri obrazlı şəkildə təsvir edilmişdir. Ədib bədii publisist yazılarında çağdaş dövr sənətkarlarının obrazlarını yaratmaqla, onların fəaliyyətlərini təbliğ etmişdir. Müəllif bədii publisistikasında incəsənət adamlarının obrazlarını yaratmağa nail olmuşdur. F.Fərəcov bədii publisistikasında ədəbi portretlər yaratmaqla yanaşı, müəlliflə oxucu arasında mühakimə yarada bilmişdir. Təqdim edilmiş avtoportretlərdə müəllif mövqeyi qabarıq nə-

---

[11] F.Fərəcov. Culfa şəhidləri. Bakı, "Siyasət nəşriyyatı", 1999, 112 səh., s.6

zərə çarpmaqdadır, "...müəllif heç vaxt faktları sadəcə sadalamaq yolu ilə getmir, onların mahiyyətinə həssaslıqla nüfuz edir. Bu mənada təsadüfi deyil ki, Fərəc müəllimin bəzi məqalələri təxminən elə bədii əsər təsiri bağışlayır".[12]

"Yaycı yetirmələri" kitabında müəllif kompozisiyanın ünsürlərindən olan epiqraflardan istifadə etməsi ilə diqqəti cəlb edir. F.Fərəcovun kitabda istifadə etdiyi epiqraflar görkəmli şəxsiyyətlərin hikmətli fikirləridir. Müəllif istifadə etdiyi epiqraflarla qələmə aldığı publisist yazılar arasında əlaqə yarada bilir. Bununla da, oxucunun diqqətini qabaqcadan əsərin məzmun və ideyasına yönəldir. Akademik Həsən Abdullayevə həsr edilmiş "Nadir şəxsiyyət" adlı oçerkdə Məhəmməd Peyğəmbərin hikmətli kəlamından epiqraf kimi istifadə edilmişdir: "Alim öldü, aləm öldü". Müəllifin Məmməd Əsgərova həsr etdiyi "Təşkilatçılıq istedadı" oçerkində isə atalar sözünü epiqraf kimi verməsi mətnin əsas məzmununa, ideyasına uyğun ifadə olunması ilə diqqəti cəlb edir: "Ağıllı adam dağ şəlaləsinə bənzər, özü özünə yol tapar".

Müəllif "Culfa şəhidləri" publisistik kitabını "Ön söz və ya Culfa haqqında bir neçə kəlmə" başlıqlı yazıyla başlayır. Əsas mətləbə keçməzdən əvvəl "Culfa haqqında bir neçə kəlmə" deyərək lirik haşiyə verir. Biz buradan Culfa adlı coğrafi ərazi haqqında bilgi əldə edirik. Oxucu müəllifin "bir neçə kəlmə"sindən "Əlincə qalası"nın da bu məkanda yerləşməsi faktı ilə yaxından tanış olur: "Bu kiçik diyar digər önəmli tarixi yerlərdən də xali deyil. Qoynunda uyuduğu məşhur "Əlincə qalası" yadellilərə qarşı mübarizə, qəhrəmanlıq simvolu kimi uzaq tarixdən bizlərə ərməğandır".[13]

Daha sonra kitabda diqqəti cəlb edən dini-tarixi məkan kimi yaddaşlarda iz buraxmış inanclı insanların pənah yeri bil-

---

[12] Hüseyn Həşimli. Yaddaş işığı // F.Fərəcov. Ömür bir nağıldır: xatirə-roman. Bakı, "Elm və təhsil", 2014, 184 səh., s.4

[13] F.Fərəcov. Culfa şəhidləri. Bakı, "Siyasət nəşriyyatı", 1999, 112 səh., s.3

dikləri "Əshabi-kəhf" ziyarətgahı haqqında məlumatın verilməsidir: "Culfanın adına bəzək vuran, ona şöhrət gətirən çox qədim bir dini-tarixi yer də var. Adına "Əshabi-kəhf" (mağara sahibləri) deyilir. Müqəddəs Qurani-Kərimdə də xatırlanan "Əshabi-kəhf" dünyanın nadir ziyarətgahlarından sayılır".[14] Müqəddəs ocaq sayılan "Əshabi-Kəhf" əsas inanclar olaraq, daş, su, ağac kultu ilə bağlıdır. İnanclara görə həm də "Əshabi-Kəhf" ziyarətgahı mənəvi təmizlənmə və Allaha yaxınlaşma məkanı kimi qəbul edilir.

"Culfa şəhidləri" kitabında yer almış publisist yazıların kompozisiyaları diqqəti cəlb edir. Məsələn, Əliqulu Kəlbə İbrahim oğlu Ağayevə həsr edilmiş "Şəhidlər ölmür" publisist yazısında müəllif yazısını haşiyə ilə başlamışdır. Məlumdur ki, kompozisiyanın ünsürlərindən biri olan lirik haşiyədə hadisələrin inkişafı müvəqqəti olaraq dayandırılaraq, maraq kəsb edən hər hansısa bir məsələyə reaksiya bildirilir. Bu publisist yazıda isə müəllif yazısını nəql etmədən, yəni hər hansı bir hadisəni nəql etmədən, bir başa haşiyə çıxır. Bu haşiyədə müəllif Əliqulu Ağayevlə tanış olması faktını qabartmışdır. Bu da müəllifin lirik haşiyəni əsərin əvvəlində verməsində haqlı olmasına dəlalət edir: "Mən də onu yaxşı tanıyırdım. Çünki məhəllə uşağı idi. Yaş bərabərliyimizi bircə il ayırırdı. O, məndən balacaydı. Yeri gəlmişkən deyim ki, bir qədər dəcəlliyi də vardı. Amma qorxmazlığı, mərdliyi daha çox yadda qalırdı. O uşaqlığını beləcə başa vurmuş, beləcə böyümüş, beləcə kişiləşmişdi".[15] Fərəc Fərəcovun bu haşiyəsində biz uşaqlıqdan tanıdığı həmyaşıdını itirməyin təsvir edilməsinin necə çətin olmasını da duyuruq. Qeyd edək ki, müəllif bu yazıda bir neçə dəfə lirik ricətə müraciət etmişdir. Biz bu haşiyələr vasitəsilə şəhid qardaşı Tofiqin Əliqulunu necə sevməsi, ona ata-ana əvəzi olması, ölümü ilə barışa bilməməsi, bu itkinin ona pis təsir gös-

---

[14] F.Fərəcov. Culfa şəhidləri. Bakı, "Siyasət nəşriyyatı", 1999, 112 səh., s.3

[15] Yenə orada, s.14

tərməsi faktları ilə tanış oluruq. Lirik haşiyələrə müraciət müəllifin Elşad Nağıyevə həsr etdiyi "Alay komandiri" publisist yazısında da rast gəlinir. Bu yazıdakı lirik ricətdə müəllif şəhid atası Arif Nağıyev haqqında məlumat vermişdir: "İki şəhid atası olan Arif Nağıyev Culfa dəmiryolçuları ailəsinin ən tanınmış, ən layiqli üzvlərindəndir". Bu haşiyədə Arif Nağıyevin Vətən üçün iki övladının şəhid olması faktı ilə tanış oluruq.

Əməkdar jurnalist F.Fərəcovun "Sənət məbədinin sənətçiləri" kitabının "Kitab Naxçıvan teatrının 125 illik yubileyinə ithaf olunur" epiqrafı ilə başlaması oxucunun diqqətini kitabın məzmununa yönəltmiş olur. Bu epiqrafla da oxucunu əsərin ideyası ilə tanış edir. Oxucuya artıq bəlli olur ki, kitabda Naxçıvan teatrının təkamülü ilə əlaqəli mövzulara aydınlıq gətiriləcək.

Müəllif "Sənət məbədinin sənətçiləri" kitabında lirik haşiyədən də istifadə etmişdir. "Az vaxtda daha çox surət yaradan aktyor" publisist yazısında müəllif Əməkdar artist Vidadi Rəcəblidən bəhs edir. Publisist yazının ortasında "haşiyə" deyərək lirik ricət istilahına müracət edir. Müəllif bu lirik ricətdə bəzi tarixi məqamlara aydınlıq gətirməyə cəhd etmişdir: "1988-ci ildən başlanan məlum hadisələr, ermənilərin ortaya qondarma Dağlıq Qarabağ məsələsi, Naxçıvanın sərhədlərinə edilən aramsız hücumlar ölkəmizin mədəni həyatını da təbii ki, iflic vəziyyətinə salmışdı. 1993-cü ildə ulu öndərimiz, xalqımızın əbədiyaşar oğlu Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra vəziyyət getdikcə sabitləşməyə, öz yeni axarına düşməyə başladı. Sənət aləmində, o cümlədən mədəniyyət sahəsində də canlanma başladı. Belə bir vaxtda, daha doğrusu 1995-ci ilin sonlarında qəlbi çalışmaq, yaratmaq barədə döyünən Vidadi də Naxçıvan teatrına üz tutdu..."[16] Fərəc Fərəcov əsərdə təsvir etdiyi hadisəni müvəqqəti

---

[16] F.Fərəcov. Sənət məbədinin sənətçiləri. Naxçıvan, 2008, 112 səh., s.106

olaraq dayandırıb, müəllif üçün maraqlı olan hadisəyə öz reaksiyasını bildirməyə nail ola bilmişdir. Məsələylə bağlı münasibətini bildirmək üçün kompozisiyanın ünsürlərindən biri olan lirik haşiyəyə müraciət etmişdir.

"Doqquz bacının ilki" publisist yazısında da lirik ricətdən istifadə edilmişdir. Əməkdar artist Elmira Kərimovaya həsr edilmiş publisist yazıda müəllif haşiyə çıxaraq, doqquz bacının dünyaya qardaş gəlişi istəyi ilə əlaqəli olması amili ilə əlaqələndirmiş, buna bənzər digər bir hadisəni də xatırlamışdır. Müəllif qələmə aldığı haşiyədə bu fakta belə aydınlıq gətirmişdir: "E.Kərimovanın bu söhbəti yadıma oxşar bir hadisəni saldı. Naxçıvan Dövlət Universitetində əyani təhsil aldığım illərdə kirayəşin qaldığım evin qonşuluğunda yaşayan ailənin 5 oğlan övladı dünyaya gəlmişdir. Böyük arzu ilə qız gözləyirdilər... Çox sonra öyrəndim ki, həmin ailədə daha 4 oğlan uşağı doğulub. Qız isə olmayıb... Yəqin ki, bu da dünyanın bir məna kəsb edən qəribəliyi, Allah-Taalanın sirri, hikmətidir.

Nə isə, mövzudan uzaq düşməyək".[17]

F.Fərəcov publisist yazıda haşiyə çıxmağı "mövzudan uzaq düşmək" hesab edərək, müəllif özü qeyd edir ki, "nə isə, mövzudan uzaq düşməyək".

Müəllif "Yaycı yetirmələri" kitabında da lirik ricətlərə müraciət etmişdir. "Nadir şəxsiyyət" oçerkində müəllif bir neçə dəfə haşiyə çıxmışdır. Haşiyələrin birində müəllif akademik Həsən Abdullayevin övladları haqqında məlumat vermişdir: "Böyük qızları Sevda fizika-riyaziyyat elmləri doktorudur... Oğlanları Aydın da fizika-riyaziyyat elmləri doktorudur... Sevinc tarix elmləri namizədidir..." "Yaycı yetirmələri" kitabında toplanılmış bir çox oçerklərdə lirik haşiyələrdən istifadə edilmişdir. Məsələn, "Hərbi komissar", "Ata ocağında görüş", "Mənalı həyat yolu", "Kənd unudulası deyil" kimi oçerklərində əksini tapmışdır.

---

[17] F.Fərəcov. Sənət məbədinin sənətçiləri. Naxçıvan, 2008, 112 səh., s.92

Fərəc Fərəcov "Yaycı yetirmələri" kitabının proloqunu "Yaycı mənim üçün nədir?" başlığı altında təqdim etmişdir. Müəllif kitabda bəhs edəcək əhvalatların qısa məğzini oxucusuna çatdırmağa çalışmışdır. Müəllif qələmə aldığı proloqda əsəri yazmaqda hansı məqsəd güdməsini də oxucusuna izah edə bilmişdir: "...Burada yalnız və yalnız alimlərimizdən, eləcə də ictimai-siyasi həyatımızda daha çox fəaliyyəti, adı, izi olan tanınmış şəxslərdən söz açmaq məqsədində olmuşuq".[18]

Fərəc Fərəcov "Yaycı yetirmələri" kitabında epiloqdan da istifadə etmişdir. Müəllif epiloqu oxucularına "Son söz" başlığı ilə təqdim etmişdir. Fərəc Fərəcov kitabda qaldırdığı bütün məsələləri "Sön söz"də yekunlaşdırmağa cəhd etmişdir: "Kitabda Yaycıda doğulmuş, Yaycıda boya-başa çatmış 32 nəfərdən söhbət açdım. Amma bu 32 nəfər təbii ki, Yaycı yetirmələrinin tam siyahısı deyil."

Fərəc Fərəcov qələmə aldığı bədii publisistikasında bədii ifadə və təsvir vasitələrindən sənətkarlıqla istifadə etmişdir. Bu müəllifin bədii publisistikasının dilinin emosionallığını və təsir gücünü artırılmasında böyük rol oynayır.

Müəllif bədii publisistikasının bədii dilini gücləndirmək üçün nəzm nümunələrinə də müraciət etmişdir. Məsələn, "Sayılıb, seçilirdi Yaşar" oçerkində şəhid düşmüş 20 yaşlı Yaşar Məmmədovun ömrünün son anında onun dili ilə deyilən nəzm nümunəsinin verilməsi diqqətəlayiqdir:

*İtirildi torpaqların,*
*Göyə dirəndi ahların,*
*Gözlə, gələr sabahların...*
*Axan, tökülən qanınam,*
*Vətən, sənin qurbanınam!*

---

[18] F.Fərəcov. Yaycı yetirmələri. Bakı, "Gənclik", 2000, 308 səh., s.8

"Yaycı yetirmələri" kitabında yazıçı, rəssam, pedaqoq Nağı Nağıyev haqqında olan "Yazıçı" oçerkində müəllif fikirlərini nəzm ilə də bildirmişdir:

*Təbii ki, qalxa bilər...*
*Hətta ondan ucaya da...*

Fərəc Fərəcovun nəzm nümunələrindən istifadə etməsi müxtəlif şəkillərdə özünü büruzə vermişdir. Bu nəzm nümunələri müəllifin özünün, yəni Fərəc Fərəcovun qələmə aldığı nəzm nümunələri, ya müəllifi bəlli olan nəzm nümunələri, və ya haqqında bəhs etdiyi şəxslərin özlərinin qələmə aldıqları nəzm nümunələrindən ibarətdir. Məsələn, Fərəc Fərəcov şair Allahverdi Tağızadəyə həsr etdiyi "Pedaqoq, alim, şair..." oçerkində Allahverdi Tağızadənin yaradıcılığından nəzm nümunələri vermişdir:

*Övlada yaşamaq öyrədəndə siz*
*Nə olar, öyrədin yaşatmağı da.*

Bu şeirlərin Allahverdi Tağızadəyə aid olması Bəxtiyar Vahabzadənin qələmə aldığı ön sözdən məlumdur: "A.Tağızadənin "Oğullar gərəkdir" şeirindən götürdüyümüz bu beyt çoxqatlıdır. Burada fikir yükü çox tutumludur."

"Nazirliyin şöbə rəisi" oçerkində isə Abbas Səhhətin məşhur misrasından istifadə etməsi diqqəti cəlb edir:

*Vətəni sevməyən insan olmaz,*
*Olsa da o şəxsdə vicdan olmaz.*

Maraqlı ədəbi priyomlardan biri də Fərəc Fərəcovun kompozisiyanın ünsürlərindən biri olan lirik ricət zamanı nəzm nümunələrindən istifadə etməsidir. Məsələn, "Kənd unudulası

deyil" oçerkində biz müəllifin haşiyə çıxdığını, haşiyə daxilində şeir işlətməsini görürük:

*Öyrənməyə nöqtə atma yüzdə də,*
*Öyrətməklə öyrənməyə hazırlan.*
*Düz söz söylə arxada da, üzdə də,*
*Öyüdlərin səndən olsun ərməğan.*

Maraqlı məqam odur ki, lirik ricətdə istifadə edilmiş nəzm nümunəsi həm haşiyə ilə, həm də oçerkin məzmun və ideyası ilə sıx bağlıdır.

Fərəc Fərəcov "Culfa şəhidləri" publisistik kitabında təsvir etdiyi şəhidlərin bədii obrazlarını yaratmağa nail olmuşdur. Onun "Polis kollektivinin fəxri (sevincli, kədərli tarix)" publisist nümunəsində Culfanın ilk şəhidlərindən biri olan polis serjantı Mirəyyub Seyidovun obrazı oxuculara təqdim edilmişdir. M.Seyidovun Süsənlə olan sevgisinə də nəzər salınmışdır. Publisist mətndə Mirəyyubun canlı obrazı oxuculara təqdim olunmuşdur. Məsələn, Mirəyyubun polis yoldaşı olmuş İbrahim Ağayevin dili ilə onun canlı obrazı oxucuya çatdırılır: "Mirəyyub həqiqətən də qorxmaz və cəsur idi. Ən çətin, qorxulu tapşırıqlara belə "yox, bacarmıram" deməzdi. Əksinə, daim öndə olmağa can atar, kiminsə qorxub çəkindiyi işi öz boynuna götürərdi".[19]

"Culfa şəhidləri" kitabında əksini tapmış obrazlar mütərəqqi ideyaya xidmət etmiş, Vətən, xalq, millət mənafeyini həyatlarından üstün tutmağı bacarmış şəhid obrazlarıdır. Şəhidlik zirvəsinə yüksəlmiş Culfalı qəhrəmanları müsbət cəhətləri ilə bərabər, bütün incəlikləri ilə oxucuya təqdim edilmişdir.

"Culfa şəhidləri" kitabından "Polis kollektivinin fəxri"ndə Mirəyyub Seyidovun, "Şəhidlər ölmürlər"də Əliqulu Ağayevin, "Şamil"də Şamil Hüseynovun, "217-lər"dən biri"ndə Hi-

---

[19] F.Fərəcov. Culfa şəhidləri. Bakı, "Siyasət nəşriyyatı", 1999, 112 səh., s.9

dayət Ramazanovun, "Alay komandiri"ndə Elşad Nağıyevin, "Unudulası deyil"də Xanlar Sadiqovun, "Tampo" ləqəbli igid"də Kamran Əliyevin, "Həm sözü, həm izi qaldı"da Coşqun Hüseynovun, "İgidlik"də İbrahim İmanovun, "Qəhrəman ananın qəhrəman övladı"nda Sənan Cəfərovun, "Vüqar"da Vüqar Həsənovun, "Cəmaləddin tankçı idi"də Cəmaləddin Qəribovun, "Bəyəhməddə bir məzar var..."da Rəqib Quliyevin, "Heykəlləşən ömür"də Məzahir Nəcəfovun, "...Mən döyüşəcəyəm"də Elsevər Aslanovun, "Elə bilin ki..."də Nəzmi Əliyevin, "Polis zabiti"ndə Həsən Vəliyevin, "Azadlıq aşiqi"ndə Tağı Qasımovun, "Şəhidlər xiyabanında bir məzar var"da Elşən Cəbiyevin, "Kəndə çatan qara xəbər"də Hüseyn Əliyevin, "Oğul dərdi ağır olur"da Məmməd Mustafayevin, "Ondan bir arzu qaldı"da Əbdül Yusifovun, "Salvartıda dayanan ürək"də Məsum Əhmədovun, "Erməni terrorunun qurbanı"nda Məmməd Hüseynovun, "Mahmud kimi oğul gərək"də Mahmud Zeynalovun, "Vətənin xidmətində olarkən"də Zakir Həsənovun, "Sayılıb, seçilirdi Yaşar"da Yaşar Məmmədovun, "Nümunəvi əsgər idi"də Qadir Qəmbərovun, "Culfa şəhidlərinin sırasında"da Elsevər Aslanov və Həbib Əliyevin, "Vətən borcuna sədaqət"də Ramiz Məmmədovun ölməz, əbədiyaşar obrazları yaradılmışdır. Fərəc Fərəcov bu obrazları yaradarkən, hamısının əsas və müsbət xüsusiyyətlərini açaraq təqdim edə bilmişdir.

Fərəc Fərəcovun "Sənət məbədinin sənətçiləri" publisistik kitabında əksini tapmış "ədəbi portret"lərdə müəllif yanaşması özünəməxsusluğu ilə fərqlənir. Fərəc Fərəcov təqdim etdiyi incəsənət nümayəndələrini məhz onların özlərindən aldığı müsahibə əsasında sənədli-bioqrafik obrazlarını yarada bilir. Xalq artisti Kamran Quliyevin, Xalq artisti Həsən Ağasoyun, Xalq rəssamı Hüseynqulu Əliyevin, Xalq artisti İbrahim Bənəniyarlının, Əməkdar artist Tofiq Mövləvinin, Əməkdar artist Nəzakət Xuduyevanın, Əməkdar artist Rövşən Hüseynovun,

Əməkdar artist Yasəmən Ramazanovanın, Əməkdar artist Xəlil Hüseynovun, aktyor Rza Xudiyevin, Əməkdar artist Şirzad Abutalıbovun, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Şəmsəddin Qasımovun, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Yusif Allahverdiyevin, Əməkdar artist Elmira Kərimovanın, Əməkdar artist Əli Əliyevin, Əməkdar artist Vidadi Rəcəblinin ağır taleləri, onlarla bağlı hadisələr müəllif tərəfindən təhlil süzgəcindən keçirilmişdir. Həmin təhlillər əsasında obrazlar yarada bilmiş müəllif ümumiləşdirmələrdən uzaq durmuş, haqqında danışdığı şəxs haqqında ictimai rəyi əks etdirməyə nail olmuşdur. "Sənət məbədinin sənətçiləri" kitabında ictimai şüur forması olan incəsənətə xidmət edən insanları təqdim etmiş müəllif təqdim etdiyi incəsənət insanlarının adını, tərcümeyi-halın özünəməxsus xüsusiyyətlərini olduğu kimi çatdırmışdır. İncəsənət nümayəndələrinə verilən dəyərlərlə yanaşı, Naxçıvan teatrının keçdiyi tarixi yol, qazandığı nailiyyətlər göz önündə canlandırılmışdır. Həyatda və cəmiyyətdə baş verən hadisələri dərk etmək üçün yardımçı olan teatrın həyat yolunu dogru-düzgün inikas etdirərək, bizi əhatə edən ictimai problemlərin mənzərəsini yarada bilmişdir.

Fərəc Fərəcov fəaliyyətlərinə dərindən bələd olduğu, bəzən də şəxsən tanıdığı incəsənət adamlarına münasibətini publisistik şəkildə təqdim edərək obrazlarını yarada bilmişdir. Bədii publisist yazılardakı obrazlar onların bədiiləşmiş həqiqət olan ədəbi portreti kimi özünü göstərmişdir. Müəllif yalnız ədəbi portret yaratmamış, təsvir etdiyi şəxsin yaşadığı, həmçinin onu formalaşdırdığı mühitə, həmin dövrdə baş vermiş siyasi hadisələrə də münasibət bildirmişdir.

Fərəc Fərəcov "Sənət məbədinin sənətçiləri" kitabında Xalq rəssamı Hüseynqulu Əliyevin ədəbi portretini yaratmağa nail ola bilmişdir: "Qədim və həmişəcavan Naxçıvan diyarının incəsənət mühitində silinməz dəsti-xətti olan bir sənətçi var:

Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev.

Naxçıvanlıların yaxından tanıdığı və sənətinə dərin hörmət bəslədikləri bu fırça və tişə ustasının şöhrət coğrafiyası təkcə Azərbaycanı əhatə etməklə bitmir. Onu eyni zamanda əsərlərinin sərgiləndiyi nə qədər xarici ölkədə də tanıyır, sənətini dəyərləndirilər". [20]

Fərəc Fərəcovun bədii publisistikası müəllifin yaradıcılıq təxəyyülünün məhsulu olsa da, bu publisist yazılarda həyat həqiqətləri, real insanların taleyi əksini tapmışdır. Müəllifin bədii publisistik nümunələrində yazıçı publisistikası ilə jurnalist publisistikasının vəhdət təşkil etməsini müşahidə edirik. Müəllifin qələmə aldığı bədii publisistikasında müsahibənin yer alması diqqətdən yayınmır. Məlumdur ki, müsahibənin monoloq, dialoq, sorğu, rəy və s. növləri mövcuddur. Müsahibənin əhəmiyyəti odur ki, oxucu informasiyanı, yəni onu maraqlandıran məlumatı birbaşa mənbədən ala bilir. Müsahibə vasitəsilə haqqında bəhs edilən insanın daxili aləminə nəzər salmaq mümkün olur. Məsələn, "Aktyor, rejissor, teatr rəhbəri..." bədii publisist nümunəsində Əməkdar artist Yasəmən Ramazanova ilə müəllifin müsahibəsinə nəzər salaq. Müəllifin verdiyi suallar əsasında Yasəmən xanımın cavabları bir növ də dialoq yaradaraq onu ictimaiyyətə tamamilə fərqli rakursdan təqdim edə bilir. Fərəc Fərəcovun "Yasəmən xanım, bir rejissor kimi fəaliyyətinizdən də az-çox eşitmişik. Bu barədə konkret məlumat versəniz yerinə düşər" kimi fikirləri həmsöhbətinə ünvanlanmış, Yasəmən xanımın cavabı ilə oxucu üçün qaranlıq olan məqamlara aydınlıq gətirilmişdir: "Mən Dövlət Musiqili Dram Teatrında üç əsərə quruluş vermişəm. İlk işim 2003-cü ildə Georgi Xuqayevin "Mənim qayınanam" tamaşası olub. Özüm də əsərdəki Gülbadam surətini ifa etmişəm. Ta-

---

[20] F.Fərəcov. Sənət məbədinin sənətçiləri. Naxçıvan, 2008, 112 səh., s.19

maşa pis alınmayıb. Onu muxtar respublikamızın bütün rayonlarında da göstərmişik. Böyük alqışlarla qarşılanıb.

Quruluş verdiyim ikinci tamaşa isə Abdulla Şaiqin "Yazıya pozu yoxdur" əsəridir. Bir də ki, H.Cavidin "Afət" əsəri mənim rejissorluğumla tamaşaya qoyulub. Qarşıdakı illərdə də Naxçıvan Dövlət Musiqili Dram Teatrında hansısa əsərə quruluş vermək niyyətindəyəm".[21] Müsahibəni oxuduqda oxucu üçün bəzi məqamlar aydın olur. Yasəmən xanımın üç əsərə quruluş verməsi, hətta hansı əsərlərə quruluş verməsi, quruluş verdiyi əsərlərin birində aktrisa kimi çıxış etməsi və s. məsələlər oxuculara çatdırılmışdır.

"Sənət məbədinin sənətçiləri" kitabında Xalq artistləri Kamran Quliyev, Həsən Ağasoy və digər incəsənət nümayəndələri haqqında bədii publisist yazılarda müsahibələr qarşılıqlı münasibətlər sferası kimi özünü göstərməkdədir. Bu müsahibələrdə oxucu müəllifin, yəni Fərəc Fərəcovun maraqlı həmsöhbət olmasının şahidinə çevrilir. F.Fərəcov konkret suallar verməklə söhbətin istiqamətini müəyyənləşdirir, qarşı tərəfdəki müsahibə verənin fikirlərini ifadə etməsinə şərait yaratmaqla bir növ istiqamətləndirmiş də olur. F.Fərəcovun publisist yazılarında ünvanladığı suallar şəxsi maraqları deyil, ictimaiyyəti düşündürən, marağında olan suallar şəklində təqdim edilmişdir. Bu da ona əsas verir ki, qarşı tərəfə ünvanlanmış suallar oxucunun marağında olan problemlərə aydınlıq gətirən cavablandırılmış suallardır. Təcrübəyə malik olan jurnalistlərin müsahibə şəklində təqdim etdikləri yazılar ictimaiyyətin marağına səbəb olur. F.Fərəcovun qarşı tərəfə ünvanladığı suallardan bəlli olur ki, müəllif müsahibə aldığı insanların fəaliyyətlərinə dərindən bələddir. Məsələn, F.Fərəcov "Naxçıvandan ayrıla bilmədim" bədii publisist yazısında Əməkdar artist Rövşən Hüseynova ünvanladığı "Bütün bunlar, Sizə necə təsir edir, daha doğrusu, sənətkar ailəsindən çıxmağınız Sizdə arxa-

---

[21] F.Fərəcov. Sənət məbədinin sənətçiləri. Naxçıvan, 2008, 112 səh., s.55

yınçılıq, yoxsa məsuliyyət hissi yaradır?" sualından əvvəl publisist yazıda müəllifin R.Hüseynovun ailə üzvlərinə diqqət yetirmişdir. Bu məqamdan biz Rövşən Hüseynovun anasının Xalq artisti Sofiya Hüseynova olmasını, Xalq artisti Rafael Dadaşovun da ana bir qardaşı olması məlumatını əldə edirik. Nənəsi Xədicə Qazıyevanın isə Naxçıvanın ilk qadın aktrisalarından biri olmasını da öyrənmiş oluruq. Müəllifin Rövşən Hüseynova ünvanladığı sualdan əvvəl onun Xədicə Qazıyeva, Sofiya Hüseynova, Rafael Dadaşovla qohumluq əlaqələrinin, ailə ənənələrinin davamçısı olması faktını bilməsi sualların əhatə etdiyi mövzu və faktlarla məlumatlı olmasının göstəricisidir. Fərəc Fərəcovun qələmə aldığı bədii publisist yazılarında müsahibi haqqında bilgiyə malik olması, özünün dünyagörüşünün yüksək olması oxucusuna çatdırmaq istədiyi informasiyanın maraqlı alınmasına səbəb olmuşdur.

Müəllif bədii publisistikasını müsahibə janrı ilə qarışıqlığının maraqlı nümunələrini yaratmağa nail ola bilmişdir. F.Fərəcov publisistik əsərlərində müsahibəyə üstünlük verməsi, ona bir müəllif kimi həm informasiya yükünü, həm də çatdırmaq istədiyi bədii yanaşmalarını təqdim edə bilir.

Fərəc Fərəcovun "Culfa şəhidləri" kitabı publisist yazıları ilə diqqəti cəlb edir. Lakin kitabda maraqlı məqamlardan biri də İbrahim İmanova həsr edilmiş "İgidlik" və Məzahir Nəcəfova həsr edilmiş "Heykəlləşən ömür" adlı yazıların hekayə adı ilə təqdim edilməsidir. Müəllif "İgidlik" və "Heykəlləşən ömür" yazıları hekayə kimi verməsi janr baxımından yazılara diqqəti artırır. Hər iki bədii nümunədə publisistikanın və epik növün qarışıqlığı özünü göstərməkdədir. Epik növün həcmcə kiçik, lakonik, dinamik, əhatəli janrı olan hekayəyə xas əlamətləri həm "İgidlik", həm də "Heykəlləşən ömür" əsərində görmək olur. Hekayə janrı məhdud bir zaman, məkan daxilində real həyat materiallarına əsaslanaraq, quruluş etibarilə mürəkkəb olmayan, xarakterik bir hadisəni, konkret bir əhvalatı

süjet baxımdan yığcam, bitkin təsvir etmək gücünə malikdir. Əldə olunmuş təcrübələrə əsasən qeyd etməliyik ki, Fərəc Fərəcovun təxəyyülündən doğan gərgin həyatı, nə vaxtsa baş vermiş hadisənin təsviri, qəhrəmanların daxili ikiliyi, ictimai müsibətlərin şəxsi maraq dairəsində həlli onun qələmə aldığı "İgidlik" və "Heykəlləşən ömür" əsərlərində özünü göstərmişdir. Hekayə janrına əsasən tək süjetdən, yaxud bir neçə süjet üzərinə köməkçi süjet vasitəsiylə fikirlərdən ibarət olan, bir və ya bir neçə surətlə bağlı olan konkret və kiçik bir əhvalat çevik və yığcam şəkildə özünəməxsusluğu ilə təsvir edilə bilir. "İgidlik" və "Heykəlləşən ömür" əsərlərində müəllif həyatın bir anını bütöv, ideya baxımından tamamlanmış şəkildə verməyə nail ola bilir.

Fərəc Fərəcov obyektiv realist təsvir üsulu hakim olan hekayələrində konkret bir hadisəni, bir şəxslə əlaqədar baş verən əhvalatın yığcam təsvirini, həyatın bir anını bütöv, bir dövrün səciyyəsini bədii sənətkarlıqla göstərməyə nail ola bilmişdir: "...dalbadal açılan atəş nəticəsində əzəmətli heykəli andıran İbrahimin bədəni al qana bələndi. Bu atəşi isə qaçmağa macal axtaran son düşmən əsgəri açmışdı. İbrahimin ağrıları şiddətlənsə də , bədənini qan götürsə də ayaq üstə möhkəm dayanmışdı. Lap əvvəlki kimi.

Avtomatını yenə də sinəsində möhkəm tutmuşdu." Müəllif "İgidlik" adlı hekayəsindəki kiçik bir epizodla İbrahimin şəhid düşmə məqamına aydınlıq gətirə bilmişdir.

F.Fərəcov hekayədə İbrahimin xarakterini aydın cizgilərlə verməklə, onun daxili, mənəvi aləmini açıqlamışdır: "...bir daha qərara alındı ki, yüksəklik sübhədək ələ keçirilməlidir.

Bəs nə etməli? Yuxarı qalxmaq çətin idi. Ani sükut yarandı.

İbrahim sükutu pozdu:

- Mən qalxaram, yoldaş komandir!

- Necə, sən tək?

- Orda məncə bir neçə "boyevik" qalıb. Tək özüm onların öhdəsindən gələrəm."

Müəllif İbrahimlə komandir arasındakı dialoq vasitəsilə onun qorxmaz obrazını yaratmağa nail ola bilmişdir.

Fərəc Fərəcovun "Heykəlləşən ömür" əsəri həcmcə kiçik, lakin dərin mənalı əhvalatı, həyat həqiqətlərinin insanın həyat və taleyi rakursundan təbii surətdə əks olunması ilə diqqəti cəlb edir. Ramazan kişi ilə Yasəmən arvadın itkin düşmüş oğullarından xəbər almamaları ilə başlayan yazıda Müdafiə Nazirliyindən gəlmiş məktubdan aydın olur ki, Məzahir Nəcəfov Füzuli bölgəsindəki hissələrin birində tankı ilə vuruşmuş, qəhrəmanlıqla həlak olmuşdur.

Müəllif yazının başlığına çıxardığı "Heykəlləşən ömür" adına hekayə adlandırdığı əsərinin sonunda məlumat vermişdir: "Axırda büstün ağ örtüyü götürüldü, ana heykəlləşmiş, əbədiləşmiş oğlunu – Məzahiri gördü." Müəllif qələmə aldığı bu əsəri hekayə janrına aid etsə də, əsərdə hər hansı bir insanın başına gələn xarakterik və tipik hadisə obrazın daxili aləmini açmaq üçün vasitəyə çevrilməsini müşahidə edirik. İnsan həyatının ayrılıqda götürülmüş konkret bir cəhətinə həsr edilən "Heykəlləşmiş ömür"də müəllif heykəlləşən ömürün Məzahir Nəcəfov olmasını fəxrlə təsvir etmişdir.

F.Fərəcovun "İgidlik" və " Heykəlləşən ömür" əsərlərində hekayə və publisistik janrın qarşılığını görmək mümkündür.

Qeyd etməliyik ki, həyat haqqında həqiqi məlumat vermək məqsədi güdən Fərəc Fərəcovun "Sənət məbədinin sənətçiləri", "Culfa şəhidləri", "Yaycı yetirmələri" kitablarında toplanmış yazılar ilk növbədə oçerklərdir. Hamıya bəllidir ki, oçerk faktiki həyat materialları, sənədlilik əsasında qələmə alınır. Oçerk kiçik həcmli, sujetli əsər kimi diqqəti cəlb edir. Oçerk həmçinin, təsviri, faktoqrafik, elmi-bədii olaraq, həyatda olmuş konkret hadisə, real faktlar haqqında yığcam bədii şəkildə məlumat verir. Fərəc Fərəcovun qələmə aldığı "Sənət

məbədinin sənətçiləri", "Culfa şəhidləri", "Yaycı yetirmələri" kitablarındakı oçerklər nəsrlə qələmə alınmışdılar. Fərəc Fərəcov qələmə aldığı oçerklərində geniş ümumiləşdirmə verməyərək, qəhrəmanın adını, tərcümeyi-halının səciyyəvi faktlarını olduğu şəkildə əks etdirmişdir. Müəllif qarşısına xüsusi bədii vəzifə qoymadan, tipikləşdirmə və ümumiləşdirmə aparır. Oçerklərində bədii təsvir və ifadə vasitələrindən istifadə etməsinə baxmayaraq, Fərəc Fərəcov müəllif təxəyyülünə geniş yer verməmişdir.

Qeyd etmək lazımdır ki, konkret, faktiki hadisə və həyatla bağlı olan oçerk iki formada özünü göstərməkdədir:

I. Sənədli oçerk (publisist);

II. Bədii oçerk.

Sənədli oçerk həyatdakı konkret hadisə və faktlara əsaslanır. Həyatda baş vermiş reallıqları, tarixi faktları, həmçinin həyatda olmuş insanların həyat tarixçəsini əks etdirir. Bədii oçerkdə həyat tərzi, adət-ənənələr, insanların ictimai və şəxsi həyatının davamlı münasibətləri təsvir edilir. Bədii oçerkdə xarakterlərin davamlı və dəyişməz xüsusiyyətləri aşkara çıxarılır.

### *§2. Fərəc Fərəcovun elmi publisistikası*

"Sən olmasaydın" kitabında "Çətin günlərdə", "Ağlın, zəkanın qələbəsi", "Tanrı istəyi-tanrı qisməti", "Öz xalqının vətənpərvəri", "İnkişafımızı təmin edən amil: Heydər Əliyev siyasəti", "Bu da Tanrı bəxşişidir", "Sözlə işin vəhdəti", "Qayıdış"da şərəfli tariximiz", "İqtisadiyyat sürətlə artır, proqramlar uğurla icra olunur", "Zaman ötdükcə gözümüzdə ucalan dahi", "Zamana sığmayan dahi", "Azərbaycanlı olmaq şərəfi" və s. publisist yazıları Fərəc Fərəcovun elmi publisistikasını əks etdirir. Bu elmi publisistik yazılar Heydər Əliyevin fəaliyyətini işıqlandırmışdır. Müəllifin elmi publisistikasında siyasi, iq-

tisadi, əxlaqi-etik sahələrdə təşəkkül edən aktual situasiya və problemləri elmi, məntiqi dəlillərlə obrazlı şəkildə əks etdirilmişdir. Fərəc Fərəcov cəmiyyətdəki ictimai fikrə münasibətini bildirməklə, məqsədyönlü şəkildə ictimai-sosial-siyasi hadisələrə münasibətini bildirmişdir. Çağdaş cəmiyyətdəki mütərəqqi sosial-əxlaqi idealı qabartmaqla oxucuya təqdim edə bilir.

Fərəc Fərəcovun qələmə aldığı elmi publisistika nümunələrində Heydər Əliyev, İlham Əliyev kimi tarixi şəxsiyyətlərin fəaliyyətlərinə, həmçinin o dövrün bir çox aktuallıq kəsb edən ictimai-siyasi hadisələrinə nəzər salınmışdır. "Bir çağırışa milyonlar səs verdi" publisist yazısında müəllif "Əsrin müqaviləsi"nə toxunaraq qeyd etmişdir: "Dahi rəhbərin səyi ilə 1994-cü ilin 20 sentyabrında Gülüstan Sarayında dünyanın 11 neft şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi"nin imzalanması düşmənlərimizi bir daha qıcıqlandırdı." [22] "Əsrin müqaviləsi" mövzusu "Ağlın, zəkanın qələbəsi" publisistik yazının problematikasını da təşkil edir. Müəllif "Əsrin müqaviləsi"ni Heydər Əliyevin uzaqgörən siyasətinin bir hissəsi kimi dəyərləndirmişdir: "Heydər Əliyev qüdrəti və uzaqgörənliyi ölkəmizin əsas sərvəti olan neft strategiyasında xüsusilə özünü büruzə verdi".[23]

Fərəc Fərəcovun "Sözlə işin vəhdəti" publisist yazısının problematiksında Heydər Əliyevin idarəçilik keyfiyyətləri, onun siyasətinin davamçısı olan İlham Əliyevin siyasi fəaliyyətinə nəzər salınmışdır. Publisist yazıda İlham Əliyevin "Dəmir ipək yolu"nun reallaşmasındakı rolu da diqqətə alınmışdır: "...Heydər Əliyevin neft strategiyasının uğurla yeni mərhələyə qədəm qoyması, "Dəmir ipək yolu" adlandırılan Bakı-Axalkalaki-Qars dəmir yolu layihəsinin reallaşması, 2006-cı il

---

[22] F.Fərəcov. Bir çağırışa milyonlar səs verdi // Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.71

[23] F.Fərəcov. Ağlın, zəkanın qələbəsi // Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.28

Dünya azərbaycanlılarının II qurultayının təntənə ilə keçirilməsi, bölgələrdə məktəblərin, səhiyyə-sağlamlıq müəssisələrinin, idman komplekslərinin tikilib istifadəyə verilməsi, beynəlxalq Olimpiya hərəkatında idmançılarımızın parlaq qələbələri ilə yaddaşlara əbədi həkk olacaqdır".[24]

F.Fərəcov "Azərbaycanlı olmaq şərəfi" publisist yazısında yazının başına çıxardığı ada aydınlıq gətirməyə cəhd etmişdir. Müəllif "Azərbaycanlı olmaq şərəfi"ni milli ideologiyanın tərkib hissəsi kimi verməyə qadir ola bilmişdir. Müəllif yazıda Heydər Əliyevin azərbaycançılıq ideologiyasını milli ideologiya olması amilini qabardaraq qeyd etmişdir ki, "böyük liderimizin ikinci dəfə respublikamıza rəhbərliyə qayıdışından sonra möhkəm təməllər üzərində yaratdığı və önə çıxardığı azərbaycançılıq ideologiyası bütün bəşəri fikir və düşüncələri özündə ehtiva edir".[25]

Fərəc Fərəcov "Azərbaycanlı olmaq şərəfi" publisist yazısında milli ideologiyanın tarixinin daha əvvəlki dövrlərə təsadüf etməsinə toxunması, XV əsrdə Ş.İ.Xətainin hakimiyyəti illərində isə azərbaycançılığın bir ideologiya kimi yeni mərhələyə qədəm qoyması da açıqlanmışdır. Müəllif M.F.Axundzadəni, A.Bakıxanovu, Q.Zakiri, N.Vəzirovu, M.T.Sidqini, M.Ş.Vazehi, N.Nərimanovu, C.Məmmədquluzadəni milli ideologiyanın formalaşmasındakı rollarını qeyd etmişdir. Azərbaycançılıq, daha doğrusu milli ideologiyanın tərəqqisində xidmətləri olmuş bu şəxslərin yaradıcılıqları, fəaliyyətləri bu gün də öz əhəmiyyətlərini saxlamaqdadır. Müəllif bu amillərə toxunaraq, Ulu öndərimiz Heydər Əliyevin azərbaycançılıq ideologiyasının ilk bünövrəsi kimi təqdimi də diqqətdən yayınmır: "bütün bunlar isə sözün əsl mənasında dahi Heydər

---

[24] F.Fərəcov. Sözlə işin vəhdəti // Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.48

[25] F.Fərəcov. Azərbaycanlı olmaq şərəfi // Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.103

Əliyevin müəllifi olduğu və daha böyük siyasi-ictimai mahiyyət kəsb edən azərbaycançılıq ideologiyasının tərkib hissəsi, ilk bünövrə daşları idi".[26] Bu fikirlər bizə onu aşılayır ki, tarix unudulmamalı, tarixin səhifələri gələcək tarixi stimulaşdıran, ənənənin davam etdirilməsi milli düşüncənin formalaşması və tərəqqisinə təkan verir.

Fərəc Fərəcovun "Yaycı soyqırımı" əsərində xalqımızın tarixinə yazılmış soyqırım problemi işıqlandırılmışdır. Soyqırım etnik, irqi, dini və ya milli qruplara qarşı düşünülmüş, sistematik şəkildə tam və ya qismən məhv edilməsi prosesidir. Bütün tarixi dövrlərdə müxtəlif xalq və millətlər soyqırımla qarşılaşmış, bu da özlüyündə bəşəriyyətin, insanlığın amansız itkisidir. "Yaycı soyqırımı" kitabının problematikasında yalnız Yaycı soyqırımına deyil, Azərbaycan xalqının tarix boyu üzləşdiyi soyqırımlarına aydınlıq gətirilmişdir. Fərəc Fərəcov Azərbaycan xalqına qarşı zaman-zaman törədilmiş soyqırımlara münasibətini bildirməklə yanaşı, onların mahiyyətinə vara bilmişdir. 1918-ci illərdə törədilmiş Şamaxı, Quba, Bakı və digər soyqırımlarına da aydınlıq gətirilmişdir. Müəllifin Zəngəzur soyqırımını Əyyub Abbasovun "Zəngəzur" romanında" izləməsi də maraq kəsb edir. Xalqın çox da uzaq olmayan tarixinə çevrilmiş "Xocalı qətliamı"na da xalqın başına gətirilmiş faciələrdən biri kimi nəzər salınmışdır. Müəllif 30 mart və 3 aprel tarixləri arasında Bakıda, Bakı quberniyasının müxtəlif bölgələrində, həmçinin Şamaxı, Quba, Naxçıvan, Zəngəzur, Qarabağ və digər ərazilərdə Daşnaktsütyundan olan erməni silahlı dəstələrinin və S.Şaumyanın rəhbərliyi ilə Bakı Soveti tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırım detalları ilə incələnmişdir.

Müəllif "Yaycı soyqırımı" kitabında ermənilərin Azərbaycanda necə məskunlaşmasına aydınlıq gətirməyə çalışmış, xal-

---

[26] F.Fərəcov. Azərbaycanlı olmaq şərəfi // Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.104

qımıza qarşı soyqırım törədənlərin kimliyini aydınlaşdırmışdır: "Hələ eramızdan əvvəlki dövrlərdə öz məlum əməlləri müqabilində Avropadan sıxışdırılan, qovulan ermənilər Kiçik Asiya, Yaxın və Orta Şərq ölkələrinin bəzi bölgələrində məskunlaşmalı olmuşlar. Onların bir qismi isə Azərbaycanın və Gürcüstanın ərazilərində sığınacaq tapmışdır".[27]

Fərəc Fərəcov "Vedi hadisələri..." başlıqlı yazısında 1920-ci ildə Vedi rayonunun Yuxarı və Aşağı Şahablar, Çanaqçı, Birəli, Çığın, Əzizkənd, Yuxarı və Aşağı Ernik, İnqala, Xortum, Xınıd, Qaratorpaq, Təzəkənd, Qaraqoyunlu, Yuxarı və Aşağı Dəhnəz, Göl, Daşnav, Xosrov, Keşdağ, Külüz, Kotuz, Qarabağlar və s. kəndlərində ermənilərin törətdikləri faciələrə toxunur. Kitabda tarixin utancverici səhifələrindən biri də, ermənilərin soyqırımından yaxa qurtarmağa cəhd etmiş azərbaycanlıların Ərəblər körpüsündən İrana keçmələrinin qarşısını alan İran sərhədçilərinin insanlığa sığmayan hərəkətlərinin təsviridir. Fərəc Fərəcov kitabda bu amili Əkbər Əliyevin Zeynal Vəfa tərəfindən qələmə aldıqlarına əsaslanaraq belə təqdim edir: "Türk qanına yerikləyən vəhşi erməni quldurlarının qarşısında duruş gətirə bilməyəcəyini görən əliyalın əhali öz din qardaşlarının köməyinə sığınmaq üçün İrana tərəf üz tutdu. Lakin İran sərhədçiləri Ərəblər körpüsünün qarşısında Ərəbzəngi kimi dayanıb onları içəri buraxmadılar. Biçarə yurddaşlarımız ağır faciələr burulğanına düşmüşdü. Arxadan onları ermənilər güllə-baran edir, qarşıda isə sərhədçilər sıxışdırırdılar".[28]

Müəllif azərbaycanlılara köməyin yenə özümüz tərəfindən həyata keçirilməsini xüsusilə qabartmışdır. Məsələn, Vedi soyqırımı zamanı azərbaycanlıların İran sərhədini keçməsinə imkan verməyən, ermənilərə şərait yaradan İran sərhədçiləri din qardaşlarına yardım etmədilər. Yardım edən isə Azərbaycanın

[27] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.9
[28] Yenə orada, s.34

fəxri Vedidən olan Abbasqulu bəy Şadlinski olmuşdur. Vedilərin köməyinə ağır, dar zamanlarında yardıma gəlmiş Abbasqulu bəy Şadlinski Vedidə erməni-daşnak quldur dəstələrinə qarşı könüllü xalq birləşməsi olan "Qırmızı tabor"u təşkil etmişdi. 1918-1921-ci illərdə onun komandiri olmuşdur. "Yaycı soqırımı" kitabında Abbasqulu bəy Şadlinski haqqında geniş məlumatın verilməməsi təəssüf doğurur.

"Yaycı soyqırımı" kitabında maraqlı məqamlardan biri də "Andronik kimdir?" başlıqlı yazıda Andronikin təqdim edilməsidir. Andronikin bir məxluq kimi dönə-dönə Türkiyə hökümətinə qarşı dönüklük etməsi əsərdə əksini tapmışdır. 1890-cı illərin əvvəllərində Türkiyədə yaşayan erməniləri ətrafına toplayıb Şərqi Türkiyənin Sasun, Muş, Van, Ərzurum, Qars və s. vilayətlərində qırğınlar törətməsi, komissar Hüsnü bəyin tapşırığı ilə 1894-cü il fevralın 21-də həbs edilməsi, bu zaman Qurana and içib azadlıq əldə etdikdən sonra Unanda yenə erməniləri ətrafına toplaması, Türkiyəyə qayıdıb Ənvər paşanın ona "paşa" titulunu verməsi və şərq cəbhəsində yaranacaq erməni hərbi dəstələrinə baş komandan təyin edilməsi, Andronikin "paşa" titulunu aldıqdan sonra yenidən Şərqi Türkiyədə iğtişaşlar törətməsi və s. tarixi faktlar və hadisələr kitabda əksini tapmışdır. Fərəc Fərəcov Andronikin dəfələrlə bağışlanması amilini xüsusi vurğulamışdır: "...Türkiyə dövləti öz ölkəsində qiyamlar, iğtişaşlar, qanlı terror hadisələri törədən ermənilərlə heç də sərt rəftar etməmişdir. əksinə onlara nə qədər güzəştlər etmiş, silahlarını yerə qoyub düz yola qayıtmalarını istəmişdir. Hətta erməni terrorçularının başında duran Androniki belə bağışlayıb azad etmiş, həmçinin ona səlahiyyətli vəzifələr tapşırmışlar".[29]

Bir faktı xüsusi vurğulamaq lazımdır ki, ermənilərin şirin dilinə inanların biri də Yaycı sakinlərinin olması Fərəc Fərəcov tərəfindən qələmə alınmışdır. Müəllif kitabda ermənilərə

[29] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.47

inanan Yaycı sakinlərinin ermənilərə aldanması epizodunu bir neçə dəfə təkrarlamış, bu faktı ürək ağrısı ilə təsvir etmişdir: "...bu qanlı tədbirin həyata keçirilməsində Yaycıya qonşu olan Yuxarı Aza və Der kəndlərinin erməniləri də yaxından iştirak etmişlər. Görüşüb danışdığım adamlar həm də onu bildirmişdilər ki, məhz o xain, iblis xislətli qonşular kəndə gəlib camaatı arxayınlaşdırmışdılar. Demişlər ki, "əsla narahat olmayın... İş-gücünüzdən qalmayın. Andronikin məqsədi öz qoşunu ilə gəlib buradan Zəngəzur tərəfə keçməkdir... Yaycıya yaxın belə düşməyəcək..."[30] Türklər kimi azərbaycanlılar da, yəni yaycılılar da tədbir görmək əvəzinə ermənilərə inandılar. Andronikin vəhşiliklərindən, türklərə qarşı törətdiyi faciələrdən xəbərdar olduqları halda rəğmən arxayın düşdülər. Bu arxayınlıq da xalqın, millətin soyqırımına çevrildi. Müəllif də məhz bu amili açıqlayaraq ağır nəticələrlə sonlanan hadisəyə münasibətini bildirmişdir: "Bu inanmağın isə nəticəsi haqqında bəhs etdiyimiz ən faciəli soyqırım oldu. Bu inanmaq təkcə bir kəndə, bir obaya yox, bütün Naxçıvana, Azərbaycana ağır zərbə oldu..."[31]

Fərəc Fərəcovun elmi publisistikasında maraqlı məqamlardan biri də kompozisiya ünsürlərinə müraciət edilməsidir. Müəllifin publisist yazılarında epiqraflardan istifadə edilməni müşahidə etmək olar. Məsələn, "Azərbaycanlı olmaq şərəfi" publisist yazısında müəllif "Ulu öndər Heydər Əliyev Azərbaycançılıq ideologiyasını ilk dəfə rəsmən siyasi müstəviyə çıxarmış, onu dövlət siyasətinə çevirmişdir" fikirləri epiqraf kimi təqdim edilmişdir. Müəllif təqdim etdiyi epiqraf vasitəsilə oxucusunun diqqətini publisist yazısının məzmun və ideyasına yönəltməyə nail olmuşdur.

Müəllifin "Qayıdışla" başlanan işıqlı günlər" publisist yazısında epiqrafın təqdimi diqqəti cəlb edir: "Bugünkü Azər-

---

[30] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.78-79
[31] Yenə orada, s.79

baycan Heydər Əliyev ideyalarının gur işığında yaşayır, yaradır və böyük uğurlara imza atır". Qeyd etmək lazımdır ki, Fərəc Fərəcovun publisist yazılarının əvvəlində yerləşdirilmiş epiqraflar müəllifin özünə aiddir. Belə ki, epiqraflar adətən, başqa sənətkarların, görkəmli şəxsiyyətlərin hikmətli fikirlərini ifadə edən nümunələr olur.

F.Fərəcovun "Qürur hissi" publisist yazısında "Hazırda ölkəmizdə, eləcə də onun ayrılmaz bir parçası olan Naxçıvan Muxtar Respublikasında qürur duyulacaq hər şey vardır", "Zamana sığmayan dahi" publisist yazısındakı "Bu gün Azərbaycanın çox böyük iqtisadi-siyasi, sosial-mədəni uğurları məhz Heydər Əliyev siyasi kursunun bəhrələridir", "Zaman ötdükcə gözümüzdə ucalan adam" publisist yazısında "Ulu öndərimiz Heydər Əliyevin həyat və fəaliyyəti tükənmək bilməyən xəzinə, böyük bir məktəbdir", "İnkişafımızı təmin edən amil: Heydər Əliyev siyasəti" publisist yazısında "1993-cü ilin 15 iyunundan müstəqil Azərbaycanın tarixində yeni bir dövr başlandı: Heydər Əliyev dövrü" kimi epiqraflar müəllifin özünə aid olan epiqraflardır.

Fərəc Fərəcov "Yaycı soyqırımı" əsərinin kompozisiyasını kompozisiya ünsürləri ilə zənginləşdirməyə qadir olmuşdur. Müəllif qələmə aldığı kitabın məzmununa uyğun epiqraflardan istifadə etmişdir. Bu epiqraflar tanınmış şəxsiyyətlərin hikmətli kəlamlarını, şifahi xalq ədəbiyyatı nümunələrini, müəllifin özünün hikmətli fikirlərini əhatə etmişdir. Müəllif Məhəmməd peyğəmbərin kəlamlarına kitabın başlanğıcında yer vermişdir. "Əgər utanmırsan, istədiyini elə", "Savaş vaxtı qocalara, kiçik uşaqlara, qadınlara əl qaldırmayın, onları öldürməyin" kimi hikmətli kəlamlar Allahın sonuncu elçisi Məhəmmədə aiddir.

Müəllif "Yaycı soyqırımı" kitabının "Məkrli köçürmələr" adlı birinci bölümündə zərbi-məsəllərə müraciət etməsi ilə diqqəti cəlb edir: "Özümə yer eylərəm, gör sənə neylərəm".

Epiqraf sadə cümlə strukturunda olaraq, mübtədası buraxılmış müəyyən şəxsli cümlə quruluşunda təqdim edilmişdir. "Özümə yer eylərəm, gör sənə neylərəm" epiqrafı birinci şəxsin dilindəndir. Müəllif isə bizə bu şəxsin Azərbaycan ərazilərində özlərinə yer etmiş ermənilərin yerli əhaliyə qarşı apardıqları siyasətini əks etdirmişdir. İdeya yönümü kimi çıxış edən epiqrafda siyasi-ictimai durum əksini tapmışdır.

Fərəc Fərəcov birinci bölümün "Zaman-zaman törədilən soyqırımları" başlıqlı yazısında da atalar sözünü epiqraf kimi təqdim etmişdir: "Yersiz gəldi, yerli qaç". Bu frazeoloji birləşmə kiminsə özünə aid olmayan bir əşyaya zorakılıq yolu ilə, haqsızlıqla sahib çıxmaq istəyini əks etdirir. Müəllifin epiqrafı məqamında işlətməsi də açıq-aydın özünü göstərməkdədir.

"Xocalı qətliamı" başlıqlı yazıda müəllif "Utanmasan oynamağa nə var ki!" atalar sözünü epiqraf kimi təqdim etmişdir. Epiqrafın "oynamaq"la əlaqəsini görən oxucuda sual yaranır. "Xocalı qətliamı" ilə utanmadan oynamağın nə əlaqəsi var? Şübhəsiz ki, müəllif "Utanmasan oynamağa nə var ki!" atalar sözünü işlətməklə sırf rəqs etmək mənasını nəzərdə tutmamışdır. Müəllif bu epiqrafla ermənilərin etdikləri əməlləri qiymətləndirərək, vurğulayır ki, yersiz bir hərəkət etmək, ona haqq qazandırmaq üçün üz lazımdır.

F.Fərəcovun "Yaycı soyqırımı" kitabında kompozisiyanın ünsürlərindən olan epiloq da verilmişdir. Müəllif kitab boyu qaldırmış olduğu problemləri yekunlaşdırmışdır. Kitabdakı epiloq "Son söz əvəzi..." başlığı altında təqdim edilir. Müəllif kitabının sonunda yığcam yekun hissədə kitab haqqında fikirlərini tamamlaya bilmiş, məqsədinin nə olmasına aydınlıq gətirmişdir: "Əsl məqsəd isə 1918-ci ildə ermənilərin dinc, əliyalın kəndimizə hücumunu, bu hücumun nəticəsində təxminən 2500 günahsız insanın qətlə yetirilməsini və ya itkin düşməsini, kəndin yandırılıb külə döndərilməsini bütün yaycılıla-

ra bir daha xatırlatmaqdır, bütün Azərbaycana bildirməkdir, bütün ərzə bəyan etməkdir..."[32]

"Yaycı soyqırımı" kitabındakı epiloqun müəllifin qələminə məxsus "Balta çalır, bil!" şeiri ilə tamamlaması da diqqətdən yayınmır. Müəllif "Balta çalır, bil!" şeiri ilə kitab boyu qaldırdığı məsələləri poetik nümunə ilə yekunlaşdırmağa nail ola bilir:

*Gözlədik, səbr etdik, dözdük nazına,*
*Qulaqlara neştər cır avazına,*
*Çatdırdın türkləri səbrin azına*
*Saxta soyqırımdır "on beşinci il"*
*Niyyətin köksünə balta çalır bil!*

Müəllifin "Balta çalır, bil!" şeirindən verilmiş bu nümunədə müəllif ermənilərin məkrli əməllərinin üstünü açmağa nail oduğu kimi, "on beşinci il" soyqırımının uydurma olması faktını qabarda bilmişdir.

Fərəc Fərəcov "Yaycı soyqırımı" kitabında "Andronik kimdir?" başlıqlı yazısında nəql etdiyi hadisələrin inkişafını müvəqqəti olaraq dayandıraraq, maraq kəsb edən, konkret desək, Yaycı haqqında maraqlı məlumatlar verir. Müəllifin hadisələrin inkişafını müvəqqəti olaraq dayandırıb öz reaksiyasını lirik haşiyədə verməsi maraq kəsb edir: "Yaycı Naxçıvan Muxtar Respublikasının üç böyük kəndindən (Nehrəm və Cəhri) biridir. Culfa rayonunun isə ən iri yaşayış məntəqəsidir. Arazın sahilində, "Qızıl qaya" adlanan dağın ətəyində yerləşən bu kəndin qədim, köklü tarixi vardır. IX əsrdə yarandığı ehtimal edilir. Kəndin sakinləri oğuz tayfalarının törəmələridir".[33]

---

[32] F.Fərəcov. Son söz əvəzi... // Yaycı soyqırımı. Naxçıvan, 2002. 120 səh., s.112

[33] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.48

Fərəc Fərəcov "Yaycı soyqırımı" kitabında Yaycıda baş vermiş soyqırıma xalqın yaddaşında həkk olunan, yaşlı nəslin nümayəndələrindən eşitdikləri əsasında cavab verməyə nail ola bilir. Məsələn, "İnamlı və imanlı kəsin torpağı düşmən tapdağında qala bilməz..." başlıqlı yazıda Məşədi Əli Cəfərovun danışıqlarına əsaslanaraq, baş vermiş tarixi hadisəyə qiymət verməyə cəhd etmiş müəllif haşiyə çıxaraq, danışan haqqında oxucuya lazımi məlumat çatdırır: "Müsahibim Məşədi Əli Cəfərov 1942-ci ildə Yaycıda anadan olub. Burada böyüyüb yaşa dolub. Kəndimizin hörmətli ağsaqqallarındandır. Yaycı kənd məscidinin axundu kimi dini işlərə rəhbərlik edir".[34]

"Üzdə "qardaş", içdə cəllad" başlıqlı yazıda təqdim edilmiş haşiyə xeyirin şər üzərində qalib gəlməsinin bariz nümunəsidir. Belə ki, Andronikin törətdiyi soyqırım nəticəsində ermənilərin öldü bildikləri uşağın sağ qalması, yəni Abbasın sağ qalması faktı Həsən Zeynalov və onun həyat yoldaşı Zəhra xalanın xatirələrində əksini tapa bilmişdir. Lakin Fərəc Fərəcov nəql edilən hadisəni müvəqqəti olaraq dayandıraraq haşiyə çıxır. Haşiyədə müəllif Abbasın kim olmasına aydınlıq gətirmişdir: "Erməni qamçısı ilə vurulub yerə sərilən həmin uşaq yaşamış, şərəfli bir ömür yolu keçmişdir. O, mayor rütbəsinə yüksəlmiş, kəndimizdən yetişən ilk təyyarəçi olmuşdur".[35]

Bədii suallardan tez-tez istifadə edən Fərəc Fərəcov bununla ifadə etmək istədiyi fikir və ideyaya oxucunun diqqətini yönəltməyi bacarır. Oxucusunu bədii sual ətrafında düşünməyə vadar edir. "Tanrı istəyi – Tanrı qisməti" publisist yazısında müəllifin bədii sualları işlətməsi məqamına diqqət yetirək: "Onun barəsində necə yazım ki, bu kiçik məqalədə onun böyük qüdrətini, əzəmətinin bir parçasını belə reallıqla əks etdirə bilim?

[34] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.66
[35] Yenə orada, s.61

Axı qalın-qalın cildlərə sığmayan qiymətli, yanarlı ömür adi bir yazıda hansı məna, hansı fikirlə yekunlaşa bilər?"[36] Müəllif publisist yazısının emosional təsirini artırmaq üçün fikrini sual tərzində təqdim edir. Müəllif bədii sual şəklində ünvanladığı fikirləri sadə, nəqli cümlə ilə də qələmə ala bilərdi.

Fərəc Fərəcov "Yaycı soyqırımı" əsərində təsvir etdiyi hadisələri, çatdırmaq istədiyi ideya və fikirləri təsirli etmək üçün nəzm nümunələrindən də istifadə etmişdir. Bu nümunələrin bir qismi müəllifin özünə, digər qismi isə başqa sənətkarların, şairlərin nəzm nümunələridir. Məsələn, müəllif "Vedi hadisələri..." başlıqlı yazıda 1918-ci ildə Hüseyn Cavidin qələmə almış olduğu dörd aktlı " İblis" mənzum faciəsindən

*İblis nədir? Cümlə xəyanətlərə bais,*
*Ya hər kəsə xain olan insan nədir? İblis!*

– misrası təqdim edilmişdir. Bəllidir ki, Hüseyn Cavidin "İblis" faciəsində ədalətsiz müharibə aparanlara dərin nifrət əksini tapmışdır. Fərəc Fərəcov da qələmə aldığı əsərində ermənilərin ədalətsiz müharibə tərəfdarı olmalarını əks etdirmişdir: "...heç kəs bilmir ki, hardadır iblis dediyimiz o murdar məxluq. Mən deyirəm: harada daşnak təbiətli bir erməni varsa, onun içindədir iblis".[37]

Fərəc Fərəcov "Xocalı qətliamı" yazısında özünün qələmə aldığı səkkizənddən ibarət olan "O, Xocalıdır!" adlı şeirini təqdim etmişdir. "Xocalı qətliamı" başlıqlı yazının məzmun və ideyasına uyğun gələn, müəllifin nəsr dili dediklərini, nəzm şəklində əks etdirilməsi maraq kəsb edir. Müəllif poetik nümunədə bu ağır dərdi incəliklə qələmə almışdır:

---

[36] F.Fərəcov. Tanrı istəyi – Tanrı qisməti // Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.31

[37] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.33

*Dərdlər yarışında ən uca dağdır,*
*Dərdini ellərə bəyan eyləyin.*
*Talanmış ocaqdır, qurumuş bağdır,*
*Naləsin ulduza, aya söyləyin.*

Fərəc Fərəcov "O, Xocalıdır!" şeirində erməni xislətinə, mənfur əməllərinə də işıq sala bilmiş, bəşəriyyəti onlardan qorunmağa çağırış etmişdir:

*İblis xislətlilər "göz yaşı" tökür,*
*Məkrini dünyaya sırıyır müdam.*
*Əl atıb çürümüş palanlar sökür,*
*Qovrulur içində, mat qalır adam.*

Fərəc Fərəcov Azərbaycan xalqının tarixi səhifəsinə qara hərflərlə yazılmış Xocalının başına gətirilmiş faciələri həm nəzmində, həm də publisistikasında əks etdirə bilir: "bir gecədə şəhərdə dəhşətli qətliam törəndi, ağlasığmaz vəhşiliklər həyata keçirildi. Beləliklə, daşürəkli ermənilərin zaman-zaman başımıza gətirdikləri soyqırımlara biri də əlavə olundu: Xocalı qətliamı!"[38]

Soyqırımla bağlı başqa əsərlərin qələmə alınması faktı bir ziyalı kimi Fərəc Fərəcovun diqqətindən qaçmamışdır. Müəllif həmin əsərləri xatırlamaqla, əsərdə əks etdirmək istədiyi ideya və fikirləri tarixi faktlarla olduğu kimi, bədii faktlarla da təsdiqləməyə cəhd etmişdir. Məsələn, "Yaycı soyqırımı" kitabında Azərbaycan nəsrinin yaradıcılarından olan M.S.Ordubadinin 1908-ci ildə qələmə aldığı "Qanlı sənələr" əsərinin xatırlanması yersiz deyil. Müəllifin qələmə aldığı əsərlə səsləşən bu əsər tarixi həqiqətlərin üzə çıxarılmasına yardımçı olan dəyərli nəsr nümunəsidir. M.S.Ordubadinin özünün canlı müşahidələrilə bərabər 245 müxbir məktubu əsasında tarixi faktlara

---

[38] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.40

əsaslanaraq qələmə alınmış "Qanlı sənələr" əsəri kimi Fərəc Fərəcovun da qələmə almış olduğu "Yaycı soyqırımı" əsəri xalqımıza qarşı törədilmiş soyqırımı əks etdirmişdir. M.S.Ordubadi "Qanlı sənələr" əsərində qeyd etmişdir ki, "Mənim məqsədim müsəlman və ermənilərin iki il ərzində törətdikləri səhv və xətalarını söyləməkdir... Bəlkə, onların və bizim bu xətalardan ötrü təəssüfə layiq bir halda gələcək qarşısında xəcalət çəkəcəyimizi deyib durmaqdır".[39] Bu baxımdan, M.S.Ordubadinin "Qanlı sənələr" əsərinin "Yaycı soyqırımı" əsərində xatırlanması təqdirəlayiq bir əməldir. F.Fərəcov yazıçının "Qanlı sənələr" əsərində bu problemə toxunaraq qələmə almışdır: "Müəllif milli qırğının törədilməsində erməni-daşnak partiyasının mənfur siyasəti ilə bərabər çar hökümətinin də çirkin mövqeyini faktlar əsasında oxuculara çatdırmışdır. Əsərdə xalqımızın başına gətirilən müsibətlərdən geniş bəhs olunur".[40]

Fərəc Fərəcov "Zəngəzur soyqırımı "Zəngəzur" romanında" başlıqlı yazısında isə Əyyub Abbasovun "Zəngəzur" dilogiyasını və orda əksini tapmış soyqırım probleminə aydınlıq gətirmişdir. Fərəc Fərəcov "Zəngəzur" dilogiyasının Ermənistan kitabxanalarından yığışdırılması faktına toxunmuşdur. Müəllif həmçinin romanda "Erməni Azərbaycan xalqlarının dostluğu "Zəngəzur"dakı qədər geniş epik lövhələrlə təsvir edilməmişdir" fikrini irəli sürərək, kitabın bəzi qaranlıq məqamlarına da aydınlıq gətirmişdir: "Zəngəzur qırğınları "Zəngəzur" romanında son dərəcə ətraflı və geniş şəkildə təsvir edilmişdir. Yazıçı Əyyub Abbasov təkcə baş vermiş qırğınların bədii təsvirini verməklə kifayətlənməmiş, bəzən açıq, bə-

---

[39] Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991, s.7

[40] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.19

zən də üstüörtülü şəkildə daşnakların məkrli siyasətinin haradan qaynaqlandığını ustalıqla qələmə almışdır".[41]

Fərəc Fərəcov türkoloq və yazıçı Əhməd bəy Ağaoğlunun xalqın soyqırımına qarşı biganə qalmadığına toxunmuşdur. Qeyd etmək lazımdır ki, Əhməd bəy Ağaoğlu 1905-ci ildə daşnak ermənilərə qarşı mübarizə aparmaq üçün Difai təşkilatını qurması ilə tarixə adını yazdırmışdır. Əhməd bəy Ağaoğlu 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin köməyinə gəlmiş Qafqaz İslam Ordusu komandanının siyasi müşaviri olması ilə də xalqımıza qarşı aparılan soyqırıma qarşı mübarizə aparmışdır. Fərəc Fərəcovun belə tarixi şəxsiyyəti kitabında anması tarixi şəxsiyyətlərə verilən dəyər kimi dəyərləndirilməlidir: "Əhməd bəy Ağayev 1906-cı ildə Gəncədə erməni soyqırımları ilə bağlı çıxış edərkən demişdir: "Yer üzündə Allahın yaratdığı nə qədər vəhşi və yırtıcı heyvan varsa, onlar başqa heyvanları parçalayırlar, amma öz həmcinslərinə əsla toxunmazlar. Nə acıdır ki, vəhşi heyvanların yapmadıqlarını ermənilər yapırlar. Tarixdə bu naxoş hadisəyə bənzər heç bir hadisəyə rast gəlməmişik".[42]

Fərəc Fərəcov "Yaycı soyqırımı" kitabında Azərbaycan Xalq Cümhuriyyətinin mart qırğınları ilə bağlı yaratdığı Fövqəladə Təhqiqat Komissiyasına başçılıq etmiş Ələkbər bəy Xasməmmədovun 1918-ci ilin noyabrında qələmə aldığı yazısından bir parça verməklə ermənilərin törətdikləri vəhşiliklərə işıq sala bilmişdir: "Evlər yandırılır, alova bürünmüş evlərdən qaçan kişilər, qadınlar, uşaqlar, ümumiyyətlə küçələrdə görünən hər kəs güllələnir. Ermənilər evlərə soxulur, qarşılarına çıxan hər kəsi öldürür, evləri qarət edirdilər. Şəhərin küçələrində meyidlər qalaqlanmışdı. Meyitlər arasında döşləri kəsilmiş, qarınları doğranmış qadın meyitləri atılıb qalmışdı".[43]

---

[41] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.30
[42] Yenə orada, s.19
[43] Yenə orada, s.22

"Yaycı soyqırımı" kitabında Fərəc Fərəcov həmkarı yazıçı Güllü Məmmədovanın "Qarabəkir əfsanəsi" əsərində Yaycı faciəsinin əks etdirməsi faktını nəzərə alaraq əsərdən verdiyi parça ilə həm Yaycı soyqırımına nəzər salır, həmçinin də məkrli, mənfur Andronikin əməllərini göstərir: "Qarabəkir əfsanəsi" kitabında Yaycı faciəsi ilə bağlı yazılmış səhifələr də olduqca təsirlidir".

Fərəc Fərəcovun elmi publisistikasında əsas obraz kimi Heydər Əliyevin obrazı canlandırılmışdır. "Tanrı istəyi – Tanrı qisməti" publisist yazıda Ümummilli lider Heydər Əliyevin oxuculara təqdimi diqqəti cəlb edir: "Heydər Əliyev şəxsiyyəti. İndi bu ad daxili çəkişmələrdən, kürsü davalarından bir yolluq silkilən, vətəndaş qarşıdurmasından əlçatmaz uzaqlıqda dayanan, dünya dövlətləri sırasında sevilib əzizlənən, sayılıb seçilən, gənc, müstəqil Azərbaycanımızla birgə çəkilir".[44] Müəllifin bütün elmi publisistikasında Ulu Öndər Heydər Əliyevin obrazı mütərəqqi ideyaları, xalqın mənafeyini güdən el qəhrəmanı kimi təqdim edilmişdir. F.Fərəcov "Öz xalqının vətənpərvəri" publisist yazısında qeyd etmişdir ki, "...Heydər Əliyev bütün varlığı, bütün ictimai-siyasi fəaliyyəti ilə vətəninə və xalqına bağlı idi. Mənsub olduğu Azərbaycanı yüksəltmək, onu dünyanın sivil ölkələri sırasına çıxarmaq Heydər Əliyev siyasətinin ana xəttini təşkil edirdi. Bunun arxasında isə xalq və vətən sevgisi dayanırdı".[45]

F.Fərəcovun "İnkişafımızı təmin edən amil: Heydər Əliyev siyasəti" publisist yazısında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin obrazı təqdim edilmişdir: "... ölkəmizdə Heydər Əliyevin siyasi kursunu Prezident İlham Əliyev

---

[44] F.Fərəcov. Tanrı istəyi – Tanrı qisməti // Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.30

[45] F.Fərəcov. Öz xalqının vətənpərvəri // Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.33

çox uğurla davam etdirir".[46] Müəllifin "Sözlə işin vəhdəti" publisist yazısında "milli inkişafın təkanvericisi və təminatçısı" olan İlham Əliyevin obrazı real faktlar əsasında təqdim edilir: "İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün artıq inkişaf dinamikasına görə dünyada lider ölkədir, bölgənin güc mərkəzi və söz sahibidir".[47]

Fərəc Fərəcovun "Yaycı soyqırımı" kitabında əksini tapmış obrazlara münasibət birmənalı deyildir. Obraz anlayışı müasir dövrümüzdə birmənalı qarşılanmamışdır. Bədii obraz özündə estetik dəyər təmsil edərək insan həyatının real lövhələrinin bədii təsviridir. Fərəc Fərəcovun "Yaycı soyqırımı" əsərində də obrazlar müəllif ideyalarının və bədii təfəkkürünün təzahür formalarından biri kimi özünü büruzə vermişdir. Əsərdə əksini tapmış obraz varlığın mahiyyətini ifadə edir. Fərəc Fərəcovun "Yaycı soyqırımı" kitabında bədii obraz anlayışı bədii əsərin ünsürü kimi başa düşülür: insan obrazı, təbiət obrazı, əşya obrazı, hiss obrazı, obraz-təfərrüat və s.

Fərəc Fərəcov "Yaycı soyqırımı" əsərində obraz yaratmaq üçün müəyyən qrup insanlara, əşyalara və proseslərə xas xüsusiyyətlərin ümumiləşdirilmiş şəkildə əks etdirilməsinə cəhd etmişdir. Fərəc Fərəcovun geniş və məhdud mənada istifadə etdiyi obrazlar fərdi cizgiləri ilə başqa obrazlardan fərqli cəhət və fərdi xüsusiyyətlərini əks etdirir.

F.Fərəcov təbiət hadisələrinə və müxtəlif insanlara münasibətini obraz vasitəsilə bildirməyə nail ola bilmişdir.

Müəllif "Məkrli köçürmələr" adlı birinci bölümdə ermənilərin kim olması sualına cavab axtarır. Cavabında isə erməni surətini yaratmağa nail ola bilir: "Yer üzərində yüzlərlə, minlərlə millət, xalq və etnik qruplar yaşayır. Onlardan birinin də

---

[46] F.Fərəcov. İnkişafımızı təmin edən amil: Heydər Əliyev siyasəti // Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.36

[47] F.Fərəcov. Sözlə işin vəhdəti // Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.46

adı "erməni"dir. "Erməni" sözü indi onları yaxından tanıyan, onların iç dünyalarına bələd olan insanların qulaqlarında hiyləgərlik, xainlik simvolu kimi səslənib".[48]

"Yaycı soyqırımı" kitabında Fərəc Fərəcov xeyriyyəçi mesenat və milyonçu Hacı Zeynalabdin Tağıyevin obrazını yarada bilmişdir. Qısa epizodik hadisəni nəql edən F.Fərəcov Azərbaycan xalqının tarixinə adını qızıl hərflərlə yazdırmış, milli kadrların hazırlanmasında, incəsənət, jurnalistika və təhsilin qurulmasında əməyi keçmiş H.Z.Tağıyevin yadda qalan obrazını yaddaşlara həkk edir. Müəllif onu erməni cəlladlarından fərqləndirən insani xüsusiyyətlərini açıqlamağa nail ola bilimişdir. Millətin atası adlandırılan Tağıyevin 1905-ci il hadisələri zamanı ona pənah gətirmiş 40 nəfər erməni arvad-uşağını xilas etməsi kitabda əks etdirilmişdir. Müəllif bu missiyanı yerinə yetirən Hacının yalan danışmasını qəbahət hesab etmir. Hətta erməniləri qorumaq üçün müqəddəs kitabımız Qurana yalandan and içməsi məqamına millət atasının öz dili ilə aydınlıq gətirmişdir: "Hacı Quranı gətirib and içir ki, mənim evimdə erməni arvadları yoxdur.

Qoçular bu sözlərə inanıb oradan uzaqlaşanda Hacının yanındakı adam həyəcanla dillənir:

- Ay Hacı, sən neylədin, neylədin!

Hacı deyir:

- Mən neylədim?

- Sən Allahın yanında günahkar oldun! Qurana yalandan and içdin!

- Mən Allahın 40 günahsız bəndəsini xilas etdim, bir özümü günaha batırdım. Əgər Allah Allahdırsa, məni bağışlar..."[49]

Fərəc Fərəcovun "Yaycı soyqırımı" kitabında qələmə aldığı insan surətlərindən biri də fərdiləşdirmə yolu ilə yarada bil-

---

[48] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.9

[49] Yenə orada, s.20

diyi Azərbaycanlılara və türk xalqına qarşı soyqırım törətmiş Andronik Ozanyanın surətidir. Təbii ki, mənfi surətini... Müəllif kitabın "Ən böyük qətliam – Yaycı soyqırımı" adlı ikinci bölümdə "Andronik kimdir?" başlıqlı yazı yer almışdır. Müəllif "Andronik kimdir?" yazısında Andronikin surətini ətraflı təqdim etməyə nail ola bilmişdir. Kitabın "Məkrli köçürmələr" adlı birinci bölümündə Andronikin təsvir edilməsinin şahidi olmuşduq.

Fərəc Fərəcov "Andronik kimdir?" sualının cavabını oxucunun cavab verməsi üçün onun öhdəsinə buraxmamış, müəllif kimi özü cavab verməyə nail ola bilmişdir: "Andronik Ozanyan 1865-ci ildə Türkiyədə anadan olmuşdur. Türk Ordusuna xidmət etmiş, böyük zabit rütbəsinə yüksəlmişdir. O da digər ermənilər kimi "böyük Ermənistan" yaratmaq "xəstəliyinə tutulmuş", ordudan qaçaraq özü kimi millətçi soydaşlarını başına toplamış, iğtişaşlar törətmiş, terrorçuluqla məşğul olmuşdur".[50]

Publisistik əsərlərdə (oçerk, felyeton, pamflet, icmal və s.) dövrün aktual problemlərinə toxunulur, müəllifin təsvir etdiyi hadisələrə və insan xarakterlərinə münasibət bildirilir, tərəqqi təqdir, gerilik tənqid edilir. "Yaycı soyqırımı" əsərində eyni dövrdə yaşayan insanların xatirələri əsasında qələmə alınmış müsahibələrdə eyni hadisələr, yəni xalqın soyqırımı məsələləri müxtəlif rakursdan təqdim edilməsinə baxmayaraq, eyni ideya, eyni problem açıqlanır. "Yaycı soyqırımı" əsərində müəllif təxəyyülü sənədliliklə bədiiliyin sintezində özünü əks etdirir. Müəllif kitabda fikirlərini çatdırmaq və açıqlamaq üçün soyqırım hadisələrinin şahidi olmuş insanların xatirələrindən istifadə etmişdir. Məsələn, "Şamaxı soyqırımı" (1918) başlıqlı yazısında müəllif müəllim Aydın Əlicanovun, Şamaxı sakini Xavər Yunusovanın, "Vedi hadisələri..." başlıqlı yazıda Vedi ra-

[50] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.44

yonu, Çirazlı kənd sakini Əkbər Əliyevin və digər şəxslərin xatirələrinə əsaslanmışdır.

Aydın Əlicanovun dediklərindən bəlli olur ki, Stepan Şaumyanın əlaltısı olan Lalayan fövqəladə komissiyanın rəhbəri olmuşdur. O da aydın olur ki, ermənilər Şamaxıda, Əngəxaran, Dədəgünəş, Qalaybuğurt, Çuxuryurd, Mədrəsə və s. kəndlərdə böyük faciələr törədərək azərbaycanlılara qarşı soyqırımı həyata keçirmişlər. Xavər Yunusovanın dediklərindən isə ailəsinin başına gələn olaylar nəql edilmişdir: Xavər Yunusovanın nənəsinin altı qardaşının, anasının yeddi qardaşının, anasıgilin tövləsində 80 nəfərin öldürülməsi, anasının körpəsini gözü qarşısında süngüyə taxılması, 180 nəfər sakinin meşədə güllələnməsi və s. Xavər Yunusovanın xatirələri əsasında tarixi həqiqətlərin bir qismi üzə çıxarılaraq oxuculara təqdim edilmişdir.

"Vedi hadisələri..." başlıqlı yazıda Vedi rayonundakı Şirazlı kənd sakini Əkbər Əliyevin dediklərindən bu məkanda ermənilərin törədikləri soyqırıma nəzər salınır. Əkbər Əliyev səkkiz kənddən bir nəfər də olsa belə insanın sağ qalmamasının səbəbkarlarını göstərmişdir: "...ermənilər zonada 8 kəndin bələkdəki körpələrindən tutmuş ağsaqqallarına, ağbirçəklərinədək bütün əhalisini binalara doldurub, qapılarını kilidləyib, benzin səpərək od vurub amansızcasına yandırmışdılar. 8 kəndin əhalisindən 1 nəfər belə sağ qalmamışdır".[51] Ürək ağrısı ilə qeyd etməliyik ki, Vedi hadisələri dünyaya səs sala bilməmişdir. Ancaq Alman faşizminin bəşəriyyətə və xüsusən də Belarus xalqına qarşı törətdiyi dəhşətli cinayətlərin bariz nümunəsi olan Xatın kəndi bütün dünyaya səs salıb. 1941-ci ildə faşistlər tərəfindən tamamilə yandırılmış Xatın kəndində qətlə yetirilənlərin sayı mübahisəli olaraq qalmaqdadır. Almanların 90 nəfər, Sovet qəzetlərinin isə Xatın kəndində 150 nəfər ölməsini qeyd etmişdilər. Buna bənzər hadisə Vyetnam mühari-

[51] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.33

bəsi zamanı Sonqmi kəndində təkrarlanmışdır. Sonqmi kəndinin sakinləri bütünlüklə məhv edilmişdir. Dinc əhalinin soyqırımı kimi tarixə səs salmış bu hadisələrə biganə qalmayan dünyanın Azərbaycandakı soyqırımlardan, tamamilə silinmiş və əhalisi məhv edilmiş kəndlərdən isə belə xəbərləri yoxdur. Bu baxımdan, Fərəc Fərəcovun qələmə aldığı kitab bu sahədə ilk atılan addımlardan biri olacaq.

Fərəc Fərəcov "Yaycı soyqırımı" əsərinin "Ən böyük qətliam – Yaycı soyqırımı" adlı ikinci bölümündə də soyqırımların təsvirini xatirələr əsasında açıqlamağa nail ola bilmişdir. Müəllif "Yaycıda nələr olub?" başlıqlı yazısında Hüseyn Cəfərov, Səfər Əliyev, Həsən İsmayılov, Əbülfəz Mövlayev, Məşədi Cəfərov, Əbülfəz Süleymanov kimi şəxslərin xatirələri əsasında Yaycı soyqırımına aydınlıq gətirmişdir. Hüseyn Cəfərovun dedikləri ermənilərin xislətini tam aça bilmişdir: "...bu, çox dəhşətli qırğın olmuşdur. Quduzlaşmış ermənilərin biz müsəlmanlara qarşı əsl qətliamı idi..."[52] "Hamısını düşmən bilin, dost çıxsa bəxtinizə" başlıqlı yazıda Səfər Əliyevin Andronikin mənfur əməllərini açıqlaması özünü göstərmişdir: "...nə Andronikdə, nə də onun əsgərlərində insanlıq deyilən heç nə yox idi. Gör necə qaniçən, alçaq adamlardı ki, kənddən elçi sifətində onlarla danışıq aparmağa gedən üç nəfər ağsaqqalı da öldürməkdən çəkinməmişdirlər".[53]

Müharibənin yazılmamış qanunudur ki, göndərilmiş elçiyə zaval yoxdur. Şərqdə zaval ifadəsi qalib hökmdarların məğlub olan tərəfi əsarətdə saxlamaq üçün onların övladlarını və ya doğma insanlarını zaval olaraq saraylarında yaşadırdılar. Bir növ girov saxlayırdılar. Elçi sifəti ilə hərbi barışığa və ya hərbi danışığa gedən şəxslərin zaval yəni girov saxlanılması yolverilməz idi. Lakin Andronik Yaycı kəndindən elçi sifəti ilə

---

[52] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.54

[53] Yenə orada, s.57

onun yanına gəlmiş üç ağsaqqalı öldürtməsi onun məkrli siyasətinin göstəricisidir.

Fərəc Fərəcov "Yaycı soyqırımı" kitabında bəzi tarixi faktlara da nəzər salmışdır. Fərəc Fərəcov "Yaycı soyqırımı" əsərində sənədli faktları qələmə almış olduğu əsərin konsepsiyasına uyğun şəkildə qurmağa nail ola bilmişdir. Müəllif əsərində sənədləri sistemləşdirərək ümumiləşdirmişdir. Fərəc Fərəcov bir yazıçı kimi əsərində sənədli faktları obrazlaşdırmağa da nail olur. Məlumatları tarixi ilə göstərmişdir. Məsələn, kitabda XVIII əsrdə İrəvan xanlığının, XIX əsrdə İrəvan quberniyasının mərkəzi olmuş və indi Ermənistan adlanan respublikanın paytaxtı olan İrəvan şəhərinin Şah İsmayıl Xətai tərəfindən salınması faktı maraq kəsb edir. Belə ki, müəllif bu şəhərin 1509-1510-cu illərdə Şah İsmayıl Xətainin göstərişilə salınması faktını qeyd etmişdir: "1509-1510-cu illərdə Şah İsmayıl öz ordusu ilə yürüşlərə gedərkən indiki İrəvan şəhərinin yerində düşərgələyir. Həmin yerlərin havası, suyu, gözəl təbiəti şahı valeh etdiyindən, orada şəhər saldırmaq qərarına gəlir. Şah İsmayıl bu məqsədlə Rəvanqulu xanı çağırıb 1 il müddətində burada abad, yaraşıqlı bir yaşayış məskəni tikdirməyi tapşırır və ona nə lazımsa kömək edir. Bir il keçəndən sonra hökmdar həmin yerə gələrkən görür ki, Rəvanqulu xanın rəhbərliyi ilə göz oxşayan bir şəhər salınıb. Bundan heyrətə gələn Şah İsmayıl şəhərin adını onu tikdirən Rəvanqulu xanın şərəfinə Rəvan qoyur. Sonralar şəhərin adı yerli əhalinin şivəsi ilə İrəvan kimi tələffüz olunur".[54]

Qeyd etmək lazımdır ki, tədqiqatçılar tərəfindən İrəvan şəhərinin salınması ilə əlaqədar müxtəlif fikirlər mövcuddur. İrəvan şəhərinin salınmasını müxtəlif dövrlərə aid olması faktı da özünü göstərmişdir. Məsələn, XVII əsrdə yaşayıb-yaratmış türk coğrafiyaşünası Evliya Çələbi İrəvanın XV əsrdə salınması faktına toxunmuşdur: "Hicri – 810 (1407-08)-cu ildə

---

[54] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.10-11

Əmir Teymurun tacirlərindən Xacə xan Ləhicani adlı tacir Rəvan torpağına qədəm qoyduqda çox münbit, məhsuldar torpaq görür. Öz ailə üzvlərilə burada sakin olur. Gündən-günə düyü əkini hesabına varlanaraq bu böyük kəndin əsasını qoyur".[55]

Q.Qeybullayev isə İrəvanın XVI əsrdən məlum olması faktını iddia etmiş, "...yaşayış məntəqəsi kimi Yerevan yalnız XVI əsrdən məlumdur".[56]

XVII əsr fransız səyyahı Jan Şarden [57] İrəvanda olmuş, İrəvan qalasını təsvir edərkən, kiçik bir şəhərdən böyük, oval formasında olduğunu qeyd etmişdir. Səyyah onu da vurğulamışdır ki, İrəvan qalasının dairəsi dörd min addım olub, təxminən 800 evdən ibarətdir. Jan Şardenin toxunduğu əsas məsələ, səyyahın İrəvan qalasında yaşayan insanların ancaq təmizqanlı səfəvilər olmasını vurğulamasıdır.

Tədqiqatçılar tərəfindən meydana çıxmış fikir ayrılığına baxmayaraq, Fərəc Fərəcovun publisistika ilə məşğul olan bir şəxs kimi İrəvan şəhərinin Şah İsmayıl tərəfindən salınmasının tədqiq etməsi təqdirəlayiqdir. Bu amil tarixi yaddaşların unudulmadığına, yaşadığına bir işarədir.

"Yaycı soyqırımı" kitabında müəllifin istifadə etdiyi tarixi sənədlərdən biri də Stepan Şaumyanın Bakı soyqırımı ilə Moskvaya ünvanladığı teleqramdır. F.Fərəcov teleqramın mətnini kitabda əks etdirməklə oxucusunun nəzərini tarixi prosesə yönəltməyə cəhd edir. S.Şaumyanın ünvanladığı teleqramın mətnini nəzərdən keçirdikdə, soyqırımın bilərəkdən həyata keçirilməsinə bir daha əmin olursan: "Müsəlman millətçi partiyalarının müqaviməti üzündən Bakıda Sovet hakimiyyəti tükdən asılı idi. Yelizavetpolda (indiki Gəncə) və Tiflisdə möhkəmlənmiş feodal (bəy və xan) ziyalıları başda olmaqla, parti-

---

[55] Çələbi E. Səyahətnamə. Bakı, Azərnəşr, 1997, 92 səh., s.50

[56] Qeybullayev Q. Qədim Türklər və Ermənistan. Bakı, 1992, 140 səh., s.40

[57] Şardən Y. Səyahətnamə. Parisdən İsfahana səyahət. Amsterdam, 1711. Bakı, "Elm", 1994, 96 səh., s.21

yalar menşeviklərin alçaq və qorxaq siyasəti nətisəcində özlərini son zamanlarda Bakıda da çox təcavüzkarcasına aparırdılar. Əgər onlar Bakıda üstün gəlsəydilər, şəhəri Azərbaycanın paytaxtı elan edər, bütün qeyri-müsəlman ünsürləri tərksilah edib qırardılar".[58]

F.Fərəcov "Yaycı soyqırımı" əsərində sənədliliyə müraciət etməsi təsvir etdiyi problemlərə sənədlərlə, faktlarla aydınlıq gətirmək məqsədi daşımışdır. Son dövrlər söz sənətində hibrid janr konstruksiyaları yaranmaqdadır. Bu özünü həm bədii ədəbiyyatda, həm də publisistikada göstərməkdədir. Müasir mərhələdə sənədli, publisistik, elmi janrlar yeni janr konstruksiyaları formalaşdırmaqdadır. Sənədli və bədii janrların qarşılıqlı əlaqə formaları müxtəlif ola bilər və ilk növbədə, sənədin (tarixi faktın) bədii mənasının yenidən işlənilməsi, müasir dövrdə "müstəqil estetik məna alması"[59] ilə səciyyələndirilir. F.Fərəcov sənədi (faktı) "Yaycı soyqırımı" əsərinin mətnin fabulasına daxil etmişdir. Müəllif rəsmi sənədlərlə yanaşı canlı insanların xatirələrindən fəal istifadə edərək, müəllif şərhi ilə təqdim edir.

Fərəc Fərəcovun qələmə aldığı "Yaycı soyqırımı" əsərinin əhəmiyyəti odur ki, əsər xalqın tarixi yaddaşından silinməsinə edilmiş cəhdlərin heç də uğurlu olmadığının göstəricisidir. Fərəc Fərəcovun özünün vurğuladığı kimi "amma təəssüflər olsun ki, ermənilərin xalqımızın başına gətirdiyi neçə-neçə belə soyqırımı kimi Yaycı qətliamı da sovet dövləti zamanı büsbütün unutduruldu. Elə böyük, dəhşətli faciələrin sadəcə bir qrup dəliqanlı erməninin şıltaqlığı olduğunu inandırmağa çalışırlar". Müəllifin ürək ağrısı ilə qələmə aldığı bu cümlələr tariximizə qarşı edilmiş məkrli oyunlardan biri idi. Hadisələrin can-

---

[58] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.28

[59] Палиевский П.В. Роль документа в организации художественного целого // Проблемы художественной формы социалистического реализма. В 2 т. – М., 1971. – Т. 1. С. 421

lı şahidləri olmuş şəxslərin fikirlərinin qələmə alınmamasını müəllif təəssüf hissi ilə qeyd etsə də, yaşanmış reallıq idi: "Bəlkə də belə unutqanlığımızdandır ki, o vaxtlar Yaycı soyqırımının canlı şahidlərinin söhbətlərini fərqimizə varmadıq, "bunlar nə vaxtsa gərəyimiz olar" deyə qeydlər götürməyə belə əhəmiyyət vermədik".[60]

[60] F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh., s.43

# II FƏSİL

# FƏRƏC FƏRƏCOV NƏSRİNİN PROBLEMATİKASI, JANR MÜXTƏLİFLİYİ VƏ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

## *§1. Fərəc Fərəcov nəsrində kiçik janr formaları*

Fərəc Fərəcovun nəsrində kiçik janr formalarına müraciət etməsi aktuallıq kəsb edir. Müəllif qələmə aldığı miniatürlərdə, hekayələrdə, povestlərdə aktual mövzulara toxunmağa nail ola bilmişdir. Əməkdar elm xadimi Hüseyn Həşimli Fərəc Fərəcovun hekayə yaradıcılığına toxunarkən, yazarın qələmə aldığı hekayələrinin xüsusiyyətlərinə aydınlıq gətirmiş, hekayələrin "...daha yığcam süjet daxilində əsas mətləbi mükəmməlliklə çatdırmaq məharəti ilə"[61] səciyyələnməsinə toxunmuşdur.

Fərəc Fərəcovun qələmə aldığı miniatürlər mövzu baxımdan müxtəlifdir. Miniatürlər müəllifin ictimai-sosial hadisələrə, təhsil problemlərinə (məktəb, müəllim və şagirdlər haqqında) bəşəri münasibətini əks etdirməsi ilə diqqəti cəlb edir. Müəllif təsvir etdiyi əhvalat və hadisələri təhkiyə yolu ilə nəql etmişdir. Müəllif "Qabrovosayağı miniatürlər" başlıqlı bölümdə iki miniatür hekayəsini təqdim edir: "Balta" və "Simic ər-arvad". "Balta" miniatür hekayəsinin süjet xətti ədəbiyyatda mövcud olan süjet xətti əsasında qələmə alınmışdır. "Velosiped" hekayəsi isə həcmcə qısa olmasına baxmayaraq, problematika baxımdan əhatəlidir. Belə ki, keçmiş - bu gün - gələcək kimi üçbucaq şəklində inkişaf edən hekayə "atalar və oğullar" ənənəsini davam etdirir. Keçmiş nəsillə bugünkü nəsil, həmçinin gələcək nəsillər arasında körpü olduğunu göstərməyə qa-

---

[61] Hüseyn Həşimli. Yaddaş işığı // F.Fərəcov. Ömür bir nağıldır: xatirə-roman. Bakı, "Elm və təhsil", 2014, 184 səh., s.5

dir ola bilir. Nəsib kişinin 10 yaşlı oğlu Pərvizin ondan velosiped istəməsi özünü uşaqlıq dövrünə qaytarır. Bu qayıdış hələ insanlar arasında keçmişlə bağlı olan bağların qırılmamasına işarə edir. Nəsibin anası Nigarı xatırlaması həmin bağların yaddaşlarda yaşadığına işarədir. Nigar da Nəsibin velosiped istəyini həmin məqamda yerinə yetirmədiyi kimi, Nəsib də oğlu Pərvizin istəyini dərhal yerinə yetirməmişdir. Təbii ki, bu ananın (Nigarın), nə də atanın (Nəsibin) velosiped almamaq istəyi ilə əlaqəli deyildi. Hər iki insanın maddi imkanı ilə əlaqəli idi. Lakin hekayədə mənəviyyatın maddiyyata qalib gəlməsi incəliklə əks olunmuşdur. Nigarın "Alacağam! Arxayın ol, mənim əziz balam, alacağam" deməsində ana məhəbbəti ilə yanaşı fədakarlığı özünü göstərmişdir. Nəsib kişinin isə ondan incimiş oğluna qətiyyətlə "Getdik!" deməsi də atanın anasından gördüyü məhəbbəti oğluna ötürməsinin göstəricisidir.

Fərəc Fərəcovun "Kin dağarcığı" hekayəsində bütün yazarların rastlaşdığı problemə aydınlıq gətirilmişdir. Qələmə alınmış bədii əsərlərdə insanların özlərini axtarması bir tendensiyaya çevrilmişdir ki, müəllif buna satirik şəkildə münasibət bildirməyə cəhd etmişdir. F.Fərəcovun hekayəsinin qəhrəmanı hekayə qələmə almışdır. Bundan sonra onun problemi yaranmışdır. Murad adlı tanışı özünü hekayənin prototipi kimi görmüş, bu səbəbdən də yazarla aralarında inciklik yaranmışdır. Bu inciklik nə az, nə çox 25 ilə yaxın bir tarixə çevrilir. "Televizor əhvalatı" hekayəsində televizor ustasını hekayəsinin qəhrəmanı etməsi, bu səbəbdən də uşaqlıq dostu, televizor ustası olan Muradın ondan inciməsi hekayədə əksini tapmışdır. Yazarın "axı bu hekayədir, bədii yazıdır. Tənqidi məqalə deyil ki, məndən inciyirsən... Sənin heç burada adın da yazılmayıb" fikirləri ilə razılaşmayan Murad hekayədə nazik bığlı şəxsin o olmasını iddia etməsi gülüş doğuran səbəblərdən biridir: "Necə tənqidi məqalə deyil, adın yoxdur? Bəs budu ha, yazmısan ki, cavan, nazik bığlı oğlan... Bəs bu kimdir, hə, ca-

vab ver? Mən deyiləm?"[62] Bu amil onu göstərir ki, yazarın qələmə aldığı hekayə real həyat hadisələrinə əsaslanır.

Fərəc Fərəcovun hekayə yaradıcılığında da həyat hadisələrinin sistemli şəkildə təqdimi özünü göstərməkdədir. Ədibin yaradıcılığında kompozisiyanın ünsürlərindən istifadə etməsinin şahidi oluruq. Məsələn, "Torpaq" hekayəsində hekayənin süjet xəttinə daxil olmayan, ancaq hekayənin mövzusu ilə səsləşən hikmətli nümunədən istifadə edilməsi ilə rastlaşırıq. "Torpaq" hekayəsində istifadə edilən epiqraf Azərbaycan folklorunun ən qədim janrlarından olan bayatıdır. Belə ki, seçilmiş epiqraf sadəlik və mürəkkəbliyin qəribə vəhdəti şəklində, ifadə etdiyi məna baxımından, oxucunun diqqətini əvvəlcədən hekayənin ümumi məzmununa, ideyasına yönəldə bilir:

*Əzizim Vətən yaxşı,*
*Geyməyə kətan yaxşı.*
*Gəzməyə qərib ölkə,*
*Ölməyə Vətən yaxşı.*

Müəllif bayatıya müraciət etməklə mədəniyyət və tariximizə bağlılığımızın dərk edilməsinin təzahürünü əks etdirmişdir. Fərəc Fərəcov istifadə etdiyi bayatılarla etnik ruhumuzu yaşatmağa nail olur.

Fərəc Fərəcov hekayələrində də kompozisiyanın ünsürlərindən biri olan peyzajdan məharətlə istifadə etmişdir. "Torpaq" hekayəsində bunu müşahidə etmək mümkündür: "Bir qədər əvvəl başlamış yay yağışı təzəcə kəsmiş, buludlar birdənbirə yoxa çıxmışdı. Səma aydınlaşmışdı. Şəhərin başı üzərində qızmar günəş parlayırdı. Onun şəfəqləri ağacların yarpaqlarında muncuqlaşmış mirvari damlalarda, yağış suyunda yu-

---

[62] F.Fərəcov. Hekayələr. Naxçıvan, "Əcəmi", 2007, 96 səh., s.39

yunmuş küçə və meydançalarda bərq vururdu. Şəhər yağışdan sonra necə də gözəl və cazibəli olmuşdur".[63]

Ədəbiyyatda təbiət təsviri anlamında işlədilən peyzajın təsvirinə Fərəc Fərəcovun "Yolda qəza" hekayəsində də rast gəlinir. Müəllifin təsvir etdiyi təbiət təsviri müəllif fikrinin anlaşılmasına yardımçı olur: "Yayın oğlan çağında belə, zirvələri qardan əskik olmur. Lap yuxarıdaca, qəlbi dağların əhatəsində bir göl uyuyur. Suyu diş dondurur, barmaq kəsir. Bu yerdə təbiətin iki fəsli qoşalaşıb. Bir tərəfində yay, bir tərəfində qış".[64]

F.Fərəcov qələmə aldığı bədii əsərlərində varvarizmlərə müraciət etmişdir. Müəllif qələmə aldığı obrazı canlı təsvir etmək üçün alınma sözlərə müraciət etmişdir. "İmportnudur" miniatüründə müəllif "importnudur" sözünü həm başlığa çıxarmış, həmçinin də mətn daxilində istifadə etmişdir: "Gənc qadın mağazada yerli müəssisələrin istehsal etdiyi ayaqqabılara diqqətlə baxır. Bunu duyan "arif" satıcı – "***İmportnudur***!" deyə ayaqqabını qadına uzadır.

"***İmportnu***" sözünü eşidən qadın:

- Aha... Mən elə bunlardan axtarırdım, – deyə sevincək ayaqqabıları alıb gedir".[65]

"Zona müxbiri" adlı hekayəsində müəllifin "bazarkom", "aformut" kimi varvarizmlərdən istifadə etməsi diqqətdən yayınmır: "...Şəhər bazarının müdirinə xox gəlib, nə qədər pul, mer-meyvə alıb, üstəlik kişini də təhqir edib... Sonra da əlinə döndüyüm ***bazarkom*** götürüb bir zırımpa məktub ***aformut*** edib".[66]

"Abidə" hekayəsində vulqarizmə müraciət edən müəllif fikirlərini çılpaqlığı ilə çatdırmaq üçün müraciət etmişdir:

---

[63] F.Fərəcov. Hekayələr. Naxçıvan, "Əcəmi", 2007, 96 səh., s.18
[64] Yenə orada, s.24
[65] Yenə orada, s.74
[66] Yenə orada, s.14

"Balalarımıza çörək, yavanlıq lazımdır - deyərdi - əsgərlərimizin dizləri taqətli, qolları qüvvətli olmalıdır ki, Hitler ***köpək oğluna*** yaxşı divan tuta bilsinlər".[67]

Fərəc Fərəcov qələmə aldığı hekayələrinin dilində dialektizmlərə geniş yer vermişdir. Bu da yazarın, xalq-adət ənənələrinə sadiqliyindən irəli gəlməklə yanaşı dərindən bələd olmasının göstəricisidir. Dialektizmlər yazarın qələmə aldığı hekayələrin dilinə ağırlıq gətirmir, əksinə əsərdə təsvir edilmiş qəhrəmanın dilini zənginləşdirir. Fərəc Fərəcovun "Sən öl" əhvalatı" hekayəsində istifadə etdiyi "***arıtladı***" sözü dialekt söz olmaqla təmizləmək, yaxşısını pisindən, irisini xırdasından ayırmaq; dənləmək mənasını bildirir: "Təbdən çıxmış Gülbala yazıq mühəndisi yuyub ***arıtladı***".[68] Bu hekayədə müəllifin istifadə etdiyi ***"andıra qalmış"*** ifadəsi də dialektizmdir. Ədəbi dildə işlənməyən, lakin bədii əsərlərin və adi danışıq dilində istifadə edilən "***andır***" sözünün əsl mənası sahibsiz, yiyəsiz mal, ölən bir şəxsin qohumlarına irs qoyub getdiyi mal, əşya bildirir: "Daha o vaxtdan heç kim Gülbalanın yanında ***andıra qalmış*** "sən öl" ifadəsini dilinə gətirə bilmirdi".[69] "Uşağa Azərbaycan adı qoymaq istəmirdi. Ancaq ***qırımımı*** bərk görüb razı oldu"[70] cümləsində "***qırımımı***" sözü görkəm, təhər-töhür, görünüş, hal, əhval, tövr mənasında işlədilmişdir. Xalq danışıq dilində rast gəlmək mümkündür. "Bir ***yaxama*** bax, gör necə medal asmışam. İndicə iclasda veriblər"[71] cümləsindəki "***yaxa***" sözü sinə, döş mənalarında işlənilmişdir.

Fərəc Fərəcovun hekayələrində obrazlar qalereyası zəngindir. Biz müəllifin həyat hadisələrini obrazlar vasitəsilə əks etdirməsinin şahidi oluruq. Müəllifin obrazları həm məhdud, həm də geniş mənada istifadə edilərək təqdim edilməsinin şa-

---

[67] F.Fərəcov. Hekayələr. Naxçıvan, "Əcəmi", 2007, 96 səh., s.28
[68] Yenə orada, s.33
[69] Yenə orada, s.33
[70] Yenə orada, s.20
[71] Yenə orada, s.13

hidi oluruq. Hekayələrdə konkret bir şəxsin həyatını əks etdirən hekayələrdə məhdud obrazlarla rastlaşırıq. Fərəc Fərəcovun geniş mənada təqdim etdiyi obrazlara əşya surəti, təbiət surəti və s. daxildir. F.Fərəcovun qələmə aldığı obrazlar müsbət və mənfi obrazlar kimi də hekayələrdə özünü göstərməkdədir. Müsbət obrazlar içərisində ana obrazının ölməzliyi və aliliyi diqqətdən yayınmır.

"Günəş" hekayəsində müəllif sinəsi nakam övlad itkiləri ilə dağlanmış ananın tək qalmış övladı üçün yaşamaq istəyini əks etdirən fədakar ana obrazını yaratmışdır. Əsmər xalanın bu amal uğrunda yaşamaq istəyi obrazın öz dili ilə açıqlanır:

"- Yox, yaşamalıyam! Heç olmasa bircə balamı anasız qoymamaq üçün yaşamalıyam, - demişdi. – Qardaşsız, bacısız, atasız qızımın barı anası olsun..."[72]

"İki damla göz yaşı" hekayəsində də üç ilin gəlini olmuş Qönçənin ana obrazı canlandırılmışdı. "Ərə getməyəcəyəm, oğlumu böyüdəcəyəm" deyən gənc ananın ömrünü oğlunun böyüməsinə həsr etməsinin fədakarlığı əksini tapmışdır. Hətta gənc ananın ona evlənmə təkliflərini ilk məhəbbətini təhqir kimi qəbul etməsi sevgisinə sədaqətinin göstəricisidir: "Qönçə üzünü acıqla yana çevirib yoluna davam etsə də, Mədəd onu qabaqladı, qarşısını kəsdi:

- Nə deyirsən? Axı səni sevirəm!

Bu sözlər Qönçənin yaralı ürəyinə ox oldu, içini göynətdi. İlk məhəbbətini təhqir olunmuş sandı".[73]

"Abidə" hekayəsində də iki oğulunu itirmiş Səlbi nənənin iztirabları əksini tapmışdır. Oğulları Sədrəddin və Əliəddinin "müharibə qurtarası nə öldüləri bəlli idi, nə itdiləri". Bu ağır dərd ilə həyat eşqini itirməyib, iki cüt balasının yolunu gözləyən ananın ümidləri təsvir edilmişdir. Müharibədə övladlarını itirmiş anaların keçirdiyi sarsıntı və iztirablar ümumiləşdiril-

---

[72] F.Fərəcov. Hekayələr. Naxçıvan, "Əcəmi", 2007, 96 səh., s.6

[73] Yenə orada, s.11

miş şəkildə Səlbi nənənin obrazında əksini tapa bilmişdir. "Abidə" hekayəsində daşlaşmış abidədə tarixin yaşaması ilə yanaşı, ananın da ümidlərinin yaşaması özünü göstərə bilmişdir:

"- Sədrəddin! .. Yox, Əliəddin lap özüdür... Axır ki, gəldiniz, gəldiniz yurdunuza mənim balalarım..."[74]

"Torpaq" hekayəsində müəllif qürbətdə ömür sürmüş, Vətən həsrəti, nisgililə yaşayan insanın obrazını yaratmağa nail ola bilmişdir. Fəzail Qafaralı oğlu Məmmədov müharibəyə gedən, vətənə qayıda bilməyən insanların ümumiləşdirilmiş obrazı kimi təqdim edilir. Qürbətdə yaşayan Fəzailin simasında "qərib" yaşayan insanın kimsəzisliyini, tənhalığını açıqlayan müəllif bunu ümumiləşdirilmiş obraz kimi təqdim edə bilir. Qərib olan bütün soydaşlarımızın ümumiləşdirilmiş obrazı kimi bu insanların taledən asılı olmalarını da qabarda bilmişdir. Fəzaili başqa aləmin nümayəndəsi kimi təqdim edən yazıçı sakral kontekstdə qərib kimi təqdim edir. Obrazın özü isə nə öz doğma torpağında, nə də başqa, yad torpaqda sabit məkanı olmayan obraz kimi canlandırılmışdır. Fəzailin yaşadığı məkanda yaşamağa can atan insanlardan fərqli olaraq, Fəzail Vətəndən uzaqlarda özünü bədbəxt hiss edir. Ailəsi olsa da özünü tam, bütöv görmür, özünü yarımçıq insan hesab edir. Müəllif bu obraz vasitəsilə "qərib" olmanı təklik və tənhalıqla eyniləşdirə bilir.

"Sən öl" əhvalatı" hekayəsində müəllif "sən öl" ifadəsinin işlətməklə Gülbalanın komik obrazını yarada bilmişdir. "Sən öl" əhvalatı" hekayəsində istifadə edilən "sən öl" ifadəsi Azərbaycan dilində, əsasən, qarşısındakı insanı danışdıqlarına inandırmaq üçün istifadə edilən sözlərdən biridir. Fərəc Fərəcov hekayədə bunu komik vəziyyət yaratmaqla açıqlaya bilmişdir. Mühəndisin istifadə etdiyi "sən öl" ifadəsinə cavabı yumor yaratsa belə, acı həqiqəti əks etdirə bilmişdir:

---

[74] F.Fərəcov. Hekayələr. Naxçıvan, "Əcəmi", 2007, 96 səh., s.30

"Deyirəm ki, ədəbsiz! Mədəniyyətsiz! Elə "sən öl"lərsiz də havanın necə olacağını, işlərin necə gedəcəyini mənə çatdıra bilərdin... Heyif... Heyif! Başına dəysin o diplomun... Sənə əvvəlcə ədəb qaydaları haqqında diplom gərəkdi... Sonra isə...Tfu!"[75]

Fərəc Fərəcov "Alim etmək istəyirdi" hekayəsində qələmə aldığı obrazın mənəvi aləmini bədii dillə yaratmağa nail ola bilmişdir. Bu atası tərəfindən zorla alim olmağa yönləndirilmiş şəxsin daxili iztirabları ilə yanaşı, zor gücünə alim olmaq istəyən şəxsin obrazının təqdim edilməsi maraq doğurur: "Otur işlə, Yeməyini də buraya gətirərik. Sən hansı alimdən əskiksən. Maşallah, boy səndə, yaraşıq səndə, qıvrım saçlar səndə".[76] Müəllifin obrazı bu cür təqdimində biz obrazın xarici görünüşünün sözlə ifadəsinin şahidi oluruq. Obrazın boyu, görünüşünün yaraşıqlı olması, saçının qıvraq olmasını, bir sözlə xarici görünüşü ilə tanış oluruq.

Fərəc Fərəcovun nəsrində hekayələr, miniatürlər, qabrovosayağı miniatürlər janr baxımdan fərqlənirlər. Miniatür dedikdə biz ilk növbədə qədim əlyazmalarında, kitablarda incə, rəngli şəkil və ya bəzəkli iri hərfləri yəni yazıları xatırlayırıq. Miniatür deyildikdə həmçinin, zərif işlənmiş kiçik rəsm, şəkilləri, kiçik ədəbi və ya musiqi əsəri, kiçik və incə (zərif) əşyaları nəzərdə tuturuq. Müəllifin istifadə etdiyi miniatür adı altında biz kiçik ədəbi əsərləri nəzərdə tutmalıyıq. "Qıza oxşadırsan", "Onun yanından gəlirəm", "Təzə işçilər", "İçkinin təsiri", "Qoy bülletenə baxım", "Arvadın cavabı", "Sən çıxanda", "Eybəcərləşirsən", "Bizimki tutmaz", "Rast gəldiniz", "İstəmirəm zibilləyim", "Müdirin danlağı", "Sözünü dəyişən oğlan", "Müdiriniz bilsə...", "Yaxası qurtarardı", "Əsl azarkeş", "Ərizəbaz", "Düz gəlmir", "Güclə aldım", "İmportnudur", "Xasiyyətin sükanı", "Təngə gəlməyimlə", "Belələrini

---

[75] F.Fərəcov. Hekayələr. Naxçıvan, "Əcəmi", 2007, 96 səh., s.33

[76] Yenə orada, s.37

xoşlayır", "Sərxoş", "Dostunun cavabı", "Yaxşılıq", "Professorun bacısı oğlu", "Çeynənmiş sözlər" və s. miniatürləri satirik və yumoristik dillə qələmə alınmışdılar. İctimai-sosial, ailə problemlərinə aydınlıq gətirən miniatürlər bu problemləri sarkazmla canlandırmağa nail ola bilmişdir. Məsələn. "Arvadın cavabı" miniatüründə biz pullu, vəzifəli kişinin qızı ilə evlənən şəxsin ironik dillə vəziyyətinin açıqlanmasının şahidi oluruq:

Ər peşimançılıqla;

- Axı o vaxt mənim ağlım harada idi ki, səninlə evləndim?

Arvad cavabında:

- Ağlının harda olduğunu deyə bilmərəm, amma özün atamın rəis olduğu idarədə kiçik bir vəzifədə çalışırdın..."[77]

F.Fərəcovun "Müdiriniz bilsə..." miniatüründə az sözlə çox məna ifadə edilmənin bir daha şahidinə çevrilirik. Ədib içkinin həddən artıq qəbul edilməsini tənqid etməklə yanaşı, bunu ironik dillə təsvir etməyə nail ola bilir: "Bir nəfər yaxın adamını sərxoş görüb narahatlıqla deyir:

- İş vaxtı belə içmək yaramaz. Müdiriniz bilsə...

- Müdiri indicə özüm birtəhər evlərinə çatdırmışam..."[78]

Müəllif satirik dillə iş başında içki qəbul edən səlahiyyət sahiblərini tənqid edə bilmişdir.

Fərəc Fərəcov "Qabrovosayağı miniatürlər" başlığı altında verdiyi "Balta", "Simic ər-arvad" miniatürlərini qabrovosayağı qələmə almasına işarə edir. Belə ki, Qabrovo Bolqarıstanın mərkəzində yerləşən balaca şəhərdir. Buranın əhalisi də Şəki, Nehrəm və başqa yerlərin əhaliləri kimi qeyri-adi məzəli hadisələri, gülməcələri yaratmağı sevmişlər. Bu baxımdan, "Qabrovo lətifələri" adı altında dünyaya məşhur olan bu nümunələr qısa, lakonikliyi, qeyri-adi, məzəli sonluqla bitmələri ilə seçilirlər.

---

[77] F.Fərəcov. Hekayələr. Naxçıvan, "Əcəmi", 2007, 96 səh., s.69

[78] Yenə orada, s.72

Müəllifin "Balta" miniatürünün yalnız sonluğu məlum lətifənin sonluğundan fərqlənir. İctimaiyyətə məlum olan "Ata oğluna deyir:

- Get qonşudan bir balta al.

Uşaq əli boş qayıdıb atasına baltanı vermədiklərini söyləyir.

Ata da oğluna:

- Nə xəsis qonşularımız var, get öz baltamızı gətir..." lətifəsinin sonluğunda işlənilmiş "Nə xəsis qonşularımız var, get öz baltamızı gətir..." lətifəsi ilə Fərəc Fərəcovun "Balta" miniatürünün mövzusu arasında oxşarlıq var:

"Ata oğluna:

- Get qonşunun baltasını al, odun doğrayaq.

Oğlu gedir. Bir azdan əliboş qayıdıb - "vermədilər" – deyir.

- Ax! Belə də qonşuluq olar?! Di onda öz baltamızı gətir, deyə ata narazılığını bildirir".[79]

Müəllifin miniatür kimi təqdim etdiyi "Balta" lətifə janrında qələmə alınmış nümunədir. Bu həmçinin "Simic ər - arvad" miniatür əsərinə də aiddir.

Fərəc Fərəcovun "Sən öl" əhvalatı", "Təzə direktor", "Alim etmək istəyirdi...", "Kin dağarcığı", "Gülbikənin təndir əsərində", "Böyük alimin qardaşı", "Qonaqlıq", "Televizor əhvalatı", "Axı sən nə etmisən", "Təsadüf", "Saatsaz və müştəri", "Nisyə mal", "1 qəpik", "Yeni il axşamında", "Dərdin böyükdür" kimi hekayələri "satira və yumorlu hekayələr" kimi təqdim edilmişdilər. Bu da ədibin hekayələrində satira və yumor elementlərinin əlavə edilməsi fonunda onların məzmununun satirikləşməyə və ya yumoristikləşməyə məruz qalması baş verir. Satira hekayələrdə özünü kəskin şəkildə göstərə bilir.

---

[79] F.Fərəcov. Hekayələr. Naxçıvan, "Əcəmi", 2007, 96 səh., s.84

Fərəc Fərəcovun hekayələrində nəsrlə nəzmin qarışmasını müşahidə etmək olar. Ədibin "Cavabsız sevgi" hekayəsində nəzm parçasının əlavə edilməsi kiçik nəsr janrı olan hekayə ilə nəzm janrı olan şeirin qarşılığı ilə təqdim edilməsi maraq doğurur. Kənddən sevgi məktubu alan gəncin keçirdiyi iztirablar və məktuba cavab yazmamasının təsvir edilməsi özünü göstərir. Cavab yazmamaq elə sevgi məktubu yazan qızın istəyi kimi də dəyərləndirilməlidir: "Sevmirsənsə, cavabın da gərək deyil, sus... cavab vermə. "Yox" sözünü nə görüm, nə eşidim. Heç olmasa düşünün ki...

Nöqtələrdən xeyli aralı isə aşağıdakı sətirləri oxudum: - And verirəm o bir Allaha, məktubum cavabsız qalacaqsa, yandır onu.... Qoy nöqtə, vergülünədək alovlansın. Kimsə xəbər tutmasın ondan."

"Cavabsız sevgi" hekayəsində təqdim edilən nəzm nümunəsinin müəllifi elə Fərəc Fərəcovun özüdür. Yəni şeirin müəllifi başqa bir şair deyil:

*...Dəhşətli fikrə daldım,*
*Sanki birdən qocaldım.*
*Nə deyim, nə yazım mən*
*Boğdu məni duman, çən".*

Fərəc Fərəcov yazılmış sevgi məktubuna niyə cavab verməməsinin səbəbini qələmə aldığı nəzm nümunəsi ilə cavablandıra bilir. Şeiri oxuyan oxucu artıq müəllifin hekayədə yazılan sevgi məktubunu cavabsız qoymasını anlaya bilir:

*Yaxşı-yaxşı qulaq ver,*
*Mənə özün də haqq ver.*
*İlk sevgimi dərmişəm,*
*Ürəyimi vermişəm.*
*Nə deyim indi sənə,*

*Bağışla dönə-dönə,*
*Bağışla dönə-dönə.*

Bu şeirdəki fikirlər gəncin ilk sevgisinə sadiqliyini göstərdiyi kimi, əxlaqi dəyərlərə yüksək dəyər verən bir insan kimi canlandırılmışdır.

### *§2. Fərəc Fərəcov yaradıcılığında povest*

Fərəc Fərəcovun bədii yaradıcılığında povest janrına müraciət etməsi də diqqəti cəlb edir. Povestdə təsvir edilən hadisələrin bir neçə xətlə inkişaf etməsi, həyat hadisələrinin əhatə dairəsinin geniş, surətlərin təsvirinin daha dolğun olması özünü göstərir. Müəllifin qələmə almış olduğu "Zülmətdə işıq" povesti on gecə və "Son və ya açılan səhər" hissələrindən ibarətdir. "Zülmətdə işıq" povesti bir yox, bir neçə əhvalatdan, hadisədən bəhs edir. Povestdə təsvir olunan surətlərin say çoxluğu da diqqəti cəlb edir.

"Zülmətdə işıq" povestinin problematikasını 85 yaşlı erməni Asaturun nəvələrini başına yığıb 10 gecə müxtəlif hadisələr danışması təşkil edir. Müəllif povestin əsas iştirakçısı olan Asaturun ətrafında cəmləşən nəvələri ilə təsvir edə bilir. Hər gecə danışdığı hekayə mövzu baxımından aktuallıq kəsb edir. Müəllif təsvir etdiyi hadisələrin əhatə dairəsini geniş, surətlərin təsvirini dolğun və təfsilatlı verməyə nail olmuşdur. Fərəc Fərəcov fövqəladə qəhrəmanlar təsvir etməyə cəhd etməyərək əhvalat və hadisələrin əsas iştirakçısının, yəni Asaturun həyatının bütöv bir dövrünü, bu dövrün hadisə və əhvalatlarını, həmçinin ictimai adətləri əks etdirmişdir.

Nizami Gəncəvinin "Hər ümidsiz işdə xeyli ümid var, Qaranlıq gecədən ağ səhər doğar" aforizminə əsaslanaraq qeyd etməliyik ki, müəllif, Asaturun gecə söhbətlərindən həqiqətlərin üzə çıxacağını nəzərə alaraq həmin söhbətləri on gecədə

vermәyә cәhd etmişdir. Fәrәc Fәrәcov bu on gecәdә nәql edilmiş hadisәlәri incәliklә açıqlamağa nail ola bilmişdir. Birinci gecәdә Asaturun nәvәsi 12 yaşlı Arnonun babasına ünvanladığı sual onların özlәrini bir millәt kimi görә bilmәmәlәri, özlәrindә millәt olmalarına şübhә yaranması faktı qabardılmışdır: "Baba, birinci elә mәni başa sal görüm biz kimik? Tayfayıq, millәtik, ya nәyik? Hәrә bir söz deyir. Bilmirsәn kimә inanasan... başqa sualım da belәdir: biz nә zamandan yer üzündә yaşayırıq?"[80]

Asaturun nәvәlәrinin verdiyi sualları cavablandırarkәn verdiyi cavab da onların öz mәnәvi dünyalarının iç üzünü açmağa yardım edir: "...Elә fikriniz qaçmaq yanındadı. Bu acizliyimizdir. Yurd-yuva qurmaq, aza qane olub bir guşәdә tab gәtirib qalmaq bizlәrә çox yaddır. İyrәnc şakәrimizdir ki, günümüz dünyanın harasında xoşdu, oranı qamarlayıb özümüzünkü bilәk, әsl vәtәn haqqında düşünmәyәk".[81]

"Zülmәtdә işıq" povestinin әsas problematikasında Asaturun dililә onların öz ölkәlәrinin, hәtta tarixlәrinin olmaması amalına aydınlıq gәtirilmәsidir. Nәvәsinin "әsl yerimiz, yurdumuz hara olub?" sualını tam cavablandıra bilmәyәn Asatur mәhz lamәkan olmaları faktını tәsdiq etmiş olur. Bu Asaturun fikirlәrindә әksini tapmışdır: "...İz salmadığımız mәmlәkәt qalmayıb. Avropadan, Amerikadan üzü bәri hәr yerdә varıq. Deyilәnә görә İraqın Dәclә, Fәrat çayları boyunca düşәrgәmiz olub. Balkan torpaqlarında da boy verib çoxalmaq istәmişik. Türkiyә, İran, Suriya, Livan... saymaqla qurtaran deyil qaldığımız yerlәr. Qısası әcdadlarımız pәrәn-pәrәn düşüb hәr yerdә tәk-tük yaşayırlar".[82]

Povestdә aktual problemlәrdәn biri dә etnik, irqi, dini vә ya milli qrupun düşünülmüş vә sistematik şәkildә tam vә ya

---

[80] F.Fәrәcov. Zülmәtdә işıq // Cavabsız sevgi. Bakı, 2017, 152 sәh., s.99
[81] Yenә orada, s.100
[82] Yenә orada, s.103

qismən məhv edilməsini əks etdirən soyqırım məsələsinə aydınlıq gətirilməsidir. Marqonun "...Onlar bizi soyqırım ediblər. Milyon yarım erməni qırıblar" fikrinə etiraz edən Asatur gizlədilən həqiqətə aydınlıq gətirmişdir. Soyqırımın türklər tərəfindən deyil, məhz ermənilər tərəfindən törədilməsi qabardılmışdır. Asatur soyqırımı bütün dünyaya sırımaq istədikləri bir yalan olmasını öz dili ilə səsləndirir: "...Öldürməyiblər! Bizim namərdlər qırıb-çatıb onları. Əsl soyqırımını da ermənilər törədib".[83]

Fərəc Fərəcov ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımlara da aydınlıq gətirmişdir. Həmin qanlı tarixləri Asaturun dili ilə verməyə cəhd etmişdir: "Dinc, günahsız insanları küll halında qətlə yetirmək sivil bəşəriyyətin qəbul etmədiyi soyqırımdır. Belə qanlı hadisələr 1905, 1918-ci illərdə çox geniş miqyasda olmuşdur. Ən faciəli soyqırım onların mərkəzi şəhərində – Bakıda törədilmişdir. 1918-in 31 martında. Həmin vaxt on mindən artıq müsəlman əhali qətlə yetirilmişdir. Hələ bu harasıdır. O zaman ətraflarda da qan su əvəzinə axmışdır".[84]

Fərəc Fərəcov 1988-ci ildə iki yüz mindən artıq azərbaycanlının son nəfərinədək doğma torpaqlarından qovulması, didərgin salınması faktına aydınlıq gətirmişdir. Həmin hadisələrdə 70 türk uşağının başına gətirilmiş faciə tarixin reallığı kimi povestdə də əksinin tapa bilmişdir: "Məhv edilən, ölən, itən saya-hesaba gəlmədi. ...Həmin vaxtlarda 70 türk uşağını dəmir borulara doldurub ağızlarını qaynaqladılar".[85]

"Zülmətdə işıq" povestində müəllifin istifadə etdiyi epiqraf humanist düşüncə tərzini əks etdirməsi baxımından diqqəti xüsusi olaraq cəlb edir: "Ermənilərin xoşbəxt gələcəyi yetirdikləri işğalçılıq siyasətinin və "Böyük Ermənistan" adlı sər-

---

[83] F.Fərəcov. Zülmətdə işıq // Cavabsız sevgi. Bakı, 2017, 152 səh., s.109
[84] Yenə orada, s.114
[85] Yenə orada, s.119

səm düşüncələrini ayaqları altına atıb xıncım-xıncım tapdamalarından keçir.

Sadə və sağlam əqidəli ermənilərə
Hörmətlə:
Müəllif".[86]

Fərəc Fərəcov "Zülmətdə işıq" povestində nəql etdiyi hadisələrin inkişafını müvəqqəti olaraq dayandırır. Bundan sonra maraq kəsb edən məsələyə münasibətini bildirir. Lirik ricətdə müəllif Asaturun oğlu Karlenin vaxtsız ölümü ilə bağlı atanın hiss – həyəcanlarını, ikinci oğlu Horenin Rusiyaya qazanc dalınca getməsini oxucularla bölüşür: "Oğlunun ölümü maddi sıxıntılar məngənəsində əriyən babaya mənəvi bir əzab da gətirmişdi. Niyə öldü? Kimin, nəyin yolunda qurban getdi bədbəxt! Axı niyə belə olmalıydı..."[87] Müəllif "bir çimdik haşiyə:" ilə verdiyi lirik ricəti "nə isə, söhbəti uzadıb sizi yormayaq. Buradaca haşiyəmizə nöqtə ataq. Keçək gecənin növbəti mövzularına"[88] deyərək lirik haşiyənin bitməsini bildirərək, növbəti mövzuya keçməsini də vurğulamışdır.

Fərəc Fərəcov "Zülmətdə işıq" povestində kompozisiyanın ünsürlərindən biri olan peyzajdan da istifadə etmişdir. Peyzajdan istifadə əsərin epiloqunda verilmişdir: "Qara - boz buludlar dağların arxasında təzəcə boylanan günəşə qısqanclıq göstərirdi. İstiqaməti bəlli olmayan külək seyrək düşən yağış dənəciklərini ünvanından sapdırır, elədən belə, belədən elə çırpırdı".[89]

Fərəc Fərəcov "Zülmətdə işıq" povestində qələmə aldığı epiloqu "Son və ya açılan səhər" adı ilə təqdim etmişdir. Müəllif "Zülmətdə işıq" povestində qaldırdığı məsələləri yekunlaşdırmağa nail ola bilir. On gecədən sonra Asaturun ölməsi

[86] F.Fərəcov. Zülmətdə işıq // Cavabsız sevgi. Bakı, 2017, 152 səh., s.96
[87] Yenə orada s.126
[88] Yenə orada, s.127
[89] Yenə orada, s.143

epiloqda təsvir edilmişdir. Lakin epiloqun Asaturun ağ qiyafətdə nəvəsi Aramın yuxusuna girməsi və nəvəsinə söylədikləri povesti yekunlaşdırır: "...Buralarda yaxşıya, pisə qiymət verilir. Sizsə möhkəm durun, iradəli olun. Sözümüz sözdür!"[90] Müəllif axirət dünyasında da bütün yaxşı və pis əməllərin dəyərləndirilməsi amilini vurğulamışdır.

Fərəc Fərəcov "Zülmətdə işıq" povestində bədii təsvir və ifadə vasitələrindən istifadə etmişdir. Müəllif povestdə emosional təsiri artırmaq üçün fikirlərini sual tərzində də təqdim etmişdir. Sual şəklində ifadə olunan sualların bəzilərinə müəllif cavab verirsə, bəzi suallar cavablandırılmamış şəkildə qalmışdır. Verilən suallarda hansısa məlumatı dəqiqləşdirmək üçün cavab alınmırsa artıq müəllifin bədii suala müraciət etməsini görürük. Bədii sual adi qrammatik sualdan fərqli olaraq, cavabı tələb olunmayan, cavabsız sualdır: "...De görək necə yaranıb bizim ölkəmiz?" sualı cavabsız qalır. Asatur nəvələrinin bu sualına cavab verə bilmir. Ancaq sualın cavabı da sualdan bəllidir. Yəni, ölkə olmalıdır ki, onun da yaranma tarixi olsun. Olmayan bir ölkənin nə tarixi?

Müəllif povestdə bədii təzaddan da istifadə etmişdir. Belə ki, məzmunca bir - birinə zidd iki anlayışı və ya vəziyyəti qarşılaşdıran müəllif fikirlərini müqayisəli şəkildə verməyə cəhd etmişdir: "Əsl yerimiz, yurdumuz hara olub?" – Baba nəvəsinin sualını təkrarladı. - ***Əslində dünyanın hər yeri. Həm də heç yeri***".[91] "Əslində dünyanın hər yeri. Həm də heç yeri" deyən müəllif bir-birinə zidd iki vəziyyəti qarşılaşdıraraq kontrast yarada bilmişdir. Yəni, dünyanın hər yerini özünə yer, yurd bilən Asatur həmçinin heç yeri də özünə yurd bilmir.

"Zülmətdə işıq" povestinin obrazının dilində işlənmiş terminlərə müəllif tərəfindən aydınlıq gətirilməsini də müşahidə etmək olar. Terminin işlənməsi zəruriyyətdən yaranır. Müəlli-

---

[90] F.Fərəcov. Zülmətdə işıq // Cavabsız sevgi. Bakı, 2017, 152 səh., s.145

[91] Yenə orada, s.103

fin istifadə etdiyi termin obrazın səviyyəsi, daha doğrusu obrazın təqdimatı ilə bağlıdır. Məsələn, Asaturun aborigen xalqı sıxışdırıb, onların torpaqlarını mənimsəmələri faktını açıqlayarkən, aborigen terminini müəllif izah etmişdir. Nəvəsi Marqonun "Aborigen nədir ay baba?" sualına cavab verən Asaturun cavabı ilə Fərəc Fərəcov bir müəllif kimi "aborigen" termininin izahını vermişdir: "Aborigen bu torpaqların əzəli sahibi olan yerli xalqa deyirlər. Ermənilərin süni düşmən obrazı yaratdığı azərbaycanlılar bu yurdun qədim sahibləriydi. Yəni aborigenlərdi..."[92]

Həqiqətdə də aborigenlər müəyyən ərazidə qədimdən məskən salmış yerli əhali adlanır. Ancaq, aborigen deyildikdə, ağıla gələn Avstraliya, Tasmaniya və bu bölgədəki digər adalarda yaşayan yerli əhali olur. "Aborigen" bu xalqın varlığına dair məlumatı əks etdirən sözü əks etdirir. Qeyd etmək lazımdır ki, aborigenlər qəbilə ictimai quruluşunda yaşayır. "Koori", "Murr", "Anangu" tayfaları kimi aborigen tayfalar mövcuddur.

Fərəc Fərəcovun "Zülmətdə işıq" povestində hər bir hadisə yaradıcı şəkildə bədii obraz kimi özünü göstərə bilir. Povestdə bu və ya digər əşyanı, təbiət hadisələrini və s. təsvir etmək üçün müəllif cansız əşyaların əlamətlərinin ümumiləşmiş təsviri olan "əşya obrazı", müəyyən bir yerin, ölkənin təsvirini verən "təbiət obrazı" və s. kimi təqdim edir. Qeyd etmək lazımdır ki, bədii təsvirin mərkəzində insanla yanaşı, digər əşya və hadisələr də dayana bilər. Bəzən bu əşya və hadisələrin təsviri insanla sıx bağlı olur, insanın hansı məkan və zamanda olmasını açıqlayır. Bəzən də bədii təsvirin heç insanla əlaqəsi belə olmur. Əşya obrazı, həmçinin təbiət obrazı təsvir edilən qəhrəmanın xarakteri ilə bağlı olur.

Bu kontekstdə, L.A.Şestakın obrazlar təsnifatı xüsusi əhəmiyyət kəsb edir. L.A.Şestak obrazları mikroobraz, makroob-

---

[92] F.Fərəcov. Zülmətdə işıq // Cavabsız sevgi. Bakı, 2017, 152 səh., s.104

raz, meqaobraz kimi bölgülərə bölür. "Mikroobraz" bədii əsərlərin ən kiçik vahidi olaraq, ədəbi dilin ifadəli xüsusiyyətləri ilə əlaqəlidir. "Makroobraz" ifadəsi altında isə ədəbi qəhrəman obrazı başa düşülür. "Meqaobraz" isə bu kainatın dünyanın və insanın obrazıdır. Meqaobraza müəllif yaradıcılığının və ya bütöv ədəbi istiqamət çərçivəsində obrazlar kompleksini təkrar edən motivləri aid etmək olar. Bu təsnifat fransız ədəbiyyatşünaslığına xas təsnifat ilə oxşardır. Fransız ədəbiyyatşünaslığında mücərrəd obraz, ifadəli obraz, əlaqəsiz obraz və plastik obraz seçilir. Mücərrəd obraz ümumi termindir. Mücərrəd obraz dedikdə, varlığın mahiyyətini ifadə edən üsul, əşyaların vəziyyəti, mövcud üsullar başa düşülür. İfadəli obraz isə obyektiv üzərində deyil, subyektiv müqayisədə qurulmuş obrazdır. Əlaqəsiz obraz mürəkkəb, inkişaf etmiş obraz olmalıdır, onun ünsürləri bir araya sığmır və tamamilə bir-biri ilə əlaqəsiz olur. Plastik obraz isə müqayisəni forma əlamətinə görə, kütləsi, ölçüsü və iki əşyanın bölgüsüdür.

Obrazın geniş mənada anlamı fərdi və bəşəri obrazları bir-birindən ayırmasına imkan verir. Fərdi obraz anlayışında müəllif istedadı və təxəyyülünün nəticəsində yaradılmış obrazlar dərk edilir və bu obrazların daxili aləmi, məram və məqsədləri üzə çıxarılır. Bunlar müxtəlif üsullarla həyata keçirilir. Məsələn, bədii əsərlərdə verilmiş dialoqlar vasitəsilə yaranan dramatik və psixoloji vəziyyətlərlə obrazların fərdi xüsusiyyətlərini və daxili aləmini daha qabarıq nəzərə çarpdırmaq mümkündür. Fərəc Fərəcov "Zülmətdə işıq" povestində erməni surəti olan 85 yaşlı Asatur kişinin obrazını yaratmaqla onun dedikləri fikirlərlə, nəvələri arasında olan dialoqlarla obrazların daxili aləmlərini açmağa nail olur. Bu dialoqlar vasitəsilə ermənilərin məram və məqamlarına aydınlıq gətirilir, ermənilərin ümumiləşdirilmiş obrazını görmək mümkün olur: "...nə torpaq, nə sərhəd?! Bizim orada torpağımız var? Özgənin yurd-yuvasına tamah salmağın sonu belə də olmalıydı da" fi-

kirlərində ermənilərin Azərbaycan torpaqlarını ələ keçirmək niyyətləri açıqlanmışdır. Maraqlı məqam odur ki, müəllif erməni surətini onların özlərinin dili ilə açıqlamağa nail ola bilmişdir. Asaturun nəvəsi Arama dedikləri fikirlərdə özününkülərinin, yəni ermənilərin daxili aləmini aça bilir: "Qan eşitcək, dizləriniz əsmə tutur hə... tez qaçmaq haqqında düşünürsünüz. O da ki, bizimkilərin köhnə şakəridir. Di gəl ki, bir vaxtlar əjdahaydıq, günahsız qonşularımızın qanını içməkdən ləzzət alırdıq. Nə uşaq qanardıq, nə də qoca."

Povestdə əksini tapmış surətlər içərisində 85 yaşlı Asatur və onun nəvələri Aram, 12 yaşlı Aron, Marqo, 6 yaşlı Anuş əsas obrazlar kimi özünü göstərməkdədir. Əsərdə epizodik surətlər olmasa da, Asaturun nəql etdiyi hadisələrdə epizodik surətlər özünü göstərməkdədir. Povestdə Quba qəzasında yüz nəfər dinc müsəlmanı diri-diri relslərə bağlayıb üzərindən qatar keçirtmiş Hamazapsın, bir gündə iki min beş yüz azərbaycanlını Yaycıda qətlə yetirmiş Andronikin, ermənilərin qaçaqquldur dəstələrinə başçılıq edən Şaumyanın, erməni soyqırımlarını əks etdirən kitab müəllifi olan vəzifəli rus zabitinin epizodik surətləri əksini tapmışdır. Əsərin mərkəzi xətti ilə əlaqəsi zəif olan bu surətlər təsvir edilmir, adları xatırlanır, onların etdikləri əməllər hadisələrin inkişafına ciddi təsir göstərməsələr də, əsas surət olan Asaturun fikirlərinin açıqlanmasına yardımçı olurlar. Bu surətlər əsərdə əsas surətlər kimi iştirak etməsələr belə, etdiyi əməllərin təsvir edilməsi ilə hadisələri istiqamətləndirməyə nail olur, müəllif fikirlərini oxucuya çatdıra bilir.

Povestdə Əkrəm Əylislinin obrazının verilməsi də diqqəti cəlb edir. Belə ki, Fərəc Fərəcov yazıçının mənfi obrazını yaratmışdır. Bəllidir ki, mənfi obraz deyiləndə əsasən mütərəqqi ideyalara qarşı çıxan, öz şəxsi mənafeyini xalqın, millətin mənafeyindən üstün tutan kəslər nəzərdə tutulur. Fərəc Fərəcov da Əkrəm Əylislinin öz şəxsi mənafeyini milli mənafedən üs-

tün tutmasını qabardaraq qələmə almışdır: "...Əslində o elə bizimkilərin tayıdı. Nankorluq edib. Mən onu Bakıdan tanıyırdım. İfrat dərəcədə məsləksiz, əqidəsiz bir tip olub. Həm də çox iddialıydı. Tamahgirlik, özündən razılıq onu yolundan azdırdı. Bizimkilər yağlı vədlər verib saqqızını oğurladılar. "Daş yuxular" adında kitab yazdırdılar. Elə o cızma-qara ilə də xalqının gözündən düşdü".[93]

## *§3. Fərəc Fərəcov nəsrində böyük janr formaları*

Fərəc Fərəcovun "Aydın sabahlar" və "Ömür bir nağıldır" əsərləri epik növün roman janrında qələmə alınmaları ilə diqqəti cəlb edir. "Aydın sabahlar" romanı üç hissədən, otuz altı bölümdən, "Ömür bir nağıldır" xatirə-romanı isə proloq əvəzi, üç fəsil və epiloq əvəzi və ya son sözdən ibarətdilər. "Aydın sabahlar" romanında müəllif cəmiyyəti düşündürən aktual problemlərə toxunaraq, "ötən əsrin 90-cı illərinə qayıdır, Müstəqilliyimizin ilk illərində bir rayonda baş verən ictimai-siyasi dəyişiklikləri bədii bir şəkildə oxuculara çatdırır".[94] F.e.d., Əməkdar elm xadimi Hüseyn Həşimli Fərəc Fərəcovun yaradıcılığında mühüm yer tutan "Aydın sabahlar" romanının problematikasının əhatə dairəsinin geniş və əhəmiyyətli olmasına" toxunaraq qeyd etmişdir: "Uzunmüddətli yaradıcılıq axtarışlarının bəhrəsi olan "Aydın sabahlar" romanı isə 1980-1990-cı illərin mürəkkəb ictimai-siyasi mənzərəsi, gedən proseslər, xalqın üzləşdiyi çətinliklər, ulu öndərin xilaskarlıq missiyası və s. barədə epik təhkiyənin diqqətəlayiq təzahürü kimi maraq doğurur".[95] "Aydın sabahlar" əsərinin mövzusunun aktuallıq kəsb etməsi danılmazdır. Əsərin mövzusunun müasir

---

[93] F.Fərəcov. Zülmətdə işıq // Cavabsız sevgi. Bakı, 2017, 152 səh., s.128

[94] Asim Yadigar. F.Fərəcov. Elə bağlıyam. Naxçıvan, 2007, 96 səh., s.4

[95] Hüseyn Həşimli. Yaddaş işığı // F.Fərəcov. Ömür bir nağıldır: xatirə-roman. Bakı, "Elm və təhsil", 2014, 184 səh., s.5

dövrlə əlaqəli olması, dövrün mənzərəsini əks etdirməsi maraq kəsb edir: "Aydın sabahlar" romanının mövzusu aktualdır. Müstəqillik qazanmış Respublikanın ilk illərindən bəhs edir. O illərdən ki, hərc-mərclik, rüşvətxorluq, özbaşınalıq baş alıb gedir".[96] "Ömür bir nağıldır" xatirə romanı isə avtobioqrafikliyi ilə diqqəti cəlb edir, müəllifin həyat tarixçəsi ilə bağlı məqamlar oxucuların diqqətinə çatdırılır.

"Aydın romanlar" əsərində kompozisiyanın aydın olması əsərin ideya məzmununu oxucuya çatdırmağa qadir olan mühüm şərtlərdəndir. "Aydın sabahlar" romanı kitabında "Həyatın bədii aynası" adlı önsözündə yazıçı Güllü Məmmədova bir professional yazıçı kimi roman yazmağın çətin bir yol olması faktına toxuna bilmişdir: "Nəsrin ağır və çətin yolu romandan başlanır. İstedadla yanaşı səbr və dözüm, geniş təxəyyül, hadisələrə yazıçı müdaxiləsi, hiss və duyğuların bədii təsviri romançı olmağın əsas şərtidir".[97] Fərəc Fərəcov bir yazıçı kimi bədii əsərdəki hadisələrin inkişafı və əsərin quruluşu ilə bağlı olan süjet və kompozisiyaya riayət etmişdir. Müəllif kompozisiya ünsürlərindən olan peyzajdan, yəni təbiət təsvirlərinə geniş yer ayırmışdır. Elə romanın ilk bölümünün peyzajla başlaması fikrimizdə haqlı olduğumuzu göstərir: "Günün ikinci çağı hava birdən-birə dəyişdi. Rayon mərkəzinin küçə və meydanlarına təndir istisi bəxş edən, adamları ağacların, damların kölgəsinə qaçıran iyun günəşinin üzərini topa buludlar tutdu. Havaya sərinlik gəldi. Ardınca külək, toz-duman başladı və getdikcə şiddətləndi. Toz burulğanları qarşısına keçən adamları görünməz edir, küçələrin zir-zibillərini, "komission" dükanların tullantılarını hara gəldi çırpırdı".[98] Nümunədən göründüyü kimi romanın ideya məzmununun açılmasında peyzajın

[96] Güllü Məmmədova. Həyatın bədii aynası // F.Fərəcov. Aydın sabahlar. Bakı, "Vektor", 2005, 410 səh., s.5

[97] Yenə orada, s.5;

[98] F.Fərəcov. Aydın sabahlar. Bakı "Vektor", 2005, 410 səh., s.9

təqdim edilməsi əhəmiyyət kəsb edir. Fərəc Fərəcov romanda gerçəkliyin düzgün inikasını verməyə qadir ola bilmişdir.

"Aydın sabahlar" romanının ikinci hissəsində də peyzajın təqdim edilməsi diqqəti cəlb edir: "...Naxçıvan çuxurunu dövrəyə alan kiçik Qafqaz sıra dağları da, Araz sahilində göylərə baş çəkən Kəmki də aydınca görünürdü. Lap uzaqlarda hər tərəfi ağ örpəyə bürünmüş Ağrı dağı bu ellərin keşiyini çəkirmiş kimi əzəmətlə dayanmışdı. Tən ortada qara, boz və gümüşü rəngə çalan çılpaq qayalar, dağlar sıralanmışdı. Bütün bunların arasında isə Naxçıvan torpağının az qala hər səmtindən görünən İlanlı dağı vüqar, dəyanət mücəssiməsi idi".[99]

"Aydın sabahlar" romanında müəllif əsərin bədii dilinin ən mühüm tərkib hissələri olan bədii ifadə və təsvir vasitələrindən geniş istifadə etmişdir. F.Fərəcovun istifadə etdiyi məcaz növü olan metonimiyaya diqqət yetirək. Bəllidir ki, metonimiya predmeti bildirən söz, ifadə əvəzinə, həm söz, ifadəylə əlaqədar başqa bir sözün, ifadənin işlədilməsidir. Müəllif də yaradıcılığında olduğu kimi, romanda da bu məcaz növündən istifadə etmişdir: "Durmaq vaxtı deyil. ***Yuxarıdan da gələcəklər***".[100] Nümunədə müəllif "yuxarıdan da gələcəklər" deməklə metonimiya yarada bilmişdir. Fərəc Fərəcov məsuliyyət daşıyan, səlahiyyət sahibi və ya vəzifəsi olan şəxslərin əvəzinə yuxarıdan sözünü işlətməklə addəyişmə etmişdir. Bu addəyişmə yolu ilə məcaziliyə nail ola bilmişdir.

Müəllif romanında epitetlərdən də istifadə etmişdir: "Güləli Səmədov belə düşüncələr içində gecə də yerində qurcalanır, sevindiyindən yata bilmirdi. ***Nəşəli fikirlər*** onu bərk çuğlamışdı".[101] Müəllifin "nəşəli fikirlər" ifadəsi məcazi məna daşıması ilə diqqəti cəlb edir. Bu ifadədə sözə qüvvətləndirici başqa bir sözün – təyinin əlavə edilməsini müşahidə edirik.

---

[99] F.Fərəcov. Aydın sabahlar. Bakı "Vektor", 2005, 410 səh., s.187

[100] Yenə orada, s.9

[101] Yenə orada, s.12

Yazıçı "nəşəli fikirlər" ifadəsi ilə çatdırmaq istədiyi fikri daha qabarıq şəkildə çatdırmaq üçün onu ifadə edən sözə, yəni "fikirlər" sözünə başqa bir təyinedici sözü, yəni "nəşəli" sözünü əlavə edir.

Fərəc Fərəcov məzac növü olan metonimiyadan da "Aydın sabahlar" romanında istifadə etməsilə diqqəti çəkir. Müəllif bu zaman əsərin dilində müəyyən cismi və ya hadisəni bildirən sözün əvəzinə onunla əlaqədar başqa bir sözü işlədir. "***İlanlı"nı*** bəzən "Haça dağ" da adlandırırdılar. Sanki onun göylərə daha yaxın hissəsi ikiyə bölünmüşdü. Bu şiş, sıldırım dağın Qazaxdakı məşhur ***"Göyəzən"ə*** bənzəri var. O da tənhadır, bu da, o da göylərə baş çəkir, bu da... O da gözəldir, cazibədardır, bu da. Tək bircə ayrılıqları var, ***Göyəzən*** yaşıldır, ***İlanlı*** isə çılpaq, boz..."[102] "İlanlı" deyən müəllif "İlan dağı"nı, "Göyəzən" deyəndə isə Kiçik Qafqazın dağətəyi sahəsində, Azərbaycanın Qazax rayonu ərazisində yerləşən, yer səthindən hündürlüyü 250 m, diametri 130 metrdən çox olan ekstruziv günbəz-dağ "Göyəzən" dağını nəzərdə tutmuşdur. Müəllif bu ifadəsində addəyişmə yolu ilə metonimiya yaratmışdır.

Müəllifin bu nümunəsində bədii dilin tərkibində özünəməxsus yer tutmuş dialektizmlərə müraciət etməsini də görmək mümkündür. Müəllif obrazın dilində əbədi dilə daxil olmayan, yalnız müəyyən dar ərazilərdə anlaşıqlı olan sözdən istifadə etmişdir. Müəllifin işlətdiyi "qurcalanır" sözü, daha doğrusu feili qurdalanmaq, yerindəcə tərpənmək, o yan-bu yana çevrilmək mənasında işlədilmişdir.

Fərəc Fərəcov "Aydın sabahlar" romanında sintaktik fiqurlardan da istifadə etmişdir. Məsələn, təsvir etdiyi epizodda emosional təsiri artırmaq üçün obrazın fikrini sual tərzində oxucuya çatdırır. Bu sualda cavab alıb hansısa məlumat aydın-

---

[102] F.Fərəcov. Aydın sabahlar. Bakı "Vektor", 2005, 410 səh., s.187

laşdırılmır. Verilən sual maraq kəsb etsə də, cavabsız qalır: "Axı niyə bu həyatı yaşadım?

Niyə ailəmi dağıtdım?

Niyə bu gün balalarımı atalı ikən atasız qoydum?

Niyə bu gün doğma qardaşım mənə yad gözü ilə baxmalıdır?

Niyə? Niyə? Niyə?"[103]

Fərəc Fərəcov "Aydın sabahlar" romanında atalar sözlərindən də istifadə etmişdir. Onun istifadə etdiyi yığcam və dərin mənalı atalar sözləri hikmətamiz fikirləri ifadə edə bilir: "Bacarana baş qurban", "Bal tutan barmaq yalar", "Uman yerdən küsərlər", "İslanmışın yağışdan nə qorxusu", "Əl əli yuyar, əl də üzü", "Aç sandığı, tök pambığı", "Ziyanın yarısından da qayıtmaq xeyirdir" və s.

Maraqlıdır ki, müəllif bəzi atalar sözlərini dəyişdirilmiş formada təqdim etmişdir. Məsələn, bildiyimiz "köhnə hamam, köhnə tas" atalar sözü "köhnə tas, köhnə dübəkdir" kimi təqdim edilmişdir. Dəyişikliklər tək atalar sözlərində deyil, həm də bəzi əsərlərdə rast gəldiyimiz deyimlərdə də edilmişdir. Məsələn, müəllifin işlətdiyi "Məşədi İbad demişkən yüz cavana dəyərəm" fikri Üzeyir Hacıbəyovun özü tərəfindən "Məşədi İbad: Mən nə qədər qoca olsam da dəyərəm min cavana" kimi təqdim edilmişdir.

Müəllif romanda varvarizmlərdən, vulqarizmlərdən də istifadə etmişdir. Məsələn, "kül o rayonun başına ki, sənin kimi ***piyaniska*** böyüyü var" cümləsində piyaniska sözü ədəbi dilin qəbul etmədiyi əcnəbi sözdür. Müəllif bu sözdən bir priyom kimi istifadə etmişdir. Güləli Səmədovun hamıdan fərqlənən "xüsusiyyətini" göstərmək üçün istifadə etmişdir. Fərəc Fərəcov "piyaniska" sözünü istifadə etməklə bədii dilin tərkibinə aid olan varvarizmdən istifadə etmişdir. "Qışqıraram səsim gəldikcə ki, elə bu "komediyanın" ustası, sənətkarı Hilal ***kö-***

[103] F.Fərəcov. Aydın sabahlar. Bakı "Vektor", 2005, 410 səh., s.95

*pək oğludur*" cümləsində müəllif vulqar sözlər işlətməklə, *"köpək oğludur"* ifadəsilə təsvir etdiyi obrazın mədəni səviyyəsi haqqında təsəvvür yaratmağa nail ola bilir.

Müəllif hətta obrazların dilində vulqarizm işlətdikdə, vulqar sözlə söz deyən insanın mənəvi aləmini aça bilir. Məsələn, Güləli Səmədovun katibəsinə qarşı işlətdiyi *"balqabaqsan, nəsən?"* ifadəsi ilə katibəsini təhqir etmir, başqaları ilə rəftarını, mədəni səviyyəsini göstərir. Gövhərin də nitqində vulqar sözün işlədilməsi onun bir qadın kimi daxili aləmini, mədəniyyətini açıqlayır: "Bu, katibə yox, əsl *qudurmuş itdi, it*... Yan-yörəsini qapır..."

Fərəc Fərəcovun qələmə aldığı "...özü də hələ bura qədər əlavə etdi ki, kim *atqaz* eləsə ərizəsini alın, ötürək bayıra, bizə elə müdir -filan lazım deyil" cümləsində işlətdiyi *"atqaz"* sözü varvarizmdir. "Güləli müəllim *toçno* məruzə edirdi... Hələ Sizin də *adresinizə* artıq-əskik danışırdı" cümlələrində də *"toçno"*, *"adresinizə"* sözləri müəllifin əsərdə istifadə etdiyi varvarizmlərdir.

Müəllif "Aydın sabahlar" romanının əsas qəhrəmanı olan Güləli Səmədovun obrazını oxucunun gözündə tam şəkildə canlandırmağa nail ola bilmişdir. Maraqlısı odur ki, müəllif bu obrazın daxili aləmini onun öz dili ilə açmağa nail ola bilmişdir: "Eh, azmı görmüşəm vəzifə... Mən ki, bunların əsl ustasıyam... Bir də axı ora-bura əl atmasam, iş görməsəm cibə də bir şey girməz. Atalar demişkən, bal tutan barmaq yalar.

Bu atalar sözünə özü də qəribə baxdı: - Yox, mənim işlərim əslində bu atalar sözü ilə uyğun gəlmir. Mən barmaq yalayanlardan deyiləm. Balın hamısını həzm-rəbbedən keçirənlərdənəm. Ona görə də gördüyün işlər ya yarımçıq qalır, ya da axırda bir "əmması" pırtlayır..."[104] Müəllif əsərin qəhrəmanının monoloqu ilə onun daxili aləmini açıqlamağa nail ola bilir. Müəllifin əsas obrazı mənfi obraz kimi təqdim etməsi diqqət-

[104] F.Fərəcov. Aydın sabahlar. Bakı "Vektor", 2005, 410 səh., s.18

dən yayınmır. Əsas obraz əsərin ideyasının əsas aparıcısı, təmsilçisi olduğu üçün biz Güləli Səmədovun obrazında bunu görə bilmirik. Mənfi xüsusiyyətlərinə, şəxsi mənafeyini cəmiyyətin, millətinin mənafeyindən üstün tutan, mütərəqqi ideyalara qarşı mübarizə aparan Güləli Səmədov təsvir olunan hadisələrin mərkəzində durmaqla əsas obraza çevrilmişdir. Yazıçı Güllü Məmmədovanın qeyd etdiyi kimi, "...Güləli Səmədov – harınlamış bu adam bütün əsər boyu görünür".[105] Müəllif Güləli Səmədovun cəmiyyətdə tək olmadığı, onun kimi şəxslərin olmasını da romanda açıqlaya bilmişdir: "Güləli Səmədov – vəzifəyə təsadüfi gəlmiş bu adam özü kimi natəmiz adamları başına toplayır. Mədəd, Hilal, Asif və başqaları".[106]

Fərəc Fərəcovun "Aydın sabahlar" romanı müsbət surətlərdən də xali deyildir. Müsbət surət kimi diqqəti cəlb edən Kamal Muradovun obrazıdır. Müəllif bu obrazın daxili aləmini onun dili ilə söylənilmiş şeirlə aça bilmişdir. Şeirin müəllifinin də Fərəc Fərəcov olması maraq doğurur:

*Var dövlət-əsiri olma dünyada,*
*Aldanma şöhrətə, aldanma ada,*
*Kişitək ömür sür, kişi tək yaşa,*
*Ömrün əyilməklə getməsin bada.*

Kamal Muradov Güləli Səmədovun müavinidir. Bu vəzifəyə qədər bir çox sahələrdə çalışmışdır. Biz onun rayon mədəniyyət şöbəsinin müdiri, müxbir, rayon qəzetində redaktor işləməsini yazıçının verdiyi qeydlərdən öyrənirik.

Fərəc Fərəcov nəzmlə ümumiləşdirilmiş obrazların da təsvirini verə bilmişdir. Əsərdə müdrik insan necə olmalıdır sualına cavab verən müəllif bunu nəzm nümunəsi ilə açıqlayır:

---

[105] Güllü Məmmədova. Həyatın bədii aynası // F.Fərəcov. Aydın sabahlar. Bakı, "Vektor", 2005, 410 səh., s.5

[106] Yenə orada, s.5

*Dünyanı yaşadar müdrik insanlar,*
*Müdriklər olarsa tökülməz qanlar,*
*Müdrik soraqlayır bütün yer üzü,*
*Çox olsa əbədi güləcək üzü.* [107]

Fərəc Fərəcov geniş mənada işlətdiyi obrazları ümumiləşdirərək nəzmlə tərənnüm edir. Gözütoxluğu, müdrikliyi, xeyirxahlığı obraz səviyyəsinə yüksəltməklə bərabər onları nəzmlə tərənnüm etmişdir. Məsələn, xeyirxah əməlləri, yaxşılığı ümumiləşdirərək Kamal Muradovun simasında verməyə nail olur. Bu məqamı nəzm nümunəsi ilə tərənnüm edir:

*Kimsəyə azacıq yaxşılıq etsəm,*
*Sevincdən pay alıb, dərdi ataram*
*Birinə əl atıb dadına yetsəm,*
*Ömrümə şirinlik, şəkər qataram.*

Müəllif romanda əsl dost obrazını da yaratmağa nail ola bilmişdir. Bunun bariz nümunəsi Camal Nəbiyevlə Kamal Muradovun dostluğunun təsviridir. Kamalın həyat yoldaşı Ramilənin qayınanasından qalma boyunbağını satmaq niyyətinə düşməsi vaxtı Camalın onlara maddi yardım göstərməsi rəmzi məna daşıyır. Nəsildən nəslə keçən dəyərli hədiyyənin satılmasını bilmədən qarşısını alan Camalın bu hərəkəti ilə müəllif milli dəyərlərin yox olmamasına, satılmamasına, yenə də nəsildən-nəslə keçməsini rəmzi olaraq göstərməyə nail ola bilmişdir. Kamalın ağır zamanında ona verdiyi məsləhəti ilə Camal əsl dost olmasını təsdiq edə bilir: "Bir az dözümlülük lazımdır. Mən də çox çətinliklər çəkdim... Özün şahidsən."

Fərəc Fərəcovun "Aydın sabahlar" romanında qadın obrazlarının təsviri diqqəti cəlb edir. Romandakı Zərəfşan, Anya,

---

[107] F.Fərəcov. Aydın sabahlar. Bakı "Vektor", 2005, 410 səh., s.171

Gövhər, Mahirə, Maral və digər qadın obrazları bir-birlərindən fərqli şəkildə təqdim edilmişdir. Romanda Mahirənin daxili aləmi də monoloqunda açıqlanmışdır: "...Yaxşıca abrım gedəcək. ...Abrım da ola barı... Hilal köpəkoğlunu başına iş qəhət idi. İndi mən nə deyim bu kişiyə. Deyim gəl məni qucaqla, gəl məni öp..."[108] Müəllif romanında yüngül həyat tərzi sürən qadınların həyat tərzlərini Gövhər, Mahirə, Maral kimi qadınların surətlərində ümumiləşdirərək verə bilmişdir. Müəllif yüngül həyat tərzini atmağı bacarmağı heç də çətin olmadığını, insanın içindən gələn bir istək olması faktını açıqlamağa nail ola bilmişdir: "Öz günahımdır, əzabını çəkməliyəm. ...Bu əzabları az da olsa yüngülləşdirəcək yalnız bir yol var: o da atalı ikən atasız qalmış qızlarıma ana olmaq, əsl ana!"[109] "Romanda verilmiş Gövhər, Mahirə surətləri də çox təbii, səmimidir. Xasiyyətcə bir-birinə zidd olan bu qadınların hər ikisi Güləli Səmədovun daxili aləminin ifşasına kömək edir". Müəllif Gövhəri hərəkətlərinə sərbəstlik vermiş bir qadın kimi təqdim edir. Hətta ailə dəyərlərinə deyil, pula, vara üstünlük verən, "ər nəyimə lazımdır" düşüncəsi ilə ailə bağlarını qıran bir qadın kimi qələmə almışdır: "Gözəldi, həm də dilli – dilavərdi. Vəzifəlilərlə tez ünsiyyət tapırdı. Bundan istifadə edib ona-buna iş düzəldir... özü də pis dolanmırdı.

Gövhərin bu "sərbəstliyinə" dözə bilməyən uzaq rayondan olan əri ötən il başını tutub qaçmışdı".[110] Müəllif Mahirənin də ərinin başını götürüb getməsini, Gövhər kimi iki uşağına özü baxmasını təsvir etmişdir: "İki kukla tək qızım var. Ərim də mənim dərdimdən baş götürüb gedib. Bu gün sabah qızlarım böyüsə necə olacaq? Onları barmaqla göstərib deyəcəklər: bunlar fahişə Matanın qızlarıdır".[111]

---

[108] F.Fərəcov. Aydın sabahlar. Bakı "Vektor", 2005, 410 səh., s.46

[109] Yenə orada, s.101

[110] Yenə orada, s.15

[111] Yenə orada, s.47

## *§4. Fərəc Fərəcov nəsrində avtobioqrafiklik*

Dünya ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında da müəlliflərin öz həyatına, tərcümeyi-halına aid olan hadisələri əks etdirən bədii nümunələrə tez-tez rast gəlinir. Müəlliflər bu cür əsərləri ictimaiyyətə müxtəlif adlarla təqdim etmişdilər: memuar, roman-etiraf, gerçək roman, xatirə-roman və s. Bu əsərlərdə obyektiv gerçəklik, faktlara əsaslanan məlumatların qələmə alınması özünü əsasən, müxtəlif tarixi şəxslərin ədəbi portretlərinin, həmçinin özünün obrazının qələmə alınması zamanı göstərir. Müəllifin özünün obrazı vasitəsilə ədəbi portretin yaradılması, həmçinin müəllifin həyat və yaradıcılığının işıqlandırılaraq gələcək nəsillərə ötürülməsi əhəmiyyət kəsb edir. Sənədli və bədii janrların qarşılıqlı əlaqə formalarının müxtəlif və ya sintez şəklində olmasından asılı olaraq, müəllif obrazı yaranan bədii əsərlərdə müxtəlif aspektdə özünü göstərə bilir. Belə əsərlərdən biri də, müraciət etdiyimiz Fərəc Fərəcovun "atamla anama xitabən yazdığım və bir də bütün yetim uşaqlara ithaf etdiyim kitab" olan "Ömür bir nağıldır" əsəridir. Müəllifin xatirə-roman adlandırdığı əsər yazarın həyat həqiqətini tam əks etdirməklə yaşadığı və şahidi olduğu müəyyən bir tarixi dövrün ab-havasını bədii söz sənətinə, yəni ədəbiyyata gətirməsi ilə diqqəti cəlb edir. F.Fərəcov təsvir etdiyi hadisələrdə öz mövqeyini göstərməklə bərabər, hadisələrə şəxsi təəssüratları əsasında qiymətini verməyə cəhd edir. Əsərdə konkret Fərəc Fərəcovun, yəni müəllifin iştirak etdiyi, şahidi olduğu hadisələrin təsviri ilə bərabər, müəllif obrazını tam şəkildə açmağa yardımçı olan bir neçə şəxsdən bəhs etmək imkanı özünü göstərmişdir ki, bu da həmçinin, romanın xatirə olmasına bir işarədir. F.Fərəcov öz hiss və həyəcanlarını, həyata və dünyaya baxışlarını məhz qələmə aldığı "Ömür bir nağıldır" xatirə-romanında ifadə etməklə bərabər, tarixi faktların bədii mənasını yenidən işləməyi, həmçinin təq-

dim etməyi bacarmışdır. Real həyatla bağlı olan "Ömür bir nağıldır" xatirə-romanı məhz müəllifin şəxsi həyatı ilə bağlı olan keçmiş olayları və həyatının çevrəsində olan insanları, yaşadığı mühit və dövrü əhatə edən, yaşadığı ömür yolunun çətinlikləri ilə yanaşı, uğurlarını da səmimiyyətlə anladan bədii əsərdir. F.Fərəcovun "Ömür bir nağıldır" xatirə-romanında keçmişin hadisə və faktları müəllif yaddaşına əsaslanaraq fərdi, subyektiv şəkildə əks etdirilməsi ilə maraq kəsb edir.

Fərəc Fərəcov bir müəllif kimi qələmə almış olduğu proloq əvəzi, üç hissə və epiloq əvəzi və ya son sözdən ibarət olan "Ömür bir nağıldır" əsərin janrını ictimaiyyətə xatirə-roman kimi təqdim etmişdir. Əsərdə real faktlara əsaslanan xatirə-romanda bədii reallığın formalaşması tipik hadisə və səhnələrin bədii təsvir vasitəsi ilə həyata keçirilir. Xatirə-romanın təsviredici xarakter daşıması onun kompozisiya quruluşuna təsir edir. Zaman və tale məsələləri, həmçinin sənədlilik və bədiilik əsas istiqamət olaraq özünü göstərən xatirə-romanda hadisələrin təsviri ilə yanaşı bədii mətnə publisistik mühakimələrin daxil edilməsi, həmçinin faktın ümumiləşdirilməsi özünü göstərir. Fərəc Fərəcovun "Ömür bir nağıldır" xatirə-romanında publisist üslubun üstünlük təşkil etməsi özünü qabarıq şəkildə göstərmişdir. Publisist üslub müəllifin ictimaiyyəti düşündürən problemlərə bir ziyalı kimi münasibət bildirərkən müraciət etməsində özünü büruzə vermişdir. Real şəxsdən, faktdan bəhs edərkən müəllif əsərdə tipikləşdirməyə də üz tutmuşdur. Dövrünün mənzərəsini yaratmağa cəhd edən yazar "Ömür bir nağıldır" əsərində gerçəkliklərin təhrifinə yol verməmişdir ki, bu xüsusiyyət də xatirə-romana xasdır. Qeyd etmək lazımdır ki, əsər məhz şəxsən Fərəc Fərəcovun həyat hekayəsini əhatə etdiyindən, bədii təxəyyüldən doğan əsər kimi dəyərləndirilməməlidir. Çünki əsərdə təsvir edilən hadisə və obrazlar məhz real həyatdan götürüldüyündən, bədii təxəyyülün məhsulu olan əhvalat və xarakterlər deyildilər.

Yalnız müəllifin öz həyatının təsviri olan, yəni müəllifin sənədlərə deyil, xatirələrinə üstünlük verərək qələmə almış olduğu əsərin avtobioqrafik olması elə Fərəc Fərəcovun dili ilə əsərdə əksini tapa bilmişdir: "Məramım mənə düşən bir ömür payını qələmə almaqdır. İstəyirəm illərdən bəri mənə "yaz" deyə səslənən düşüncələrimi ipə-sapa düzüb sizlərə ərməğan edəm". "Ömür bir nağıldır" əsəri müəllifin faktiki həyat materialları əsasında, keçdiyi həyat yolu bədii şəkildə qələmə alınmışdır. Əsərdə müəllifin həyatının uşaqlıq, yeniyetməlik, gənclik, ahıllıq çağlarından maraq kəsb edən və yadda qalan epizodları gah sevinc, gah təəssüf hissləri ilə izləməklə bərabər, müəllifin yaşadığı dövrün real mənzərəsinin şahidinə çevrilirik. Fərəc Fərəcov öz mənəvi aləminə qapılaraq, öz həyatı, öz düşüncələri ətrafında baş verən hadisələrə, ictimai-siyasi proseslərə nisbətən əsas prioritet təşkil edən avtobioqrafik əsərini qələmə alarkən yaddaşına söykənməsi, heç bir sənədli mənbəyə müraciət etməməsi faktı da müəllif tərəfindən əsərdə xüsusi olaraq vurğulanmışdır: "Hazırda mənə yuxu kimi görünən uşaqlığıma, sonrakı ömür yoluma "Gündəliksiz" nəzər salıram. Yaddaşımı silkələyib köməyə çağırıram".

"Ömür bir nağıldır" əsərinin avtobioqrafikliyi əsərdə bədii nəqlin xüsusiyyətlərinə önəmli təsir göstərmişdir. Fərəc Fərəcovun kitabında biz müəllifin dili ilə bütün hadisələrin nəql edilməsini, həmçinin fikirlərini izah etməsində sərbəst olmasını müşahidə etməklə yanaşı, təbliğ edilən fikirlərin tarixi hadisəyə çevrilmiş hadisələrlə müqayisə edilərək təqdim edilməsinə cəhd də nəzərdən qaçmır. Əsərdə müəllifin öz dilindən əsərini neçə yaşında qələmə alınması faktına toxunması da diqqəti cəlb edir: "Bu sətirləri yazarkən ömrümün 66-cı sinnini yaşayırdım. Sevimli peyğəmbərimizin yaşını da ötmüşəm. Nə yaşasam qənimətimdir. Yaşadığım illər isə kifayət edir ki, nəsə deyim, nəsə yazım... Görəsən yaza biləcəyəmmi?" Əsər digər şəxsin sözlü reaksiyasını nəzərdə tutmayan daxili monoloqlar-

la diqqəti cəlb edir. Daha kəsərli danışıq üsulu olan monoloq obrazın düşüncə və hisslərinin, həmçinin daxili hisslərini açıqlaması üçün obrazın "bir kənarda" öz-özü ilə danışması prosesidir. Bu bir növ obrazın öz-özünə müraciətlə söylənilən nitqi, həmçinin təbii, səmimi, spontan düşüncələridir. Əsərdə müəllifin daxili monoloqlarında əsərin əsas mövzusu ilə yanaşı, problemlərin də müəyyənləşməsini müşahidə edirik: "Əziz atam, üzünü görmədim, səninlə kəlmə kəsmədim, işdən evə dönəndə "atam gəldi" deyə yüyürüb boynuna sarılmadım. Qardaş-bacı şirinliyini də dada bilmədim..." Əsərin baş qəhrəmanının dilindən verilən bu cür daxili monoloqlarda fikirlər müəllifin daxili məntiqinə tabedir. Məhz müəllifin özünə müraciəti formasında olan nitq kimi monoloq qəhrəmanın daxili aləminin başa düşülməsinə, xarakterinin açılmasına yardımçı olur, onu təqdir və ya ifşa etmək məqsədi güdür. "Ömür bir nağıldır" xatirə-romanında yazıçının daxili monoloqları müəllifin mövzu üzrə münasibətini ortaya qoyaraq, istənilən nəticə çıxarmağa necə yetişdiyini izləməyə şərait yaradır. Ümumiyyətlə, əsərdə müəllifə xas olan, daha çox ata ilə danışmaq, dərdləşmək əsərin içərisində çoxluq təşkil etməsi ilə diqqəti cəlb edən monoloqlardır: "Ata bilməmiş deyilsən ki, uşaqlığımda da, cavanlığımda da sənin yoxluğunun acıları, tikanları qəlbimi deşib, əzablar dadmışam. Misal da çəkə bilərəm. Bir dəfə harınlamış nadan mənimlə görüşmək belə istəməyib. Yetimliyimə görə. Özünü çox yekə aparıb. Əlim havada qalıb. Pərt düşmüşəm. Evə dönüb o ki var ağlamışam..."

Müəllifin istifadə etdiyi bədii nəql üsulları əsərin bədii zamanının özəlliklərini müəyyən etmişdir. "Ömür bir nağıldır" xatirə-romanında retrospektiv zamanla yanaşı indiki zamanı sintez şəklində oxucuya çatdıran müəllif zaman keçidlərində oxucusunu yormur. Retrospektiv zamandan indiki zamana keçid və ya əksinə indiki zamandan retrospektiv zamana keçid müəllif tərəfindən ustalıqla həyata keçirilir. Əsərdə xronoloji

ardıcıllıqla qəhrəmanın, yəni Fərəc Fərəcovun yaşadığı dövrün hadisələrinin cərəyan etdiyi zamanla bərabər, həm də müəllif yaddaşına hopmuş xatirələrin baş verdiyi zamanın xüsusiyyətləri özünü sintez şəkildə göstərmişdir. Həmçinin gerçəklik, müəllif obrazı yer alan "Ömür bir nağıldır" əsəri bir ailənin timsalında müasir dövrdən keçmişə baxışı ehtiva edərək o dövrkü cəmiyyəti də əks etdirməyə qadir olur. Belə ki, müəllif yaddaşına əsaslanaraq əsər - öz həyat salnaməsini yaratmağa qadir ola bilmişdir.

"Ömür bir nağıldır" xatirə-romanının janr xüsusiyyətlərindən biri də müəllifin bədii və janr inklyuziyasıdır. Belə ki, romanda müəllif öz bədii yaradıcılığına müraciət edir, onlar ətrafında fikir mübadiləsinə yer ayırır və bir sıra bədii parçaları romanın mətninə daxil edir. "Ömür bir nağıldır" xatirə-romanında müəllif həyat və yaradıcılığına aid önəmli faktları, dövr və mühitə olan münasibətləri ilə bərabər məhz əvvəllər özünün qələmə aldığı əsərləri haqqında məlumat verməsi ilə diqqəti cəlb edir. Müəllif iyirmi beş çap vərəqi həcmində olan "Aydın sabahlar" romanını və hətta sayca beşinci olması faktını qeyd etməsi oxucunun diqqətindən yayınmır: "Sayca beşinci kitabım olan "Aydın sabahlar" romanımı çap etdirmək üçün Bakıya getmişdim. İşlərim pis deyildi. Kefim kök idi. "Vektor" Beynəlxalq Nəşrlər Evində kitab ürəyimə yatan səviyyədə işıq üzü görmüşdü. İlk romanımın sevincini yaşayırdım". Məhz müəllifin sənəd, yəni fakt üzərində işləyərək onu bədii şəkildə təqdim etməsi əsərdə bədiiliyin özünü göstərməsinə səbəb olması ilə bərabər, həm də həyat və fəaliyyətinə aid maraqlı bilgiləri F.Fərəcovun öz düşüncə və təqdimində əldə etməyə imkan verir. "Ömür bir nağıldır" xatirə-romanında müəllif özünün sayca beşinci kitabı olan "Aydın sabahlar" romanı haqqında daha çox məlumat verməsi, məhz bu əsərin müəllifin şəxsi həyatında mühüm əhəmiyyət kəsb etməsi ilə əlaqəlidir. "...Düşüncələrimi yazıya çevirdim" deyən müəllif əsərin

qələmə alınma tarixinə də toxunur: "2005-ci ildə çap etdirdim. Deyəsən pis qarşılanmadı. Həddən ziyadə tərif edənlər də tapıldı... "Aydın sabahlar" yazı-pozu fəaliyyətimin uğuruna çevrildi." Müəllif romanın məzmununa da aydınlıq gətirərək qeyd etmişdir ki, "90-cı illərin əvvəllərində və ortalarında rayonlarımızda gedən ictimai-siyasi prosesləri əks etdirir. Böyük coğrafiyada cərəyan edən oxşar hadisələri bir rayonun timsalında göstərməyə çalışmışam. Kitabda baş verənlər dövrün reallıqlarından qaynaqlanırdı."

Fərəc Fərəcov "Ömür bir nağıldır" xatirə-romanında qələmə aldığı digər əsərlər haqqında da məlumat verir. Bunlardan biri də "Siyasət" nəşriyyatında işıq üzü görmüş ilk kitabı olan "Culfa şəhidləri" adlandırdığı və mövzusu şəhidlərlə bağlı olan əsəridir. Daha sonra müəllif "Gənclik" nəşriyyatında nəşr edilmiş "Vətən qürurumdur mənim", "Yaycı yetirmələri", "Əcəmi" nəşriyyatında nəşr edilmiş kollektiv zəhmətin bəhrəsi olan "Muxtar respublika mətbuatı: dünən və bu gün", "Jurnalist" adlı kitablarını xatırlayır.

"Ömür bir nağıldır" əsərində isə müəllifin sayca doqquzuncu kitabı olan "Sən olmasaydın" kitabı haqqında bilgi verməsi diqqəti xüsusi cəlb edir. Biz müəllifin dedikləri ilə 2010-cu ildə "Qızıl dağ" nəşriyyatında çap edilmiş bu kitabın məhz Heydər Əliyevə həsr edildiyinin şahidi oluruq: "O bütünlüklə Heydər Əliyevə həsr edilib. Kitabda 15 şeir və ayrı-ayrı mətbu orqanlarında çap olunan publisist məqalələrim yer alıb". Bu kitabdan başqa müəllifin Heydər Əliyevə "Müstəqillik yollarında" adlı poema həsr etməsi, "və rəngli fotolarla müşayiət olunan eyni adlı kiçikhəcmli kitab çap" etdirməsini də məhz "Ömür bir nağıldır" xatirə-romanında oxuyuruq. Daha sonra Fərəc Fərəcov bu kitaba deputat həmkarı Asim Yadigarın ön söz yazması və kitabın dörd hissədən ibarət olması haqqında məlumat verir.

Fərəc Fərəcovun məhz özünün müəllifi olduğu şeirlərindən parçaların verilməsi də əsərdə geniş yer almışdır. Məsələn, əsərin proloq əvəzində dörd misralıq şeirinin xatırlanaraq verilməsi:

*"Həyat mənasızdır" deyən kəslərə,*
*Deyim, eşitsinlər bunu bir kərə.*
*Mənanı özümüz yaratmalıyıq,*
*Həyata şirinlik biz qatmalıyıq.*

Daha sonra Fərəc Fərəcovun əsərin I hissəsində də özünün qələmə almış olduğu "Sənə möhtacam" şeirindən parçanın verilməsi də diqqəti cəlb edir:

*Sığalların elə hopmuş qəlbimə,*
*Sandım dünya mənə yanan dünyadı.*
*Gözəl anam, şirin anam, sən demə,*
*Sənə görə məni anan dünyadı.*

Müəllifi olduğu bu şeir parçasında F.Fərəcovun anasına olan məhəbbəti həyəcanla təlqin etməyə qadir ola bilmişdir.

Müəllif özünün qələmə aldığı şeirlərdən əsərdə parçalar verməklə əsərində təlqin etdiyi fikirləri dolğunlaşdırmaqla yanaşı, olaylara nəzmlə qiymət verməyi bacarmışdır:

*Daim boşalacaq, dolacaq dünya,*
*İnsanın nəyi var alacaq dünya.*
*Alim fikrə dalıb arayacaqdır,*
*Yenə sirr olaraq qalacaq dünya.*

Romanda ədib öz bədii əsərlərinin digər yazıcı, ədəbiyyatşünas və publisistlər tərəfindən qiymətləndirilməsi barədə oxucuya geniş məlumat verir. Yazıçı Güllü Məmmədovanın müəllifin "Yaycı soyqırımı" əsəri haqqında fikirlərinin əsərdə

əks etdirilməsi təqdirəlayiqdir. Bu bir daha təsdiq edir ki, əsər ictimaiyyət tərəfindən yüksək dəyərləndirilmişdir: "Kamil qələm sahibinin ən böyük uğuru "Yaycı soyqırımı" publisist kitabıdır. Bu kitab tariximizin qanlı səhifələrinə həsr olunub. 1918-ci ildə ermənilər Culfa rayonunun Yaycı kəndində dəhşətli soyqırım törətdilər. Müəllif soyqırımın şahidi olmuş adamların söhbətlərini qələmə almış, erməni faşizmini ifşa edən gözəl publisistik əsər yaratmışdır. "Yaycı soyqırımı" böyük zəhmətin bəhrəsi kimi çox dəyərlidir". "Aydın sabahlar" romanının Güllü Məmmədova tərəfindən yüksək dəyərləndirilməsini və xanım yazarın "Həyatın bədii aynası" kimi ön söz yazmasını, həmçinin tənqidçi Vaqif Yusiflinin, müəllifin dostu Tofiq Cəlilovun da əsəri yüksək dəyərləndirmələrini, Həsənqulu Həsənovun isə müəllifə məktub göndərməsini əks etdirən faktlara da yer ayrılmışdır. "Ömür bir nağıldır" xatirə-romanında şair Balayar Sadiqin "Ulduz" jurnalında ədibin kitabları barəsində müsbət fikirlər səsləndirməsi müəllif tərəfindən qürurla qələmə alınır.

"Ömür bir nağıldır" əsərinin problematikası müəllifin şəxsi həyatı ətrafında formalaşmasına baxmayaraq, əsərdə tarixi hadisələrin, müasir siyasi olayların, görkəmli tarixi şəxslərin obrazlarının verilməsinə xüsusi diqqət yetirilmişdir.

Bir tərəfdən, müəllif öz həyatına dair vacib faktları qələmə alır. Məsələn, Azərbaycan Yazıçılar Birliyinə üzvlüyə qəbul edilməsi... Belə ki, müəllif bu hadisəni işıqlandırarkən, artıq oxucuya bəlli edir ki, o hansı tarixdə Azərbaycan Yazıçılar Birliyinin üzvlüyünə qəbul edilmişdir: "...sənədlərimi toplayıb təqdim etdim. Çox gözləmədim. 2001-ci ilin yanvarında sevimli yazarımız Anarın imzaladığı vəsiqə mənə çatdırıldı." Fərəc Fərəcovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilməsi əsərdə geniş əksini tapmışdır. Məhz oxucu müəllifin bu məqamla bağlı xatirələri ilə tanış olduqda ilk dəfə deputat seçilməsinin şahidinə çevrilir: "2002-ci ilin 09

iyul günü. Məhz həmin tarixdə 38 saylı Yaycı seçki dairəsində Ali Məclisə əlavə seçkilər keçirilirdi. Deputatlığa namizəd kimi mən də seçkilərə qatıldım. Səsvermənin yekunları qələbəmlə nəticələndi. Deputat oldum". Oxucu xatirə-romanda həmçinin müəllifin Naxçıvan Mətbuat Şurasının sədri seçilməsi tarixi ilə də tanış ola bilir. Bu müəllifin qeyd etdiyi kimi 29 oktyabr 2005-ci ilə təsadüf etmişdir. Göründüyü kimi, zamanın dəqiqliklə göstərilməsi heç də onun bədiiliyinə xələl gətirmir, onu xronologiyaya çevirmir. Əksinə, həmin tarixlərin dəqiqliklə göstərilməsi əsərin daha oxunaqlı olmasına səbəb olur.

Digər tərəfdən vacib tarixi faktlar əks etdirilir və ictimai-siyasi elitasına daxil şəxsiyyətlər barədə məlumat verilir. Xatirə-romanda tarixi faktların tədqiq edilməsi məqsədi güdülmür, müəllif öz yaddaşına əsaslanaraq əsər yaradır. Lakin F.Fərəcovun qələmə aldığı "Ömür bir nağıldır" xatirə-romanında baş vermiş hadisələrin təqdimi zamanı tarixi faktların verilməsi ilə yanaşı, həyata və zamana müəllif münasibətləri ilə bərabər bəzi hadisələrin konkret tarixi, yəni onların baş vermiş olduğu konkret zaman da açıqlanır: "Qəzanın tarixi dəqiq yadımdadır: 25 sentyabr 2005-ci il. Dəhşətli bir gün!" Müəllif müdaxiləsinin nəticəsində sənədlilik, yəni fakt bədiilik şəklində oxucuya təqdim edilir. Diqqəti cəlb edən məqam isə, əsərdə hadisələrin cərəyan etdiyi, yəni müəllifin keçdiyi və yaşadığı zamanla bərabər müəllifin əsəri qələmə aldığı zamanın xüsusiyyətlərinin sintez şəkildə təqdim edilməsidir. Əsərdə tarixi, real fakt kimi Sovetlərin süqutu da əksini tapmışdır: "1991-ci ilin 31 dekabr günü 70 yaşlı sovet dövlətinin süqut tarixinə çevrildi. Üstünə qara haşiyə çəkildi." Müəllif tərəfindən təqdim edilən, özündə zaman, həyat həqiqətini ehtiva etmiş fakt, sənədlik artıq müəllifin səyi nəticəsində bədiiləşir. Gündəlik hadisələri özündə təzahür etdirən "Ömür bir nağıldır" xatirə-romanında tarixin silinməz qanlı səhifələrinə çevrilmiş soydaşlarımıza qarşı geno-

sid aktlarının törədilməsi, daha doğrusu 1918-ci ildə törədilmiş qırğının xatırlanması da əsərin maraqlı məqamlarından biridir. Müəllif soydaşlarımıza qarşı genosid aktlarının törədilməsi kimi tarixin silinməz qanlı səhifələri haqqında nənə-babalardan eşitdiyinə, Sovet hakimiyyəti dövründə qadağalara baxmayaraq, yaddaşlarda yaşanıb gələcək nəsillərə ötürülməsi faktı təhlil obyektinə çevrilərək açıqlanır: "Vəhşi Andronikin kəndə basqını bizim evdə də tez-tez danışılan mövzuya çevrilərdi." Müəllifin bu fikirləri ilə müasirlərini XX əsrin əvvəlləri və ortalarında Azərbaycan torpaqlarının zəbt edilməsi məqsədi ilə törədilən cinayətkar əməlləri, qanlı tarixi hadisələri unutmamağa çağırır.

Əsərdə dahi şəxsiyyətlərin fikirlərinə əsaslanmaq, sitatların verilməsi maraq kəsb edir. Heydər Əliyevdən verilmiş hikmətamiz fikirlər diqqəti cəlb edir: "Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışmağıma, Azərbaycan kimi vətənim olduğuna, Azərbaycanı təmsil etdiyimə görə özümü həmişə xoşbəxt saymışam". Əsərin III hissəsində Heydər Əliyevin Naxçıvana gəlməsi kimi tarixi faktının təqdimi məhz xatirə-romanda əksini tapmışdır ki, bu da xatirə-romanda real tarixin yaddaşlara həkk olunmasının göstəricisidir. Müəllif bu tarixi yaddaşı oxuculara böyük sevgi və fəxarət hissilə belə çatdırır: "22 iyul 1990-cı ildə Ulu öndər Heydər Əliyevin Naxçıvana qədəm qoyması şəhər və kəndlərimizə toy-büsat ab-havası bəxş etdi. Bu tarixi gəlişin sevincini biz hamımız ürəkdolusu yaşadıq. Çox çəkmədi o dahi şəxsiyyət Naxçıvanımızın hər bir guşəsinə öz ayaq izini saldı, insanlarla əl tutub görüşdü. Onlara ürək-dirək verdi, yol göstərdi."

Ailə salnaməsini xatırladan "Ömür bir nağıldır" əsərində yalnız müəllifin şəxsi həyatı deyil, həmçinin ictimai-siyasi proseslər, tarixi hadisələr, gerçəkliklər, reallığa istinadlar dəqiqliyi, reallığın, həqiqətliyin gözlənilməsi müəllifin öz bədii obrazı vasitəsilə canlandırılaraq əksini tapmışdır. Tanınmış

şəxslər haqqında xatirələrə də əsərdə yer verilməsi diqqətdən yayınmır. Belə ki, müəllif anasının dili ilə onların evində Üzeyir Hacıbəylinin qonaq qalması amilinə də toxunmuşdur: "Radiodan dahi Üzeyir Hacıbəylinin adını tez-tez eşitməyə başladım. Adı çəkildikcə anamın fəxrlə "bizə gəlib", "bizdə qonaqlanıb" kimi sözlərini yadıma salırdım. Qeyri-ixtiyari mən də qürurlanırdım. Qəlbim dağa dönürdü." Amma təəssüf ki, müəllif bu görüş barəsində (anasının xatirələrinə belə əsaslansaydı da) başqa məlumat vermir.

Xatirə-romanda AMEA-nın vitse prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, millət vəkili, akademik İsa Həbibbəyli haqqında məlumatın yer alması diqqəti cəlb edir. Müəllifin xatirəsi vasitəsilə biz artıq akademik İsa Həbibbəylinin tələbəlik illərində qrup nümayəndəsi, həmçinin müəllifin kurs yoldaşı olmasının şahidi oluruq: "Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, istedadı qədər də çalışqanlığı ilə seçilən və yaxşı dost olmağı bacaran akademik İsa Həbibbəyli İnstitut illərində qrupumuzun sinif nümayəndəsi olmuşdur."

Fərəc Fərəcovun "Ömür bir nağıldır" əsəri müəllifinin tərcümeyi-halının öyrənilməsində mühüm mənbə kimi təqdirəlayiqdir. Müəllif öz tərcümeyi halını bədii biçimdə ifadə edərək, söz sənətinə köçürə bilmişdir. Yazarın yaddaş amilinin mühüm rol oynadığı və xatirə-roman adlandırdığı "Ömür bir nağıldır" kitabı özünün publisistik üslubu ilə diqqəti cəlb edir. Bu xüsusiyyət də müəllifin uzun illərdə çalışdığı, şəxsi həyatının qayəsinə çevrilmiş jurnalistika sahəsindəki peşəkar fəaliyyəti ilə bağlıdır. Belə ki, şair-publisist Fərəc Fərəcovun yaradıcılığına xas olan, şəxsiyyətlərə, hadisələrə müəyyən fərqli yanaşmalar ilə fərqlənən "Vətən qürurumdur mənim", "Yaxşılar bəxş edir həyata zinət", "Elə bağlıyam" adlı şeirlər kitabları, "Hekayələr" başlığı altında toplanmış nəsr əsərləri, "Aydın sabahlar" romanı, "Ömür bir nağıldır" xatirə-romanı, "Culfa şəhid-

ləri", "Yaycı", "Yaycı soyqırımı", "Muxtar Respublika mətbuatı: Dünən və bu gün", "Jurnalist", "Sənət məbədinin sənətçiləri", "Sən olmasaydın" publisistik kitabları onun professionallığına dəlalət edir.

# III FƏSİL

# FƏRƏC FƏRƏCOV ŞEİR YARADICILIĞININ PROBLEMATİKASI, JANR MÜXTƏLİFLİYİ VƏ XÜSUSİYYƏTLƏRİ

## *§1. Fərəc Fərəcov yaradıcılığında kiçik poetik formalar*

"Vətən qürurumdur mənim", "Elə bağlıyam" şeirlər toplularında toplanmış müxtəlif mövzulu nəzm nümunələrində nəzm əlamətlərinin, bədii dilin tərkibinin, təsvir və ifadə vasitələrinin istifadə edilməsi məqamı baxımından maraq kəsb edirlər. F.Fərəcovun qələmə aldığı nəzm nümunələrində ritmin izlənilməsi gözlənilmişdir. Müəllifin şeirlərində ahəng yaradan ölçülərin müxtəlifliyi diqqətdən yayınmır. Şairin qələmə aldığı şeirlərin ölçüləri müxtəlifdir: 7, 8, 11, 12, 13, 14 və s. hecalardan ibarətdir.

Şair dünyabaxışını poetik anlamda ifadə edən nəzm yaradıcılığında tələffüz baxımından bir-birinə yaxın və ya oxşar səslənmə xüsusiyyətinə malik sözləri ustalıqla işlətməyə nail ola bilmişdir. Ədibin nəzmində qafiyələnmə müxtəlif şəkildə özünü göstərməkdədir. Fərəc Fərəcovun nəzm əsərlərində qafiyənin zəngin qafiyə və ya tam qafiyə, yoxsul qafiyə və ya natamam qafiyə, çarpaz qafiyə, daxili qafiyə və s. növlərinə rast gəlmək mümkündür. Şairin nəzm yaradıcılığında çarpaz qafiyəyə tez-tez rast gəlinir:

*Əlvan-əlvan naxışlanır **<u>ağaclar</u>**,*
*Hay-harayla quşlar nəğmə **oxuyur**.*
*Xəfif mehlə sığallanır **<u>yamaclar</u>**,*
*Gözəllikdən bahar çələng **toxuyur.***

"Bahar" şeirindən verdiyimiz nümunənin birinci və üçüncü (***ağaclar, yamaclar***), eləcə də ikinci və dördüncü (***oxuyur, toxuyur***) misraları öz aralarında qafiyələnməsi çarpaz şəkildə həyata keçirilmişdir. Bu baxımdan da, şeirdəki qafiyə həmcins qafiyə adlanır.

Fərəc Fərəcov "Müdriklik yaşı" şeirində qafiyənin zəngin qafiyəsini yaratmağa nail olmuşdur:

*O, dərya, o, dəniz, o* ***okeandır,***
*Dünyaya sığmayan böyük* ***cahandır.***
*Zülmətə ildırım, haqqa* ***həyandır,***
*Müdriklik yaşına qovuşan rəhbər.*

Nümunədə ***"okeandır", "cahandır", "həyandır"*** sözləri bir-birilə səsləşə bilmişdilər. Belə qafiyə zəngin qafiyə hesab edilir. Tam qafiyədə bənddəki misraların ən azı üç misrasındakı sözlər bir-biri ilə səsləşməlidir:

*Hər şeyə dözübdü dərdli* ***ürəyim,***
*Haqsızlıq görmüşəm, yanıb* ***kürəyim,***
*Səndən son xahişim, səndən* ***diləyim,***
*Sən mənim qəlbimə toxunma barı.*

Şairin "Toxunma barı" şeirindən olan bu nümunədə ***"ürəyim", "kürəyim", "diləyim"*** sözləri bir-birilərilə səsləşərək tam qafiyə yaratmışdılar. F.Fərəcovun "Ondan öyrənirik biz" şeirində isə yoxsul qafiyə özünü göstərməkdədir:

*O, Qarabağ dərdidir,*
*Ağrımız,* ***acımızdır.***
*Kimsəyə bəxş olunmaz*
*Qeyrətdən* ***tacımızdır.***

Bu nümunədə isə sözlərin az bir hissəsi səsləşir. ***"Acımızdır"***, ***"tacımızdır"*** sözləri bir-birilərilə səsləşmişdir. Bu səbəbdən də, bənddə sözlərin belə səsləşməsi natamam qafiyə adlanır. Qeyd etmək lazımdır ki, yoxsul qafiyədə əsasən, son heca səsləşməlidir:

*Döndü bir ildırıma*
*Zülmətləri* ***əritdi***
*Ədalətdən yoğrulan*
*Siyasətin* ***yeritdi.***

Şairin "Dönməyəcəkdir" şeirində də natamam qafiyə özünü ***"əritdi"***, ***"yeritdi"*** sözlərinin bir-birilərilə səsləşməsi ilə yaranmış qafiyədə göstərmişdir.

Fərəc Fərəcov qafiyədən sonra işlənən rədiflərdən qələmə almış olduğu nəzm əsərlərində də məharətlə istifadə etmişdir. Şairin müəllifi olduğu şeirlərdə qafiyə təşkil edən sözlərdən sonra istifadə edilmiş rədiflər şeirin təsir gücünü artırmağa xidmət etmişdir:

*Qəlbimə toxunan az* ***olmayıbdır,***
*Bu qəlbin payında naz* ***olmayıbdır,***
*Daim qış olubdu, yaz* ***olmayıbdır,***
*Sən mənim qəlbimə toxunma barı.*

Şair "Toxunma barı" şeirində ***"az"***, ***"naz"***, ***"yaz"*** qafiyələrindən sonra ***"olmayıbdır"*** rədifini işlətmişdir.

Fərəc Fərəcovun nəzm yaradıcılığını mütaliə etdikcə, müşahidə edirik ki, "...vətənpərvərlik, siyasi yetkinlik, əqidə, mövqe aydınlığı onun məzmun əsərlərinin də əsasında dayanır".[112] Şairin qələmə almış olduğu şeirlərin əksəriyyəti Nax-

[112] Hüseyn Həşimli. Yaddaş işığı // F.Fərəcov. Ömür bir nağıldır: xatirə-roman. Bakı, "Elm və təhsil", 2014, 184 səh., s.5

çıvanı vəsf edir. Onun eyni ad altında bir neçə şeirinin olması doğma yurduna olan sevgini Vətənin böyüklüyünü, tarixi keçmişini əks etdirir. Şairin "Naxçıvanım" adlı şeirləri fikrimizi təsdiq edir. Fərəc Fərəcovun 1999-cu ildə nəşr edilmiş "Vətən qürurumdur mənim" şeirlər toplusunda 1998-ci ildə qələmə aldığı "Naxçıvanım" şeirində Naxçıvanın əzəmətli tarixi, coğrafi məkanları göz önündə canlandırılır:

*Ötdün tarix sorağından,*
*Ərənlər keçdi canından,*
*Əskik olmaz qonağından.*
*Qürurum, şöhrətim, şanım,*
*Mənim doğma Naxçıvanım.*[113]

2007-ci ildə nəşr edilmiş "Elə bağlıyam" şeirlər toplusunda 2005-ci ildə qələmə almış olduğu "Naxçıvanım" şeirində də real həyatdan qaynaqlanan müəllif doğma diyarın – Naxçıvanın böyüklüyünü, əzəmətini tərənnüm etmişdir:

*Tarixi çox, yaşı qədim,*
*Türk yurdudur mənim elim,*
*Azərbaycan – ana dilim,*
*Naxçıvanım, Naxçıvanım.*[114]

Fərəc Fərəcov qələmə aldığı şeirlərinin mövzusunu doğma diyarı olan Naxçıvana, onun təbiətinə, adət-ənənələrinə, məişətinə həsr etməklə doğma yurduna bağlılığını da əks etdirə bilmişdir.

Vətən, Vətən sevgisi əzəli mövzu kimi ədəbiyyatın ayrılmaz tərkibinə çevrilib. Müəllifin yaradıcılığında vətənsevərlik, el-obaya bağlılıq, Vətənə həsr edilmiş şeirlərində aktuallıq

---

[113] F.Fərəcov. Naxçıvanım // Vətən qürurumdur mənim. Bakı, 1999, 144 səh., s.6
[114] F.Fərəcov. Naxçıvanım // Elə bağlıyam. Naxçıvan, 2007, 96 səh., s.10

kəsb edir. Şairin "Vətən" (1997), "Haydı, irəli" (1997), "Vətənə məhəbbət" (1998), "Öncə Vətən" (1998), "Vətən sevgi istər" (1999) və digər şeirlərində Vətən mövzusuna fərdi yanaşılma diqqətdən yayınmır:

*Tükənməyən sərvətləri,*
*Qorxmazlığım, mətinliyim.*
*Vətən barlı biçənəklər,*
*Vətən şəhid məzarları-*
*Üzərində tək çiçəklər.*

Fərəc Fərəcov qələmə aldığı şeirlərində Ulu Öndər Heydər Əliyevin obrazını yaratmağa nail ola bilmişdir. Şairin "Sən olmasaydın" (1997) şeirinin ana xəttinə çevrilmiş gerçəkliklərin bədii inikası özünü qabarıq şəkildə göstərmişdir:

*Xainlərin niyyəti son məqama çatırdı,*
*Qardaş silah çevirib qardaşına atırdı.*
*Tanrı səni yetirdi, bəxş etdi bu diyara.*
*Yetişdin, məlhəm oldun ah-naləyə, haraya.*[115]

Fərəc Fərəcov şeir yaradıcılığında epiqraflardan istifadə etmişdir. Şeirin mövzusu ilə səsləşən ifadələrdən istifadə edən müəllif oxucunun diqqətini şeirin məzmununa yönəltməklə yanaşı, qaranlıq məqamlara aydınlıq gətirməyə nail ola bilir. F.Fərəcovun "Yolum düşdü Göy-gölə" şeirində müəllif məlumat xarakterli yazını epiqraf kimi yerləşdirmişdir: "Ordubad rayonunun yüksək dağlıq zonasında füsunkar bir göl var: Göy-göl". Bu epiqrafdan oxucu üçün aydın olur ki, "Yolum düşdü Göy-gölə" şeirində tərənnüm edilən göl 1139-cu ildə Gəncədə baş vermiş zəlzələ nəticəsində Kəpəz dağının bir hissəsinin uçaraq Ağsuçayın qarşısını kəsərək yaranmış şəffaf su-

[115] F.Fərəcov. Vətən qürurumdur mənim. Bakı, 1999, 144 səh., s.10

yu olan Göygöl haqqında deyil, Naxçıvanda yerləşən Göy-göl haqqındadır.

Fərəc Fərəcov nəzm yaradıcılığında bədii təsvir və ifadə vasitələrindən ustalıqla istifadə etmişdir. Müəllif bənzətməylə çatdırmaq istədiyi ideya və fikri obrazlı şəkildə təqdim edə bilmişdir. Şair təsvir etdiyi əşya və ya hadisəni başqa əşya və ya hadisəyə bənzətmək üçün bədii təsvir vasitəsinin təşbeh növündən istifadə etmişdir:

*Dağların, daşların bərəkətindən,*
*Süzülür, gurlayır, axır şəlalə.*
*Elimə-obama məhəbbətimdən*
*Sanki ildırım tək çaxır şəlalə.*

Müəllif "Şəlalə" şeirində ***"sanki ildırım tək çaxır şəlalə"*** misrasında təşbeh yaratmışdır. Şair müəyyən bir əşyanı müəyyən bir əlamətə görə məcazi şəkildə daha qüvvətli bir hadisəyə bənzətməyə cəhd etmişdir. Müəllif bənzətmə əsasında fikrini ifadə etmiş, aşağıdakı ünsürlər əsasında yaratmışdır:

1 bənzəyən – şəlalə
2 bənzədilən – ildırım
3 bənzətmə qoşması – tək
4 bənzətmə əlaməti – çaxır

Müəllifin istifadə etdiyi təşbehdə bənzədilən ildırım bənzəyən şəlalədən daha üstün cəhətlərə malikdir. Bu baxımdan da, bənzədilən bənzəyənin ecazkarlığını artırmağa xidmət edir. Müəllifin bu nümunəsi müfəssəl təşbehdir. Qeyd etmək lazımdır ki, təşbeh iki növə ayrılır: qeyd etdiyimiz müfəssəl təşbehlər və mükəmməl təşbehlər. Müfəssəl təşbehdə bənzəyən, bənzədilən, bənzətmə qoşması və bənzətmə əlaməti olan dörd ünsürün dördü də iştirak edir. Mükəmməl təşbehdə isə bənzətmə qoşması və bənzətmə əlaməti iştirak etmir.

Fərəc Fərəcov poetik yaradıcılığında nəzərdə tutulan bir sözün əvəzinə başqa bir anlayışı işlətmək üçün metonimiyaya müraciət etmişdir:

***Araz qəm yükünü boğdu sularda,***
*Həsrəti, kədəri basdı qınına.*
*Sevincdən kükrəyib coşdu sular da.*
*Səslədi elləri, yığdı yanına.*

***"Araz qəm yükünü boğdu sularda"*** misrasında Araz deyildikdə Araz çayı nəzərdə tutulur. Müəllif Araz sözü ilə metonimiya yarada bilmişdir. F.Fərəcov qələmə aldığı şeirlərin bədii dilində müəyyən cisim və hadisəni bildirən söz əvəzinə onunla əlaqədar başqa sözü işlətməyə nail olaraq, metonimiya yaratmağa nail ola bilmişdir:

*Sərhədi alanda duman,*
***Culfa dedi:** gəldi zaman –*
*Düşmənə verməyək aman!*
*Culfa da sənə yananım,*
*Mənim doğma Naxçıvanım!*

"Naxçıvanım" şeirində ***"Culfa dedi"*** ifadəsində müəllif Naxçıvanın ərazi məkanlarından biri olan Culfanı nəzərdə tutmuşdur. Bu sözlə də metonimiya yaratmışdır.

"Ağlayır Arazım" şeirinin adı elə metonimiyadır. Belə ki, müəllif "ağlayır Arazım" deməklə Araz çayını nəzərdə tutmuşdur:

***Ağlayır Arazım, ağlayır yaman,***
*Göz yaşı dəryadan artıq olubdur.*
*Tale göz açmağa verməyir aman,*
*Xiffətdən bənizi necə solubdur.*

Müəllif metonimiyanın bir növü olan sinekdoxa da yarada bilmişdir. "Tikanlı adam" şeirində şair ***"tikanlı adam"*** ifadəsilə bir əlamət bildirə bilmişdir:

*Dilinin zəhər payı*
*həddən artıq çox idi,*
*şirinlikdən uzaqdı,*
*adamlığı yox idi.*

***

*"**Tikanlı adam**" idi*
*Onun ikinci adı,*
*bu adın kölgəsində*
*kama çatmış muradı.*

F.Fərəcov "Hamı yazır" şeirində oxucusuna sual ünvanlasa da, ünvanladığı sualı cavablandırmamışdır:

*Hamı yazır,*
*Hamının gözündə qan,*
*İçində göynərti, kədər...*
*Torpaq dərdi olmasaydı*
***Kim yazardı bu qədər?***

Müəllif fikrinin emosional gücünü artırmaq üçün fikrini sual şəklində qurmuş, bədii sualdan istifadə etmişdir. Şair anası Zeynəb xanıma həsr etdiyi "Nə tez köçdün" şeirində bədii sualdan istifadə etmiş, şeirin bütün bəndlərindəki, yəni yeddi bəndin son misralarını "Nə tez köçdün bu dünyadan?" misrası ilə bitirmişdir:

*Sənsiz həyat mənə dardı,*
*Üzərimdə soyuq qardı.*

*Səndən qeyri kimim vardı,*
***Nə tez köçdün bu dünyadan?***

"Nə tez köçdün bu dünyadan?" misrası şeirdə bədii sual qismində çıxış edir.

Müəllif antitezadan qələmə aldığı şeirlərdə tez-tez istifadə etmişdir. Şeirlərində məzmunca bir-birinə əks olan vəziyyətləri, zidd olan anlayışları qarşılaşdırmışdır. Bununla da qələmə aldığı şeirlərdə təzad yaratmağa nail ola bilmişdir:

*Həyat **şirin,***
*Həyat **acı.***

"Kara gəldi" şeirində həyatın necə olmasını açıqlamaq üçün təzada müraciət edilmişdir. Müəllif təzad yaratmaq üçün şirin və acı sözlərindən istifadə etmiş, leksik mənalarına görə bir-birinin əksi olan sözlərdən, yəni antonim sözlərdən istifadə etmişdir. Müəllifin istifadə etdiyi antonim sözlər müxtəlif köklü sözlərin əksliyi şəklində təzahür etmiş leksik antonim sözlərdir. Şair "İçimdə bir dünya var" şeirində də bədii təzaddan istifadə etmişdir:

*Sanki ekizdir*
*Bu iki dünya.*
*Birinin içindəyəm,*
***Kiçiyəm,** zərrəyəm,*
*Biri də içimdə.*
***Nəhəngəm,** ya nəyəm.*

Bu nümunədə müəllif iki fərqli dünyanı qarşılaşdıraraq bədii təzad yaratmağa nail ola bilmişdir. Burada da, antonim sözlərə müraciət edilmiş, kiçik – nəhəng qarşılaşdırılması ilə təzad yaradılmışdır.

Fərəc Fərəcov qələmə aldığı şeirlərdə tez-tez təkrirlərdən istifadə etmişdir. Müəllifin istifadə etdiyi təkrirlər şeirin dilinin təsir gücünü artırmışdır. Şair "Ümid parladı" şeirində misranın sonunda iki sözü yan-yana işlədərək təkririn epifora növünü yarada bilmişdir:

*Əsr-əsr yağmalandıq,*
*Gah yad olduq, doğmalandıq.*
*Taleyin hökmünə yandıq,*
*Bəxtim **ağladı, ağladı...***[116]

Sərbəst şeir şəklində qələmə aldığı "Qeyrət" şeirində də şair epifora yaratmışdır:

*Özünü də,*
*Adını da*
***dandı vətən.***
***Dandı vətən!***

Şairin yaradıcılığında təkririn misranın əvvəlində işlənmə məqamı ilə də rastlaşırıq. Misranın əvvəlində işlənən təkrirlər anafora adlanır:

*Dağılan ölkəyə verdi nəfəs, can,*
*Zehni, düşüncəsi xalqa yar oldu.*
*Od içində yanan Azərbaycana,*
***Əbədi, əbədi** xilaskar oldu.*

"Xilaskar oldu" şeirində müəllif ***"əbədi, əbədi"*** kimi iki eyni sözü bir misrada yan-yana işlədərək təkrir yaratmışdır.

Fərəc Fərəcov şeirlərində müəyyən bir fikri birbaşa mənasında deyil, dolayı yolla ifadə etmişdir. Dolayı yolla ifadə edi-

---

[116] F.Fərəcov. Vətən qürurumdur mənim. Bakı, 1999, 144 səh., s.35

lən fikirdə fikir obyektinin məzmun və xüsusiyyətlərinə qarşı tənə şəklində qoyulmasını müşahidə edirik. Müəllif "Qonşu qarı", "Rüşvət apardı", "Yaltağın cavabı", "Səxavətli" İbiş", "Xəsis" kimi şeirlərdə mənfi obrazları ifşa edir. Bu şeirlərdəki fikrin ifadə tərzi şeirin daxili mənasına qarşı qoyulur:

*Mən yaltaq olsam belə,*
*İkiüzlük etmərəm.*
*Yaltaqlandığım kəsin*
*Gizlində qarasına –*
*Əleyhinə getmərəm.*

Şairin "Yaltağın cavabı" şeirindən olan nümunədə müəllif fikirlərini ironik şəkildə bildirərək, yaltaq insanın daxili aləmini, mənini açmağa qadir ola bilir. Müəllif "Rüşvət apardı" şeirində isə qəhrəmanın dili ilə onun daxili aləmini, rüşvətxor olmasını açmağa qadir olur:

*Dedim hər işin məzənnəsi, qiyməti olsun,*
*Bəlkə bu sayaq ev-eşiyim zər-xara dolsun.*
*Axsın cibimə saysız-hesabsız para dolsun.*
*Milçək təki dostlar hara getsəm də tapardı,*
*Axır məni, vallah, biliniz rüşvət apardı.*

Qeyd etməliyik ki, kinayədə, adətən, mənfi bir xüsusiyyətin müsbət görünüşlə təqdim edilməsini görürük. Bu nümunədə rüşvətxor insanın özünə haqq qazandırması ironiya ilə təqdim edilmişdir.

Fərəc Fərəcov şeirlərində tez-tez sözlərin qrammatik sırasını məqsədli şəkildə pozması ilə diqqəti cəlb edir. Müəllif inversiya ilə ifadə etdiyi fikri, ideyanı özünəməxsus şəkildə təqdim edə bilir. Məhz inversiya sayəsində şeirdəki fikir qüvvətli ifadə oluna bilir:

*Dolur bulud, suya dönür dağ-aran,*
*Torpaq üstə bar-bərəkət ələnir.*
*Köçür bulud, şəfəqlənir asiman,*
*Tarlalara zəhmət təri çilənir.*

Şairin "Bahar" şeirindən verilmiş bu nümunədə sözlərin qrammatik sırasının pozulmasının şahidi oluruq. "Dolur bulud, suya dönür dağ-aran", "Köçür bulud, şəfəqlənir asiman" olan misralarda bunun şahidi oluruq. Bu misralarda sözlər qrammatik qaydaya uyğun deyillər. Əgər müəllif həmin misraları qrammatik qaydaya əsasən qələmə alsaydı, misralar belə alınardı: "Bulud dolur, dağ-aran suya dönür", "Bulud köçür, asiman şəfəqlənir". Göründüyü kimi, müəllifin fikirlərinin poetik ifadəsi üçün inversiyaya müraciət etməsində haqlıdır. Müəllif inversiyaya müraciət etməklə fikirlərini daha ifadəli çatdırmağa nail ola bilmişdir. Bu müəllifin digər şeirlərində də müşahidə olunur. Məsələn, Fərəc Fərəcovun nəvəsi Kənana həsr etdiyi "Qayıt" şeirində qrammatik normanın pozulmasını müşahidə edirik. Müəllif inversiyadan istifadə etməklə şeirin nitqinin bədii təsir gücünü artırmışdır:

*Hardasan Kənanım, hardasan canım,*
*Dönür qərinəyə saatım, anım,*
*Partlayır ürəyim, dayanır qanım,*
*Qayıt baxışına, gözünə qurban.*

Bu nümunəyə aid misralardakı sözləri qrammatik qaydada yerləşdirsək, adi danışıq dilinə çevriləcək, şeir dilinin poetik anlamda axıcılığı pozulacaq: Saatım, anım qərinəyə dönür, ürəyim partlayır, qanım dayanır və s. Belə halda, ilk növbədə, diqqəti cəlb edəcək amil də şeirin misralarının sonunda yerləşən sözlərin bir-birilərilə qafiyələnə bilməməsi olacaqdır. Bunları nəzərə alaraq, bədii əsərlərdə, xüsusilə də nəzm əsər-

lərində qrammatik qaydaların məqsədli şəkildə pozulması labüdlüyü özünü göstərir.

Fərəc Fərəcovun şeirlərində, Naxçıvanın, Ordubadın, Sədərəyin məkan kimi obrazlarına, şəhidlərin obrazına və s. obrazların tərənnüm edilməsinə rast gəlirik.

F.Fərəcovun kədərli ovqat doğuran "Şəhidlərə" şeirində biz şəhidlərimizin ölməz obrazı ilə rastlaşırıq. Şairin qürurla söylədiyi "Şəhid qanı axan torpaq basılmaz" kimi fikri bizim müstəqilliyimizin də onlara borclu olduğumuzun göstəricisidir. Müəllif şeirdə şəhidliyi ehtiramın ən ali məqamı səviyyəsinə yüksəldə bilmişdir. Şair şəhidləri yurdun, məmləkətin şəhid övladları olmasını bir daha təsdiq etmiş oldu.

Fərəc Fərəcovun "Şəhidlərə" şeirində şəhidlərin "qızıl qanları" ilə qazandıqları qələbələrin bizləri izləməsi bədii poetik dillə tərənnüm edilmişdir:

*Sizin ruhlarınız yanımızdadır,*
*İzləyir bizləri küçədə, tində.*
*Qələbə inamı qanımızdadır,*
*Arxayın uyuyun qəbir evində.*[117]

Doğma elini-yurdunu obraz səviyyəsində verməyi bacaran müəllif onları oxucuların yaddaşına həkk edir. "Naxçıvanım" şeirində ümumi Naxçıvan konteksti daxilində şair Şərurun obrazını yaratmağa nail ola bilmişdir:

*Hay səsinə qalxdı Şərur,*
*Şimşək olub çaxdı Şərur.*
*Bu diyara baxtdı Şərur.*
*İstəyini tez ananım,*
*Mənim doğma Naxçıvanım.*

[117] F.Fərəcov. Vətən qürurumdur mənim. Bakı, 1999, 144 səh., s.38

Məkanı obraz səviyyəsinə yüksəldə bilən müəllif, "Naxçıvanım" şeirində Naxçıvan MR-da 2020-ci ildə şəhər statusu almış Babək şəhəri, eyni adlı rayonun mərkəzi olan Babək rayonu ilə tarixi qəhrəman Babək arasında bağlılıq axtarılaraq doğma məkan obraz səviyyəsinə yüksəldilə bilmişdir:

*Oğulların yığdı Babək,*
*Elə bil ki sağdı Babək.*
*Yağılara dağdı Babək.*
*Babəkimlə də sınanım,*
*Mənim doğma Naxçıvanım.*

Müəllif publisist yazılarında olduğu kimi Naxçıvanın hər bir sahədəki intibahını bədii dillə tərənnüm etmişdir.

Fərəc Fərəcovun şeirlərində Heydər Əliyevin parlaq, ölməz, əbədiyaşar obrazı canlandırılmışdır. Ədibin "Sən olmasaydın" kitabında "Sən olmasaydın", "Bu "75" adi deyil", "Heydəri yetirən xalq", "Yenidən səs verək", "Müdriklik yaşı", "Qurtuluşum olmasaydı", "Xilaskar oldu" kimi şeirlərdə Heydər Əliyevin özünəməxsus şəkildə obrazı təqdim edilmişdir.

Müəllif "Heydəri yetirən xalq" şeirində Heydər Əliyevin xalqı, milləti üçün doğulması amilinə toxunmuşdur:

*Əməlin sübut etdi, sən əsl xalq oğlusan*
*Yalnız el-oba üçün, vətənçün doğulmusan.*

Fərəc Fərəcov "Yaşa millət, yaşa xalqım" şeirində Heydər Əliyevin həyata keçirdiyi xeyirxah əməlləri ümumiləşdirərək qələmə almışdır:

*Əbədidir haqq yolumuz, doğru yolumuz,*
*Yenilməzdir, bükülməzdir vuran qolumuz.*

*Yaşa millət, yaşa xalqım, yaşa, min yaşa,*
*Müstəqillik addımlayır Heydərlə qoşa.*

Fərəc Fərəcov "Müstəqillik addımlayır Heydərlə qoşa" deyərək Müstəqil dövlətimizin, onun müstəqillik əldə etməsi uğrunda Heydər Əliyevin əməllərinin tarixdə yaşadığını əks etdirir:

*Qurtuluşun yaradanı, quranı o,*
*Qurtuluşun zirvəsində duranı o,*
*Tez sağaltdı, sağalmayan yaranı o...*
*O, Heydərdi, ana yurdun haqq səsidir,*
*Millətimin əbədilik nəfəsidir.*

Fərəc Fərəcovun nəzm yaradıcılığından bəhs edərkən, müəllifin qələmə aldığı dördlüklər diqqəti cəlb edir. Qələmə alınmış dördlüklər bir bənddən ibarət olması ilə türkdilli xalqların milli şeir forması olan tuyuğu, Şərq ədəbiyyatında geniş yayılmış rübailəri xatırladır. F.Fərəcovun bir bənddən ibarət dördlüklərini nəzərdən keçirdikdə onların tuyuq, rübai nümunələri olmasını görmək mümkündür.

*Ulu keçmişlərdən* ***soraqlı*** *dünya, - a*
*Acılı-şirinli,* ***maraqlı*** *dünya. - a*
*Bir əli Günəşli, sabaha doğru, - b*
*Biri təlatümlü,* ***yaraqlı*** *dünya. - a*

Burada misralar aaba şəklində qafiyələnmişdir. Dördlüyün birinci, ikinci və axırıncı misraları həmqafiyə (***soraqlı, maraqlı, yaraqlı***), üçüncü misra isə sərbəst şəkildədir.

*Tale yar olarsa yoluna* ***sənin,*** *- a*
*Gəzərsən üstündə qızıl* ***çəmənin.*** *- a*

*Əgər üz çevirsə, bil ki, daima, - b*
*Düşərsən toruna boranın, **çənin.** - a*

Bu tuyuq nümunəsində də qafiyələnmə aaba şəklində özünü göstərmişdir.

Tuyuqla rübai arasında oxşarlıq mövcuddur. Hər ikisi dərin mənalı fikirlər ifadə edirlər. Tuyuqda işlənən mövzular rübaidə də işlənilir. Hər iki dördlük aaba şəklində qafiyələnir, on bir hecadan ibarət olur. Rübai ictimai, fəlsəfi, əxlaqi məzmunda olması ilə fərqlənir. Həm heca, həm də əruz vəznində qələmə alınır. Əsasən də, klassik müəllif ədəbiyyatında istifadə edilmişdir.

*Mənəm-mənəmliklə yaşayan insan,*
*Bir qədər düşünüb, daşınıb dursan,*
*Hələ ki, gec deyil, xeyirdi, inan,*
*"Mənəmlikdən" uzaq bir həyat qursan.*

F.Fərəcovun qələmə aldığı bu dördlükdəki əxlaqi fikirlərin təbliğini nəzərə alaraq, rübai nümunəsi hesab etməliyik. Bütün misralar həmqafiyədir. Bəzi hallarda rübaidə bütün misralar həmqafiyə ola bilir (aaaa şəklində).

*Yolları nə qədər kəssə də duman, - a*
*Göz açıb qaçmağa verməsə aman. - a*
*Möhkəm ol, itirmə son ümidini, - b*
*Haçansa bəxtinə yar olar zaman. - a*

Dörd misralı, birbəndli şeir nümunəsində qafiyələnmə qaydası aaba şəklindədir. Misradakı heca sayı on birdir. Bu nümunəni rübai adlandırılmasına əsas səbəblərdən biri fəlsəfi, əxlaqi məzmun daşımasıdır.

*Yaşamaq həm asan, həm də çətindir,*
*Dünya ağıl, zəka, qabiliyyətindir.*
*Arayıb, axtarıb, çalışsan əgər,*
*Əxz edib qazansan -səadətindir.*

Rübaidə həyat sevgisi, həyatın mənası fəlsəfi dərinlik əxz edərək tərənnüm edilmişdir.

### §2. Fərəc Fərəcov yaradıcılığında poema janrı

Fərəc Fərəcovun 2011-ci ildə qələmə aldığı "Müstəqillik yollarında" poeması dörd bölüm və epiloqdan ibarətdir. Həm heca vəznində, həm də sərbəst şeir formasında qələmə alınmış "Müstəqillik yollarında" poemasında qəhrəmanın keçirdiyi hiss və həyəcanlar, onun iştirak etdiyi hadisələr təsvir edilmişdir. Poemada həyat hadisələrinin doğurduğu hiss və duyğuların ifadə edilməsilə bərabər, əsərin mətnində müəllifin məxsus olduğu xalqın kosmologiyasının əks etdirilməsi də diqqəti cəlb edir.

Fərəc Fərəcovun "Müstəqillik yollarında" poemasının I bölümündə Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) yaranması, 23 ay fəaliyyət göstərməsi, 1991-ci ildə Sovet İmperiyasının süqut etməsindən sonra Azərbaycanın müstəqilliyini əldə etməsinə, bu yolda keçdiyi iztirablı yollara nəzər salınmış, Heydər Əliyevin, onun ideyalarına sadiq olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin müstəqillik yollarındakı fəaliyyətləri tərənnüm edilmişdir. Şair Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Müstəqil Azərbaycan Respublikasının yaranması ilə yanaşı, müstəqillik şansının hələ əsrin əvvəllərində xalqımız üçün verilmiş şansı da qabartmağa nail ola bilmişdir:

*Tarix bir şans verdi əsrin əvvəli,*
*Şərqdə demokratik dövlət yaratdıq.*

*Öz adım, bayrağım oldu mənim də,*
*Arzuya, istəyə, şərəfə çatdıq.*[118]

Şair Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) yaranması, 23 ay fəaliyyət göstərməsini ürəkağrısı ilə təsvir edə bilmişdir:

*Vuruşdu, yaşadı iyirmi üç ay,*
*Ömrü gödək oldu azad dövlətin.*[119]

F.Fərəcov Azərbaycanın müstəqilliyini əldə etməsini tarixi şans kimi dəyərləndirmişdir. Bununla yanaşı, Ümumxalq Hüzn günü olan 20 Yanvar hadisələrinə də oxucunun diqqətini yönəltməyi bacarmışdır. 1990-cı il 19 yanvardan 20 yanvara keçən gecədə günahsız insanların qətlə yetirilməsi tarixin səhifələrində qalsa da, xalqın tarixi yaddaşına əbədi həkk olunması danılmaz faktdır. F.Fərəcovun "Müstəqillik yollarında" poemasında da bunun şahidi oluruq:

*İyirminci əsrin sonu yenə də,*
*Tarix öz şansını etdi ərməğan*
*Həm də ölüm itim, 20 Yanvar,*
*Xalqı dara çəkib etdi imtahan.*[120]

20 Yanvar hadisələrinin gələcək nəsillərə həyat məktəbi, örnək olması özünü göstərməkdədir. Heydər Əliyev bu faktı bir ziyalı kimi dəyərləndirməsi gələcəyə səsləyişdir: "20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnəkdir. Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümu-

---

[118] F.Fərəcov. Müstəqillik yollarında. Naxçıvan, "Əcəmi", 2012, 40 səh., s.5
[119] Yenə orada, s.5
[120] Yenə orada, s.5-6

nə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər. Ona görə də bu şəhidlərin həlak olması bizim üçün nə qədər qəm-qüssə doğurursa, nə qədər ağır itkidirsə, o qədər də xalqımız üçün qəhrəmanlıq nümunəsi kimi, örnək kimi bizim milli sərvətimizdir, milli iftixarımızdır".[121]

"Müstəqillik yollarında" poemasının problematikasında diqqəti çəkən mövzulardan biri də Xocalı faciəsinin təsviridir. 1992-ci ilin 25 fevraldan 26 fevrala keçən gecədə etnik azərbaycanlılara qarşı baş vermiş soyqırımı ürəkağrısı ilə təsvir edən müəllif bu ağrının dərinliklərinə vara bilir. Oxucuya həmin soyqırım nəticəsində qətlə yetirilmiş uşaqların, qocaların, qadın və kişilərin haraylarını çatdıra bilmişdir.

Müəllif "Xocalı soyqırımı", "Xocalı faciəsi", "Xocalı qətliamı" kimi tanınan bu tarixi olayı "Müstəqillik yollarında" poemasında qələmə almaqla, müstəqilliyə getdiyimiz yolda nələrlə üzləşdiyimizi bir daha yaddaşlarda bədii dillə canlandırmağa qadir olur:

*Düşmən nə amansız, nə qansız imiş,*
*Nə uşaq tanıdı, nə də qız -gəlin.*
*Vəhşi bir canlının törətmədiyin,*
*Başına gətirdi tənha bir elin.*

*Müstəqil ölkənin son tarixinə*
*Yazıldı yeni bir qanlı soyqırım.*[122]

Fərəc Fərəcovun "Müstəqillik yollarında" poemasında kompozisiyanın ünsürlərindən olan epiloqdan istifadə etməsi

---

[121] https://apa.az/az/bloq/blog/-single/20-Yanvar-tariximizin-srf-v-qhrmanliq-shifsi-29

[122] F.Fərəcov. Müstəqillik yollarında. Naxçıvan, "Əcəmi", 2012, 40 səh., s.8

diqqəti cəlb edir. Əsərin sonunda təqdim edilən yığcam yekun hissəsi olan epiloqda müəllif öz fikirlərini tamamlayaraq oxucuya təqdim edir:

*Sizinlə burada sağollaşıram,*
*Qürur zirvəsini qalxıb aşıram* [123]

fikirləri ilə yekunlaşdırmaqla poemanın sonuna gəlməsini diqqətə çatdırır. Daha sonra isə Fərəc Fərəcov bir müəllif kimi

*Arzular gül açır yenə köksümdə,*
*Nurlu sabahlara ƏSGƏRƏM mən də!* [124]

fikirləri ilə isə gələcəyə olan nikbin baxışlarını əks etdirməklə, vətənin daim keşiyində dayanmasına işarə etməklə, hamını bu amalı həyata keçirməyə səsləyiş edir.

"Müstəqillik yollarında" əsərinin bədii dili, bədii təsvir və ifadə vasitələrinin istifadə edilmə məqamı diqqəti cəlb edir. "Müstəqillik yollarında" əsərinin bədii dilinin tərkibinə daxil olan varvarizmə diqqət edək. Bilirik ki, varvarizm bədii əsərdə işlədilən, amma ədəbi dildə işlənməyən alınma sözləri əhatə edir:

*"Əsrin **kontraktı**" – bu bir möcüzə,*
*Öndər siyasətin çıxardı üzə.* [125]

Şairin əsərdə istifadə etdiyi ***"kontrakt"*** sözünün Azərbaycan ədəbi dilində qarşılığı var: "müqavilə." Qeyd etməliyik ki, müəllifin istifadə etdiyi "Əsrin kontraktı" Azərbaycan ədəbi dilində "Əsrin müqaviləsi" kimi təqdim edilməkdədir.

---

[123] F.Fərəcov. Müstəqillik yollarında. Naxçıvan, "Əcəmi", 2012, 40 səh., s.39
[124] Yenə orada, s.39;
[125] Yenə orada, s.17

F.Fərəcovun poemada istifadə etdiyi bədii təsvir vasitələri olan təşbeh, epitet, metafora, metonimiya və s.-dən istifadə edilmə maraq kəsb edir. Məsələn, şair

*Hər günümüz açır çiçək,*
*Gercəkləşir xoş gələcək.*
*Burda hər yan abad, təmiz,*
*Dağa dönür saf qəlbimiz.*

Nümunəyə nəzər saldıqda, deyə bilərik ki, günümüz çiçək aça bilməz, qəlb də dağa dönə bilməz. Müəllif bunları məcazi mənada ifadə etmişdir. F.Fərəcov ifadə etmək istədiyi fikri daha qüvvətli və qabarıq şəkildə vermək üçün onu ifadə edən sözə başqa bir təyinedici söz əlavə edə bilmişdir. Bu nümunələrdə müəllif parlaq şəkildə bədii təyin yarada bilmişdir.

F.Fərəcovun bədii ifadə vasitələrindən istifadə etməsi də diqqətdən yayınmır. Məsələn, bədii ifadə vasitələrinin növlərindən biri olan bədii suala müraciət edən müəllif fikrinin emosional təsirini artırmaq məqsədi güdmüşdür:

*Hanı o başçılar, hanı o kəslər?*
*Görsünlər Xocalı necə dərddədir.*[126]

F.Fərəcov verdiyi sualın cavabını əsərdə cavablandırmır. Bu baxımdan, sualın cavabı cavabsız qalır. Xocalını törədənlərin kimlər olması qaranlıq qalmışdır. Müəllif tərəfindən cavablandırılmır.

Əsərdə poetik sintaksisin növlərindən biri olan inversiya da özünü tez-tez göstərməkdədir. Müəllif əsərin bədii təsirini artırmaq üçün sözlərin sırasını qəsddən pozmuşdur:

---

[126] F.Fərəcov. Müstəqillik yollarında. Naxçıvan, "Əcəmi", 2012, 40 səh., s.7

*Sökülür dan yeri, alatoranlıq,*
*Hələ çəkilməyib tamam qaranlıq.*[127]

Bu nümunədə xəbərlərin misranın əvvəlində işlənilməsi inversiyadır.

Fərəc Fərəcovun "Müstəqillik yollarında" poemasında təqdim etdiyi əsas obrazlardan biri Heydər Əliyevin obrazıdır. Müəllif "Heydər gərəkdir, Heydər!" deyərək xalqın istəyində, düşüncəsində formalaşmış obrazını təlqin edə bilmişdir:

*O lider, Ulu öndər.*
*Onu eşitməliyik,*
*Ardınca getməliyik.*
*Dövlət deyil oyuncaq,*
*Onadır inam ancaq.*[128]

Fərəc Fərəcov "Müstəqillik yollarında" poemasında Heydər Əliyevin həyat və fəaliyyətini əhatəli şəkildə əks etdirə bilməməsinə baxmayaraq, Heydər Əliyevin kamil obrazını yaratmağa nail ola bilmişdir:

*Rəhbər zəkasıyla ucaldı qat-qat,*
*Bəxş etdi yurduma rahat, xoş həyat.*
*Sevdi insanları, sevdi dünyanı,*
*Dolaşdı Yer üzünü şöhrəti, şanı.*
*Ucaltdı vətəni özüylə qoşa,*
*Mətin iradəsi, sözüylə qoşa.*[129]

"Müstəqillik yollarında inamla irəliləyən, Heydər Əliyev ideyalarının işığında yeni-yeni uğurlar qazanan Azərbaycanın,

---

[127] F.Fərəcov. Müstəqillik yollarında. Naxçıvan, "Əcəmi", 2012, 40 səh., s.23
[128] Yenə orada, s.11
[129] Yenə orada, s.19

onun ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımızın çağdaş yüksəlişindən ilhamlanan şairin duyğu və düşüncələri təbiiliyi, səmimiliyi ilə razılıq doğurur".[130]

Poemada diqqəti cəlb edən obrazlardan biri Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin obrazının təqdimidir:

*Söz açım oğuldan-cavan liderdən,*
*Kəsməsin yolumu nə duman, nə çən*
*O, şahə qaldırdı köhlən atını,*
*Açdı ağır yolun neçə qatını.*
*Cavanlıq, enerji, həm də cəsarət.*
*Bir də Heydər yolu, azman siyasət.*[131]

Fərəc Fərəcov qələmə aldığı poemada Naxçıvanın özünəməxsusluğunu vurğulamaqla möhtəşəm obrazını yaratmışdır. Müəllif bu məkanın qədimliyini qabarda bilmişdir:

*Naxçıvanım, ana yurddan ayrı düşən qızıl torpaq,*
*Beş min illik tarixinə göz gəzdirək varaq-varaq.*
*Dünyanın son yaranışı köksündədir – Gəmiqaya,*
*Nuh gəmisi burda qaldı, sən doğuldun bu dünyada.*[132]

Fərəc Fərəcov "Müstəqillik yollarında" əsərini poema kimi təqdim etmişdir. "Müstəqillik yollarında" əsərini mütaliə edərkən, bizə Şərq, eləcə də klassik Azərbaycan epik şeirində geniş yayılmış formalardan biri olan məsnəvini yada salır. Məsnəvi formasında qələmə alınmış əsərlərdə beytdəki misralar öz aralarında qafiyələnir: aa, bb, cc, dd, çç və s. Məsnəvi-

---

[130] Hüseyn Həşimli. Yaddaş işığı // F.Fərəcov. Ömür bir nağıldır: xatirə-roman. Bakı, "Elm və təhsil", 2014, 184 səh., s.5

[131] F.Fərəcov. Müstəqillik yollarında. Naxçıvan, "Əcəmi", 2012, 40 səh. s.24;

[132] Yenə orada, s.31

nin özünün mənası elə "ikilik" deməkdir. Məsnəvi formasında yazılmış əsərlərin də iki misrası bir beyt adlanır. Bu beytlər öz növbəsində, müstəqil olurlar. Müstəqil olmaqla yanaşı, tamamlanmış bir fikri də ifadə etməyə qadirdilər:

*Müstəqilliyimiz möhkəm, **inamla**, - a*
*Addımlar atırdı düzgün, **aramla**. - a*
*Ölkə dəyişməkdə, **durulmaqdaydı**, - b*
*Yeni Azərbaycan **qurulmaqdaydı**. - b*
*Düşmən də çox idi kənarda, **içdə**, - c*
*Lövbər salmışdılar qıraqda, **küncdə**. - c*
*Dövlətə qəsd oldu bir neçə **dəfə**, - d*
*Lakin yetişmədi naqis **hədəfə**. - d*
*"Heydər- xalq birliyi" düşdü **dillərə**, - ç*
*Bənzədi kükrəyən coşqun **sellərə**.*[133] *- ç*

Əsərdə misraların iki-iki qafiyələnməsi Fərəc Fərəcova bir müəllif kimi fikirlərini sərbəst və geniş şəkildə ifadə etməyə maneçilik törətmir. Müəllifin qələmə aldığı beytlərdə ifadə etdiyi fikirlər arasında bağlılıq da özünü göstərməkdədir. Misraların öz aralarında aa, bb, cc, dd, çç və s. şəklində qafiyələnməsini nəzərə alaraq, müəllifin "Müstəqillik yollarında" əsərini Müasir Azərbaycan ədəbiyyatında klassik epik şeir ənənəsinin davam etdirilməsinin göstəricisi kimi qəbul etmək lazımdır.

### *§3. Fərəc Fərəcov yaradıcılığında sərbəst şeir*

Fərəc Fərəcovun qələmə aldığı "Anama" (1972), "Torpaq insan" (1978), "Yağış" (1981), "Ehtiram" (1981), "Səhər" (1981), "Halal çörək – haram tikə" (1982), "İki yol" (1982), "Ömür - yuxu" (1982), "Təki ürək qocalmasın" (1982), "Mü-

---

[133] F.Fərəcov. Müstəqillik yollarında. Naxçıvan, "Əcəmi", 2012, 40 səh., s.18

haribə - sülh" (1984), "Şair" (1984), "Yalanlar" (1984), "İstəmirəm" (1989), "Kara gəldi" (1990), "Ümidlər" (1993), "Qəzəb" (1993), "Bu "75" adi deyil" (1998), "Vətən torpağı" (1998), "Qeyrət" (1998), "Anam" (1998), "Nənəm" (1998), "Gerçəklik, yoxsa xəyal" (1998), "Baxışlar" (1999), "İçimdə bir dünya var" (1999), "Görər səfasını" (2001), "Vətən" (2005), "Yazıq dünya" (2005), "Niyə qarışmır" (2005), "Meydan oxuyur cahana..." (2005), "Qorxuram" (2006), "Hər əmrinə müntəzirəm" (2006) və s. nəzm nümunələri sərbəst şeir şəkillərində qələmə alınmışdır. Bu şeirlərdə standart vəzn, bölgü, qafiyə, bənd və s. tələblərdən müəyyən qədər kənarlaşma özünü göstərməkdədir. Bu da səpkili şeirin əsas xüsusiyyətləri kimi özünü göstərir. Tələblərdən kənara çıxmaq o deyil ki, ahəngdarlığa riayyət edilməsin. Əksinə, səpkili şeirlərdə ahəngdarlığın gözlənilməsi vacib hesab olunur.

F.Fərəcovun sərbəst şeir şəklində qələmə aldığı nəzm nümunələrinin problematikası cəmiyyəti düşündürən aktual problemləri əhatə etmişdir. Şairin "Ümidlər" şeirində insan ruhunu həqiqət aləminə aparılmasını, tarixin səhifələrindən günümüzə gələn həqiqətlərə baxışı əksini tapmışdır:

*Nə yaxşı ki, Yer üzünə*
*yağıb ümid*
*Nə yaxşı ki, Yer üzündə*
*dogub ümid.*
*Yağıblar, doğulublar,*
*çoxalıblar.*
*İnsanların qəlbinə*
*işıq, arzu salıblar.*

Fərəc Fərəcov "Ümidlər" şeirində ümidi var olmanın bir səbəbi kimi göstərməyə nail ola bilir. Ümidlərin daim doğulduğunu, bununla da, insan qəlbindən həyat eşqinin güclənmə-

sinə yol açmasını vurğulayır. Müəllif ümidlərin keçmişi unutmamasını, lakin ona da bağlı olmamasını, yalnız gələcəklə bağlı olmasını şeirdə qabarda bilmişdir:

*Tarix boyu silkələnib*
*yırğanmışıq,*
*için-için doğranmışıq.*
*Yenə ümidlər kəsib*
*başımızın üstünü.*

Şairin sərbəst şeir şəklində qələmə aldığı "Qeyrət" şeirinin problematikası isə tamam başqa bir mövzunu əhatə edir. Müəllifin toxunduğu problem qeyrət məsələsini açıqlayır:

*Tərəziyə qoyublar*
*qeyrətləri...*
*Kimində az,*
*kimində çox.*
*Dəhşət odur,*
*kimində yox!*

Qeyrət dedikdə, ilk ağla gələn amil insanın öz namus və şəxsiyyətini, vətənini, dinini qoruması gəlir:

*Alov olaq,*
*şimşəkləşək,*
*hamılıqla,*
*bütövlüklə*
*qeyrətləşək!*

Bu xüsusiyyətləri müdafiə etməyən şəxslərin isə qeyrətsiz olmasını iddia edirik:

*Qeyrətsizlik ucbatından*
*Sənələrcə batdı*
*adım,*
*itdi dilim.*

Qeyrətsizlik olmayanda hər şeyi itirmək qorxusunu müəllif açıqlamağa nail ola bilmişdir. Müəllif bu şeirində oxucusu ilə dialoq quraraq qeyrətsizliyin törətdiyi fəsadları müzakirə edir:

*Qeyrətsizlik ucbatından*
*milyon dəfə*
*yandı vətən.*

Müəllifin aşılamağa çalışdığı qeyrətin ən mühümü isə namus, Vətən, din qeyrətidir. Şair bu fikirlərində tamamilə haqlı olmasını qeyrətsizlik ucbatından itirilən amillərə aydınlıq gətirməklə açıqlamışdır.

Fərəc Fərəcov səpkili şeirlərini qələmə alarkən, bədii dilin ən mühüm tərkib hissələri olan bədii təsvir və ifadə vasitələrindən də istifadə etmişdir. Müəllif səpkili şeirlərində bədii təsvir vasitələrinin ünsürləri olan epitet, metafor, təkrir, bədii ifadə vasitələrinin ünsürləri olan bədii təzad, mübaliğə, inversiya və s. bədii vasitələrdən istifadə etmişdir.

Fərəc Fərəcov bədii təsvir vasitələrindən biri olan epitetdən sərbəst şeir şəklində qələmə almış olduğu şeir nümunələrində tez-tez istifadə etmişdir. "Halal çörək – haram tikə" şeirində antonim sözlərdən istifadə edilməklə yanaşı, halal çörək, halal tikə ifadələrində epitetə müraciət özünü göstərmişdir. Müəllif çörək, tikə sözlərinə qüvvətləndirici başqa bir sözü əlavə edir ki, ədəbiyyatşünaslıqda bu bədii təyin adlanır. Çörək sözünə əlavə olunan halal, tikə sözünə əlavə olunan haram sözləri təyinedici funksiya rolunda çıxış edirlər. Müəllifin şe-

irdə istifadə etdiyi epitetlərə özü aydınlıq gətirmişdir. "Halal çörək" deyildikdə zəhmətlə qazanılmış nemət, haram tikə deyildikə isə vicdanını satmışları nəzərdə tutur:

***Halal şörək** – alın təri,*
*əl qabarı,*
*üz ağlığı...*
*Bir də ürək saflığı.*
***Haram tikə** -*
*cılız ürək,*
*naqis ürək,*
*ta nə deyək...*

"Yazıq dünya" şeirində müəllif şeirin adına çıxardığı başlığı da epitet şəklində təqdim etmişdir. Dünya yazıq ola bilməz, müəllif şeirdə insanların etdiyi bədxahlıqların qarşısının alınmamasını yazıq dünya deyərək ifadə edə bilmişdir:

***Yazıq dünya,***
*nə zamandır qoynunda*
*bəslədiyin insanlar*
*sənə meydan oxuyurlar.*
*Sən də çarəsiz-çarəsiz baxırsan.*

Fərəc Fərəcov sərbəst şeir şəklində olan şeirlərində istiarədən də məharətlə istifadə etmişdir. Müəllif şeirində predmetin müəyyən əlamətini başqa bir predmetin üzərinə köçürə bilmişdir. "Səhər" şeirində bunun şahidi oluruq:

*Dan yeri*
*sökülür,*
*əllərini yığır*
*qaranlıq.*

Dan yeri sökülə bilməz, qaranlığın da əlləri yoxdu ki, yığa. Müəllif bunları metafora şəklində ifadə edə bilmişdir.

F.Fərəcov sərbəst şeir şəklində qələmə aldığı "Təki ürək qocalmasın" şeirində eyni sözü təkrar etmişdir:

> ***Qocalıq hər ünvan*** *izlər...*
> ***Qocalıq hər ünvan*** *gözlər...*
> *dolanır*
> *mənim də*
> *həndəvərimdə.*

Şair "Qocalıq hər ünvan" sözlərini misraların başlanğıcında şeirin bədii təsir gücünü artırmaq məqsədilə təkrarlamışdır. Misraların əvvəlində işlətdiyi üçün müəllifin yararlandığı bu təkrir anaforadır. Bu şeirin

***Ürəyimə, ürəyimə*** buraxmaram!

misrasında müəllif "ürəyimə, ürəyimə" sözünü misranın əvvəlində təkrar edərək anafora yaratmışdır.

"Qorxuram" şeirində isə "soyuq" sözünün misraların əvvəlində təkrar edilməsi ilə anafora yaradılmışdır:

> ***Soyuq*** *hava,*
> ***Soyuq*** *aş,*
> ***Soyuq*** *savaş...*

F.Fərəcov sərbəst şeir şəklində qələmə almış olduğu şeirlərdə məzmunca bir-birinə zidd iki anlayış və ya vəziyyəti qarşılaşdırmağa nail ola bilmişdir. Məsələn, naməlum əsgərin abidəsi önündəki düşüncələrini "Ehtiram" şeirində əks etdirməklə bərabər, bədii təzaddan istifadə edir:

> *Onu bilirəm ki,*
> ***cavan da,***

***qoca da** –*
*hamı*
*Qarşınızda ehtiramla*
*baş əyir.*

Bu nümunədə "cavan da, qoca da" sözləri bir-biri ilə əks mənalı sözlərin qarşılaşdırılmasıdır. Müəllifin antonimləri qarşılaşdırması nəticəsində bədii təzadın antiteza növünün nümunəsi yaradılmışdır.

Fərəc Fərəcov "Müharibə - Sülh" şeirində isə bədii təzadın kontrast növünü yarada bilmişdir. Müəllif bir-birinə zidd vəziyyəti, hadisəni qarşılaşdırmışdır:

*Lüğətlərin ən əzizi*
*"**sülh**" sözüdür.*
*Ən acısı,*
*ən ağırı "**müharibə**"*
*Yol verməyək gərək hərbə!*

Fərəc Fərəcov sərbəst şeir şəklində qələmə aldığı nəzm nümunələrində nəzərə çatdırılacaq hər hansı bir hadisəni, yaxud da hiss-həyəcanı əslində olduğundan daha qabarıq şəkildə tərənnüm etmək üçün hiberbolaya müraciət etmişdir. Məsələn, şairin "Ehtiram" şeirindəki

***Arzu ümman,***
***arzu dəniz***

– misralarında arzunun böyüklüyünü oxucuya mübaliğəli şəkildə çatdırmağa nail ola bilmişdir. Lirik qəhrəman arzunu ümman, dəniz qədər olmasını vurğulamaqla böyüklüyünə, nəhəngliyinə işarə etmişdir. Ümman böyük dəniz, dərya, okean mənasını verir.

Müəllifin səpkili şeirlərində şeirin bədii təsir gücünü artırmaq üçün sözlərin qrammatik ardıcıllığını məqsədli şəkildə pozmasının şahidi oluruq. Sərbəst şeirdə sərbəstlik olmasına rəğmən, bu heç də qafiyəsiz, ahəngsiz şeir demək deyil. Qrammatik ardıcıllıq pozulması yol verilməzdir. Ancaq biləərəkdən qrammatik ardıcıllığın pozulması, müəllif tərəfindən belə məqsədli pozulma inversiya adlanır:

*İnsan tutub bu dünyanın*
*Bərk-bərk əllərindən*
*Aparır işığa.*
*Milyon illərdir onu*
*Sevib, əzizləyir,*
*Bəzəyib-düzəyir,*
*Mindirir yaraşığa.*

Fərəc Fərəcovun "Dünya da çəkinir" səpkili şeirindən verilmiş bu nümunədə "aparır", "mindirir" və s. xəbərləri misraların əvvəlində işlətmişdir.

Şairin səpkili şeirlərində geniş mənada işlənən surətlər arasında insan, əşya, heyvan, müsbət və ya mənfi surətlərə rast gəlinir. İnsan mənasından kənara çıxaraq insan həyatının əks etdirilməsi tərənnüm edilən bu surətlərdə özünü ifadə edə bilir. Məsələn, şairin "Hər əmrinə müntəzirəm" səpkili şeirdə Vətənin obraz səviyyəsinə yüksəldilməsi diqqətdən yayınmır:

*Fikrimin, düşüncəmin*
*öncəsi,*
*sözümün, söhbətimin*
*incisi.*
*Qürurumun, ilhamımın*
*özəyi,*
*ömrümün mənası, bəzəyi.*

*Onsuz əsla olmaz*
*sevincim, səadətim,*
*hər əmrinə müntəzirəm,*
*Vətənim!*

F.Fərəcovun "Yağış" səpkili şeirində yağış surət kimi təqdim edilmişdir. Müəllif bədii şəkildə əks olunan faktları təbiət löhvələri ilə bağlamağa qadir olur:

*Yağış yağır*
*bağçaya, bağa.*
*Yağış yağır,*
*həyat bəxş eyliyir*
*torpağa.*
*Yağış – Göyün yerə*
*qarşılıqlı*
*məhəbbəti.*
*Yağış – Göyün Yerə*
*qarşılıqlı səxavəti,*
*hörməti.*

"Hər əmrinə müntəzirəm", "Yağış" və s. bu kimi səpkili şeirlərdə surətlərin geniş mənada işlədilməsinin şahidi oluruq. "Anama", "Anam" və s. səpkili şeirlərdə isə surətlərin məhdud mənada işlədilməsinin şahidinə çevrilirik. Müəllif qələmə aldığı səpkili şeirlərdə konkret bir adamı, yəni bir şəxsi tərənnüm edir. Məsələn, "Anam" səpkili şeirində müəllif anasının obrazını yaratmışdır:

*Göz açandan*
*sevincim, şəkərim,*
*dadım.*
*Ömrünlə bağlıdır adım.*

*Taleyimin çəfakeşi,*
*yananı.*
*Məni bir dağ*
*sananı.*
*Qayğı, məhəbbət*
*baxışlı sonam –*
*anam.*

Fərəc Fərəcov yaradıcılığında olduğu kimi səpkili şeirlərində də təsvir etdiyi həyat hadisələrini surətlər vasitəsilə əks etdirə bilmişdir. Müəllifin səpkili şeirlərində özünü göstərmiş obrazlar maraq kəsb edir.

# IV FƏSİL

## FƏRƏC FƏRƏCOVUN ŞİFAHİ XALQ ƏDƏBİYYATI JANRLARINA YARADICI MÜRACİƏTİ

Fərəc Fərəcovun ağız ədəbiyyatına tez-tez müraciət etməsi diqqəti cəlb edir. Bu müraciət özünü müəllifin şifahi xalq ədəbiyyatı janrlarında əsər qələmə alınmasında göstərməmişdir. Lakin müəllifin çoxvariantlı xalq ədəbiyyatından qaynaqlanaraq, bu ədəbiyyata xas janrlarda qələmə alınmış nümunələrdən qələmə aldığı əsərlərdə istifadə etməsində özünü büruzə vermişdir. F.Fərəcovun yaradıcılığında daha çox folklorun lirik və epik növlərinə müraciət etməsi diqqəti cəlb edir. Müəllif şifahi xalq ədəbiyyatının lirik növünə daxil olan, ən geniş yayılmış bayatı janrına, epik növə aid atalar sözlərindən geniş istifadə etmişdir. Məsələn, "Müstəqillik yollarında" poemasında aaba şəklində qafiyələnmiş, dörd misralı, hər misrası yeddi hecadan ibarət olan bayatıdan istifadə etməsi diqqəti cəlb edir:

*Əzizim Ordubada,*
*Yol gedir Ordubada.*
*Sərkərdə qoçaq olsa*
*Heç verməz ordu bada.*[134]

Bayatılardan istifadə ədibin hekayə yaradıcılığında da özünü göstərmişdir. Müəllifin istifadə etdiyi bayatıların mövzu və məzmunca müxtəlif olması da diqqəti cəlb edir. Fərəc Fərəcovun istifadə etdiyi bayatılar qəmli, kədərli və həzin olduqları kimi, fövqəlzaman və fövqəlməkan olmaları ilə diqqəti cəlb edirlər. Müəllif ayrılığı, qürbət sıxıntısını əks etdirən, Vətən məhəbbəti ilə bağlı olan, ictimai məzmunlu bayatılardan istifadə etmişdir.

---

[134] F.Fərəcov. Müstəqillik yollarında. Naxçıvan, "Əcəmi", 2012, 40 səh., s.11

Fərəc Fərəcovun hekayələrində məna dərinliyi və bədii zənginliyi özündə əxz etdirən bayatılardan istifadə etmə məqamı da diqqəti cəlb edir. "Torpaq" hekayəsində bədii zaman və məkanı şərtləşdirən bayatının epiqraf kimi təqdim edilməsi diqqətdən yayınmır:

*Əzizinəm Vətən yaxşı,*
*Geyməyə kətan yaxşı.*
*Gəzməyə qərib ölkə,*
*Ölməyə Vətən yaxşı.*

Fərəc Fərəcovun "Günəş" hekayəsində də sadə və yığcam bayatıya müraciət etməsini müşahidə edirik. Fərəc Fərəcov mühitlə bağlı olan hadisələri şəxsi hisslərlə çulğaşdırmaqla poetik modelə uyğunlaşdıraraq təqdim edə bilir:

*Ovçular duran yerdə,*
*Yay-oxun quran yerdə,*
*Görüm əlin qurusun*
*Mənə ox vuran yerdə!*

***

*Bağında yasəməni,*
*Laləni, yasəməni.*
*İstədim yasdan çıxım,*
*Yar saldı yasa məni...*[135]

Maraqlı məqamlardan biri də, odur ki, bayatıların əksəriyyəti analar tərəfindən söylənilir. "Müstəqillik yollarında" poemasında şəhid anası Qönçənin dili ilə, "Günəş" hekayəsində isə övladlarını nakam itirmiş Əsmər xalanın dili ilə verilməsi təsadüfi deyildir.

---

[135] F.Fərəcov. Hekayələr. Naxçıvan, "Əcəmi", 2007, 96 səh., s.6

Atalar sözündən istifadə edilmə də Fərəc Fərəcovun yaradıcılığında xali deyildir. Məsələn, "Müstəqillik yollarında" poemasında "Yüz ölçüb, bir biçdi o," misrasında fikir "yüz ölç, bir biç" yığcam və dərin mənalı atalar sözlərindən istifadə etmişdir.

Fərəc Fərəcovun "Zona müxbiri" hekayəsində "saman altından su yeridəndir" fikri "saman altından su yeritmək" frazeoloji birləşməsini əks etdirir. Yazıçının istifadə etdiyi saman altından su yeritmək idiomunun izahı hər hansı bir şəxsin göründüyü kimi deyil, yəni zahirən sakit, fəaliyyətsiz görünməsinə baxmayaraq, gizlində öz işlərini görməsi, altdan-altdan ara qarışdırmasını əks etdirir.

Fərəc Fərəcovun publisist yazılarında da atalar sözləri və məsəllərindən istifadə etməsinin şahidi oluruq. Müəllif "Çətin günlərdə" adlı publisist yazısında "haqq nazilər, üzülməz" atalar sözündən istifadə etmişdir. Heydər Əliyevin Qorbaçov rejiminin, erməni lobbisinin təzyiqlərinə məruz qalmasına toxunmuş müəllif bu amili belə təsvir etmişdir: "Həm Moskvada, həm də Azərbaycanda qəzet və jurnallar vasitəsilə bu böyük şəxsiyyətə, onun gördüyü nəhayətsiz işlərə qara yaxmağa çalışdılar. Lakin atalar demişkən, ***haqq nazilər, üzülməz***. Üzülmədi də..."

"Zülmətdə işıq" povestində müəllif bir çox atalar sözü və məsəllərdən istifadə etmişdir. Məsələn, "it də getdi, ip də" atalar sözünü işlətməklə Azərbaycan torpaqlarına göz dikən ermənilərin heç nə əldə etməmələrinə işarə edilmişdir: "Görünür axırımız çatıb... Daha nə olmalıydı?! ***İt də gedəcək, ip də".***[136] "Zülmətdə işıq" povestində bir çox atalar sözləri və məsəllər işlənilmişdir: "Nə salarsan aşına, o da çıxar qaşığına", "İtə də bir əppək borcluyuq", "Taylı tayını tapar", "Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım", "Yersiz gəldi, yerli qaç", "Əl əli yuyar, əl də üzü", "Çörəyi dizinin üstündə" və s. bütün bu

---

[136] F.Fərəcov. Zülmətdə işıq // Cavabsız sevgi. Bakı, 2017, 152 səh., s.97

atalar sözlərinin məqamında işlənilməsi yazıçının sənətkarlığının, folklora dərindən bələd olmasının göstəricisidir.

Fərəc Fərəcov ağız ədəbiyyatının çeşidli, səciyyəvi janrlarına böyük önəm verməklə əsərlərində istifadə etməsi ilə tarixi yaddaşa, milli ənənələrə olan bağlılığını əks etdirə bilmişdir. F.Fərəcovun folklora müraciət etməsi Azərbaycan bədii ədəbiyyatı ilə xalq ədəbiyyatının bir-birilə bağlı olmasının təzahürünün nəticəsidir. Həmçinin, xalq ədəbiyyatının dövrün hadisələri ilə bağlı olması, yaddaşlarda yaşamasının göstəricisidir. Fərəc Fərəcovun ağız ədəbiyyatı nümunələrindən qələmə aldığı bədii əsərlərdə istifadə etməsi yazılı ədəbiyyatın ənənəvi folklor şüuruna meydan açmasını bir daha təsdiq etmiş olur.

## V FƏSİL

# FƏRƏC FƏRƏCOV YARADICILIĞINDA NƏŞR EDİLMİŞ KİTABLARIN JANR MÜXTƏLİFLİYİ, KİTAB TƏRTİBATI

### *§1. Fərəc Fərəcovun nəşr edilmiş kitablarının janr müxtəlifliyi*

Fərəc Fərəcovun "Sən olmasaydın" kitabı iki janrı özündə əks etdirmişdir: nəzmi və publisistikanı. Müəllif müxtəlif dövrlərdə qələmə aldığı nəzm və elmi publisist nümunələri kitabda toplamışdır. Maraqlı məqam budur ki, kitab müəllifin Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən bədii və publisist nümunələri özündə əks etdirmişdir. Müəllif kitabın onun üçün böyük əhəmiyyət kəsb etməsini isə "Müəllifdən" başlıqlı yazıda göstərə bilmişdir: "...Bu kitab hələ sovet dönəmində hakimiyyətə gəldiyi ilk illərdən tanıdığım, sonsuz sevgi bəslədiyim dahi insan haqqında iç dünyamdan süzülüb gələn duyğularımın, fikirlərimin kiçik bir toplusudur. Başqa adla desək, adi bir vətəndaşın, adi bir insanın öz istedadının gücü daxilində rəhbərə olan tükənməz və heç zaman da tükənməyəcək məhəbbətinin qələmə alınmış ifadəsidir".[137]

"Sən olmasaydın" kitabında "Sən olmasaydın", "Haydı, irəli!", "Bu "75" adi deyil", "Heydəri yetirən xalq", "Yaşa millət, yaşa xalqım", "Yenidən səs verək", "Qoşulaq haqq səsinə", "Ucalan bayrağımız", "Müdriklik yaşı", "Qurtuluşum olmasaydı", "Ondan öyrənirik biz", "Dönməyəcəkdir", "Xilaskar oldu", "Sən nicat etdin", "Zirvəyə çatdın" kimi şeirləri, "Çətin günlərdə", "Ağlın, zəkanın qələbəsi", "Tanrı istəyi-tanrı qisməti", "Öz xalqının vətənpərvəri", "İnkişafımızı təmin edən amil: Heydər Əliyev siyasəti", "Bu da Tanrı bəxşişidir",

[137] F.Fərəcov. Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh., s.3

"Sözlə işin vəhdəti", "Qayıdış"da şərəfli tariximiz", "İqtisadiyyat sürətlə artır, proqramlar uğurla icra olunur", "Zaman ötdükcə gözümüzdə ucalan dahi", "Zamana sığmayan dahi", "Azərbaycanlı olmaq şərəfi" və s. publisist yazılarda Heydər Əliyevin Azərbaycan xalqı və cəmiyyətinin tərəqqisi uğrundakı fəaliyyətinə nəzər salınmışdır. Heydər Əliyev görkəmli dövlət xadimi olaraq, çoxəsrlik dövlətçilik ənənələrini uğurla həyata keçirməyə nail olmuş şəxsiyyət olması ziyalılarımız tərəfindən daim vurğulanmaqdadır: "...Heydər Əliyev Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələri zəminində yetişib formalaşmış görkəmli dövlət xadimidir".[138] Fərəc Fərəcovun müəllifi olduğu "Sən olmasaydın" kitabında Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi özünüdərketmənin Heydər Əliyev siyasətinin, milli dövlətçilik təliminin ana xəttini təşkil etməsini və əsas prinsiplərindən olması əksini tapa bilmişdir. Bu baxımdan, "Sən olmasaydın" kitabı "...müəllifin sənət axtarışlarının diqqətəlayiq nailiyyəti sayıla bilər".[139]

## *§2. Fərəc Fərəcov yaradıcılığında kitab tərtibatı*

Əməkdar jurnalist Fərəc Fərəcov jurnalistlik fəaliyyətini dərindən duya bilən şəxslərdəndir. F.Fərəcovun "Muxtar respublika mətbuatı: dünən və bu gün" və "Jurnalist" kitablarında dördüncü hakimiyyət nümayəndələrinin mətbuatda işıq üzü görmüş yazıları toplanılmışdır. Dördüncü hakimiyyət nümayəndələrinin fəaliyyətinin heç də asan olmadığı Fərəc Fərəcov tərəfindən xüsusi olaraq vurğulanmışdır: "Jurnalist təkcə gördüyü və əldə etdiyi məlumatlarla kifayətlənmir, geniş kütlələrə çatdıracağı yazılarına, televiziya və radio verilişlərinə öz

---

[138] İsa Həbibbəyli. Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz // Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. Bakı, "Elm və təhsil", 2018. 400 səh., s.8

[139] Hüseyn Həşimli. Yaddaş işığı // F.Fərəcov. Ömür bir nağıldır: xatirə-roman. Bakı, "Elm və təhsil", 2014, 184 səh., s.5

ürəklərini, öz düşüncələrini də hopdururlar. Jurnalistin də böyüklüyü, onun xalqın gözündə ucalmasının başlıca səbəbi də məhz bundadır".[140] Ulu Öndər Heydər Əliyev mətbuatın cəmiyyətdəki nöqsan və çatışmamazlıqları tənqid etməsini yüksək dəyərləndirmiş, cəmiyyətin həmin tənqidlərdən ibrət götürməklə həmin nöqsan və çatışmamazlıqları dəf etməsi amilini vurğulamışdır. Heydər Əliyev bu sahədə xidmətləri olan jurnalistlərin əməyinin çətin olmasını qeyd etmişdir: "Mən jurnalistlərə, mətbuat orqanlarına böyük hörmətlə yanaşıram. Sizin əməyinizi çox ağır, mürəkkəb əmək hesab edirəm. Özünü bu peşəyə həsr edənlər əsl hünər göstərirlər".[141]

Fərəc Fərəcovun "Jurnalist" kitabının tərtibatının nə məqsəd daşıması bir tərtibatçı kimi kitaba yazdığı "Ön söz"ündə aydınlıq gətirilməsində özünü göstərmişdir: "Hazırda ölkəmizdə əvvəlki dövrlərdən xeyli çox mətbuat, tele-radio işçisi çalışır. Onların arasında qeyri-ixtisas peşə sahibləri az deyil. Peşəkarlıq səviyyəsi də bəzən gözlənilmir. Qəzetlərdə siyasiləşmə meyilləri də meydana çıxır.

Məhz bu şəraitdə jurnalist necə olmalıdır? O, kimə, nəyə xidmət etməlidir? Və s. bu kimi suallar yaranır. Elə bu kitabı araya-ərsəyə çıxarmaqda məqsəd də həmin suallara aydınlıq gətirməkdədir".[142]

Əməkdar jurnalist Fərəc Fərəcov "Muxtar respublika mətbuatı: dünən və bu gün" kitabını da Naxçıvanın mətbuat tarixini və onun vəziyyətini keçmiş və müasirlik prizmasının baxış bucağından təqdim etmişdir. "Naxçıvan mətbuatı haqqında bu ilk kitab"da [143] Heydər Əliyevin hakimiyyət dövrünün "Mətbuatımızın inkişaf mərhələsi" kimi dəyərləndirməsi mətbuatın tərəqqisindəki yüksəlişi əks etdirir: "Gələcəkdə Azər-

---

[140] F.Fərəcov. Ön söz // Jurnalist. Naxçıvan, "Əcəmi", 2007, 112 səh., s.9
[141] Yenə orada, s.3
[142] Yenə orada, s.9-10
[143] F.Fərəcov. Ön söz və ya ürəyimdən keçənlər // Muxtar respublika mətbuatı: dünən və bu gün. Naxçıvan, "Əcəmi", 2006, 144 səh., s.23

baycanın mətbuat tarixini araşdırsalar "Jurnalistlərin dostu" adına layiq görülmüş Ulu öndərimizin hakimiyyət dövrünü "Mətbuatımızın inkişaf mərhələsi" kimi xarakterizə edəcəklər".[144]

Fərəc Fərəcov KİV nümayəndələrini ölkəsinin torpağını xarici və daxili təhdidlərdən qorumağa qadir olan əsgərlərlə müqayisə etmiş, qələmə almış olduqları hər bir yazılarında vətən sevgilərini hopdurmalarını da vurğulamışdır: "Jurnalist, hər şeydən əvvəl xalqının, dövlətinin təmsilçisidir. O da öz sahəsində vətəninin əsgəridir. Jurnalistin hər bir fikrindən, sözündən vətənə məhəbbət iyi gəlməlidir".[145]

"Jurnalist" kitabında Nurəddin Babayevin "Televiziya-tale qismətim", Muxtar Məmmədoğlunun "Jurnalist çətin, həm də şərəfli yolun yolçusudur", İman Cəfərovun "Azərbaycan jurnalisti: dünən, bu gün, sabah", Məlahət Allahverdiyevanın "Radio jurnalistikası", Elman Telmanoğlunun "Jurnalistin vicdanı gecə-gündüz ayıq olmalı, onu büdrəməyə, xırda duyğuların əsiri olmağa qoymamalıdır...", Rövşən Hüseynovun "Vacib peşə", İlkin Rzayevin "Nəyə görə jurnalistika?", Məmməd Babayevin "Niyə jurnalist oldum", Çinarə Məmmədovanın "Özümü xoşbəxt hiss edirəm", Səadət Talıbovanın "Ən müqəddəs peşə" kimi məqalələr yer almışdır. Biz bu məqalələrdə jurnalistin yalnız xəbər və ya digər cari məlumatları toplayan və ya qələmə alaraq cəmiyyətlə paylaşan bir insan kimi deyil, vətəninə, xalqına bağlı olan, peşəsini ürəkdən sevən ixtisaslaşmış peşə sahiblərini görə bilirik.

"Jurnalistlərin dostu" adına layiq görülmüş Heydər Əliyev Azərbaycan mətbuatının mütərəqqi ideallara xidmət etməsini xüsusi olaraq vurğulamışdır: "Azərbaycan mətbuatı tarix boyu daim mütərəqqi ictimai ideálların carçısı kimi çıxış etmiş, xal-

---

[144] F.Fərəcov. Ön söz və ya ürəyimdən keçənlər // Muxtar respublika mətbuatı: dünən və bu gün. Naxçıvan, "Əcəmi", 2006, 144 səh., s.23

[145] F.Fərəcov. Ön söz // Jurnalist. Naxçıvan "Əcəmi", 2007, 112 səh., s.10

qımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini vermiş, onun müstəqillik amalının güclənməsində, mənəvi dəyərlərin tərəqqisində, milli şüurun, mədəniyyətin formalaşmasında böyük rol oynamışdır".[146]

Fərəc Fərəcovun tərtibçisi olduğu "Muxtar respublika mətbuatı: dünən və bu gün" kitabında Naxçıvan mətbuatının tərəqqisini və tarixini işıqlandıran seçmə məqalələr toplanılmışdır. Kitabda Seyid Surənin "85 illik tarixin mətbuat salnaməsi", "Sovetlər dövründə nəşr olunan ilk müstəqil qəzet", "Ədəbiyyat" və "Surət" qəzetlərinin nəşri tarixinə bir nəzər", "Qədim yurdun yeni mətbu orqanı", Elman Telmanoğlunun "Pambığa doğru"dan başlanan 75 illik şərəfli yol", Mətanət Məmmədovanın "Oğuz səsi" ömrünün 70-ci baharında", Hüseyn Şəkərəliyevin "Rayonumuzun tarixi salnaməsi", Vaqif Qənbərovun "Doğma qəzetimiz", Hafizə Əliyevanın "Rayon həyatının güzgüsü", Vaqif Məmmədovun "6 yaşını tamam edən qəzet", Cabir Hacıyevin "Yeni həyat"ın ilk addımları", Rövşən Hüseynovun "Azərbaycanı Avropa ailəsinə aparan mətbuatımız" kimi məqalələr toplanılmışdır.

Fərəc Fərəcovun tərtibçisi olduğu "Muxtar respublika mətbuatı: dünən və bu gün" kitabındakı məqalələrlə tanış olduqca Muxtar Respublikanın mətbuat tarixini yaxından izləmək mümkün olur. "Şərq qapısı", "Nuh yurdu", "Şərurun səsi", "Şərqin səhəri", "El həyatı, "Arazın səsi", "Yeni həyat", "Oğuz səsi", "Oğuz yurdu" kimi mətbu orqanlarının keçdiyi yol və inkişaf etdiyi tarixi məqam haqqında təəssürat yaranır. "Bu gün mətbuat müstəqil dövlət, sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, iqtisadi və sosial islahatların həyata keçirilməsində, cəmiyyətdə sosial ədalət və şəffaflığın təmin edilməsində, həmrəylik və tolerantlıq mühitinin yaradılmasında, milli şüurun, siyasi mədəniyyətin və bütövlükdə sağlam

---

[146] Heydər Əliyev mətbuat haqqında // Fərəc Fərəcov. Muxtar respublika mətbuatı: dünən və bu gün. Naxçıvan, "Əcəmi", 2006, 144 səh., s.5

mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynamalıdır".[147] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mətbuat tarixinə və roluna işıq salan bu fikri Azərbaycan Respublikasının mətbuatının yüksək ideallara xidmət etməsinin göstəricisidir.

---

[147] F.Fərəcov. Ön söz // Jurnalist. Naxçıvan, "Əcəmi", 2007, 112 səh., s.5

# NƏTİCƏ

Söz sənəti xalqın yaddaşını yaşatmaqla, tarixi və yaşayış tərzini əks etdirməyə qadirdir. Söz sənəti milli süurun təşəkkül və inkişafı üçün mühüm amillərdən biridir. Fərəc Fərəcovun qələminə məxsus bədii və publisist əsərlər də xalqın qan yaddaşını əks etdirə bilmişdir. Müəllif söz sənətindən yalnız informasiya vermək məqsədi güdməmişdir. F.Fərəcov xalqın tarixi yaddaşına həkk olunmuş soyqırım məsələlərinə toxunmaqla keçmişin günümüzə çatdırılmasına xidmət etmişdir. Müəllif tarixi yaddaşa həkk olunmuş tarixi, canlı hadisələri bədii ədəbiyyata köçürməklə geniş oxucu nəslinin bununla tanış olmasına imkan yarada bilmişdir. Fərəc Fərəcovun qələmə aldığı miniatürlər, hekayələr, povest, romanlar, poema, şeirlər, sərbəst seirlər və s. milli şüurla paralel şəkildə inkişaf edən milli ədəbiyyatın inkişafında müəyyən xidmətlər göstərmiş oldu. Əsərlərində istifadə etdiyi frazem kimi formalaşmış ifadələr xalqın tarixi yaddaşının unudulmamasına imkan vermədiyinin göstəricisidir. Həmçinin milli ənənəvi janrları da inkişaf etdirməsi ədibin yaradıcılığında özünü göstərməkdədir. Fərəc Fərəcovun "Müstəqillik yollarında" əsərinin məsnəvi formasında qələmə alınması milli janr ənənələrinin müasir dövrdə davam etdirilməsidir. Fərəc Fərəcov bədii və publisist yaradıcılığı ilə söz sənətinə qayğı və diqqətlə yanaşmasını göstərə bilmişdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. A.Yadigar // Fərəc Fərəcov. Elə bağlıyam. Naxçıvan, "Əcəmi", 2007, 96 səh.
2. E.Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr). Bakı, "Azərnəşr", 1997, 92 səh.
3. F.Fərəcov. Aydın sabahlar. Bakı, "Vektor", 2005, 410 səh.
4. F.Fərəcov. Cavabsız sevgi. Baki, "Elm və təhsil", 2017, 152 səh.
5. F.Fərəcov. Culfa şəhidləri. Bakı, "Siyasət nəşriyyatı", 1999, 112 səh.
6. F.Fərəcov. Elə bağlıyam. Naxçıvan, "Əcəmi", 2007, 96 səh.
7. F.Fərəcov. Hekayələr. Naxçıvan, "Əcəmi", 2007, 96 səh.
8. F.Fərəcov. Jurnalist. Naxçıvan, "Əcəmi", 2007, 112 səh.
9. F.Fərəcov. Muxtar respublika mətbuatı: dünən və bu gün. Naxçıvan, "Əcəmi", 2006, 144 səh.
10. F.Fərəcov. Müstəqillik yollarında. Naxçıvan, "Əcəmi", 2012, 40 səh.
11. F.Fərəcov. Ömür bir nağıldır: xatirə-roman. Bakı, "Elm və Təhsil", 2014, 184 səh.
12. F.Fərəcov. Sən olmasaydın. Naxçıvan, "Qızıl dağ", 2010, 116 səh.
13. F.Fərəcov. Sənət məbədinin sənətçiləri. Naxçıvan, "Əcəmi", 2008, 112 səh.
14. F.Fərəcov. Vətən qürurumdur mənim. Bakı, "Gənclik", 1999, 144 səh.
15. F.Fərəcov. Yaycı soyqırımı. Naxçıvan, "Əcəmi", 2002. 120 səh.

16. F.Fərəcov. Yaycı yetirmələri. Bakı, "Gənclik", 2000, 308 səh.

17. G.Məmmədova. Həyatın bədii aynası // F.Fərəcov. Aydın sabahlar. Bakı, "Vektor", 2005, 410 səh.

18. https://apa.az/az/bloq/blog/-single/20-Yanvar-tariximizin-srf-v-qhrmanliq-shifsi-29

19. H.Həşimli. Yaddaş işığı//F.Fərəcov. Ömür bir nağıldır: xatirə-roman. Bakı, "Elm və təhsil", 2014, 184 səh.

20. İsa Həbibbəyli. Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz//Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. Bakı, "Elm və təhsil", 2018. 400 səh.;

21. Q.Qeybullayev. Qədim Türklər və Ermənistan. Bakı, "Azərnəşr", 1992, 140 səh.

22. M.S.Ordubadi Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991

23. Y.Şardən. Səyahətnamə. Parisdən İsfahana səyahət. Amsterdam, 1711. Bakı, "Elm", 1994, 96 səh.

24. Y. Seyidov. Nağı Nağıyev // Nağı Nağıyev. Seçilmiş əsərləri. Bakı, 1967

25. В.Алташина. Роман-мемуары во французской литературе XVIII века: генезис и поэтика: диссертация ... доктора филологических наук: 10.01.03. - Санкт-Петербург, 2007. 550 с.

26. П.В.Палиевский. Роль документа в организации художественного целого / П.В. Палиевский// Проблемы художественной формы социалистического реализма. В 2 т. – М.,1971. – Т. 1.

27. С.Ш.Шарифова. Жанровое смещение в романе: коммуникативно-социокогнитивный подход. – Москва, "Московский парнас", 2011. 400 с.

## TARİXƏ HƏKK OLUNMUŞ ANLAR



**Fərəc Fərəcov**



Rza Fərəcov və Zeynəb Fərəcova
(Fərəc Fərəcovun ata və anası)



Fərəc Fərəcov, Şamama Fərəcova
Övladları: Rza Fərəcov, Malik Fərəcov,
Elşən Fərəcov və Sevil Fərəcova




Fərəc Fərəcov həyat yoldaşı Şamama xanım Fərəcova ilə



Fərəc Fərəcov



19 iyun 2007-ci il, Naxçıvan
Fərəc Fərəcov, Asim Yadigar
Yavuz Axundov, şair Həsən Valeh



Fərəc Fərəcov və Məmməd Araz



1 iyul 2007-ci il, Naxçıvan Yazıçılar Birliyində
Birliyin sədri Asim Yadigar Əliyev Fərəc Fərəcovun 60 illik
yubiley münasibətilə mükafat təqdim edərkən



Fərəc Fərəcov və Əflatun Amaşov





Naxçıvan Dövlət Universitetinin
Ədəbiyyat fakultəsinin tələbələri





4 noyabr 2012-ci il
Akademik İsa Həbibbəyli ilə 1-ci buraxılış
Ədəbiyyat fakultəsinin tələbələrinin görüşü



2012-ci ildə Akademik İsa Həbibbəyli ilə görüş
Naxçıvan Dövlət Universitetində görüş



Naxçıvan Dövlət Unversiteti
Akademik İsa Həbibbəylinin ziyalılar ilə görüşü



24 aprel 2013-cü il, Naxçıvan
Aqil Abbasla Muxtar Respublika yazıçı və ziyalılarının görüşü



26 aprel 2013-cü il, akademik İsa Həbibbəyli ilə görüş



1997-ci il, Naxçıvan İnstitutunun 30 illik yubileyi



Hüseyn Lazımov, Fərəc Fərəcov, Akif İmanlı,
Həsən Ənnağıyev, Əsəd Əsədov, Zakir Məsiyev
(qrup yoldaşları)



Naxçıvan Dövlət Universitetində görüş



Akademik İsa Həbibbəyli və Fərəc Fərəcov, tələbə yoldaşları ilə




Fərəc Fərəcovun 70 illik yubileyi
Rəhman Məmmədov (Ali Məclisin şöbə müdiri)
Muxtar Respublikanın jurnalist və ziyalıları

MÜNDƏRİCAT

**İsa Həbibbəyli.** *Əməldə və əsərlərində özünüifadə nümunəsi (ön söz)* ........ 3

**Giriş** ........ 11
**I fəsil.** Fərəc Fərəcov yaradıcılığında publisistika ........ 14
§1. Fərəc Fərəcovun bədii publisistikası ........ 15
§2. Fərəc Fərəcovun elmi publisistikası ........ 36
**II fəsil.** Fərəc Fərəcov nəsrinin problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri
§1. Fərəc Fərəcov nəsrində kiçik janr formaları ........ 61
§2. Fərəc Fərəcov yaradıcılığında povest ........ 72
§3. Fərəc Fərəcov nəsrində böyük janr formaları ........ 80
§4. Fərəc Fərəcov nəsrində avtobioqrafiklik ........ 89
**III fəsil.** Fərəc Fərəcov şeir yaradıcılığının problematikası, janr müxtəlifliyi və xüsusiyyətləri
§1. Fərəc Fərəcov yaradıcılığında kiçik poetik formalar ........ 101
§2. Fərəc Fərəcov yaradıcılığında poema janrı ........ 117
§3. Fərəc Fərəcov yaradıcılığında sərbəst şeir ........ 124
**IV fəsil.** Fərəc Fərəcovun şifahi xalq ədəbiyyatı janrlarına yaradıcı müraciəti ........ 134
**V fəsil.** Fərəc Fərəcov yaradıcılığında nəşr edilmiş kitabların janr müxtəlifliyi, kitab tərtibatı
§1. Fərəc Fərəcovun nəşr edilmiş kitablarının janr müxtəlifliyi ........ 138
§2. Fərəc Fərəcov yaradıcılığında kitab tərtibatı ........ 139
**Nəticə** ........ 144
**İstifadə olunmuş ədəbiyyat** ........ 145
**Tarixə həkk olunmuş anlar** ........ 147

Məsul redaktor: **fil.f.d. Töhfə Talıbova**

Nəşriyyat redaktorları: **Ülkər Hüseynova**
**Maral Poladova**
**Mehparə Axundova**

Texniki redaktor: **Rəşid Kərimli**

Çapa imzalanmışdır: 29.04.2021
Şərti çap vərəqi: 10,5
Kağız formatı: 60x90 1/16. Tiraj: 300.

---

*Kitab "Qanun" nəşriyyatında*
*hazır elektron variantdan çap olunmuşdur.*

Filologiya elmləri doktoru, Salidə Şərifovanın "Fərəc Fərəcov yaradıcılığının problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri" adlı monoqrafiyası Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, şair, yazıçı, publisist, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Fərəc Fərəcovun yaradıcılığına həsr olunmuşdur. Monoqrafiyada Fərəc Fərəcovun həyatı, bədii və elmi publisistikası, qələmə aldığı nəzm və nəsr əsərlərinin problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri geniş təhlil edilərək, oxuculara təqdim olunur.

9 789952 534122

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında
www.fb.com/qanunpublishing
www.instagram.com/qanunpublishing